**EMİN ARİF (ŞIXƏLİYEV)**



# MÜASİR SƏLİB YÜRÜŞLƏRİNİN HƏDƏFİ:

# TERRORİZM YOXSA İSLAM?!

**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NAXÇIVAN BÖLMƏSİ**
**TARİX, ETNOQRAFİYA VƏ ARXEOLOGİYA İNSTİTUTU**

**EMİN ARİF (ŞIXƏLİYEV)**

# MÜASİR SƏLİB YÜRÜŞLƏRİNİN HƏDƏFİ: TERRORİZM, YOXSA İSLAM?!

***Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi Rəyasət Heyətinin 19 may 2017-ci il tarixli 06/15 nömrəli qərarı ilə (protokol №06) nəşrinə icazə verilmişdir.***

**NAXÇIVAN – 2019**

*Elmi redaktor:* **İsmayıl HACIYEV**
*AMEA-nın həqiqi üzvü*

*Rəyçilər*: **Anar İSGƏNDƏRLİ**
*Tarix üzrə elmlər doktoru, professor*

**Elman NƏSİROV**
*Siyasi elmlər doktoru, professor*

**Elman CƏFƏRLİ**
*Tarix üzrə fəlsəfə doktoru, dosent*

**Siracəddin HACI**
*Filologiya üzrə fəlsəfə doktoru*

**Emin Arif (Şıxəliyev). Müasir səlib yürüşlərinin hədəfi: terrorizm, yoxsa İslam?! Təkmilləşdirilmiş ikinci nəşr. Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2019, 152 s.**

**Birinci nəşr – 2017** **e-mail: emin.amea@yahoo.com**

Əsərin daha da təkmilləşdirilmiş ikinci nəşrində Qərb-İslam sivilizasiyaları arasındakı münasibətlərin tarixi kökləri, İslam sivilizasiyasına qarşı günümüzdə müasir formada aparılan səlib yürüşlərinin yeni hədəfləri, türklərin İslam sivilizasiyasındakı dominant rolu və mövcud vəziyyət təhlil edilmiş, XXI əsrin ən böyük bəlası olan terrorizmin mahiyyətinə, onun İslam dininə şamil edilməsi cəhdlərinə və İslamda terrora baxış məsələsinə aydınlıq gətirilmişdir. Əsərdə eyni zamanda İslam dünyasının geri qalmasındakı əsas səbəblər və İslam həmrəyliyinə mane olan amillər də izah edilməyə çalışılmışdır.

Kitab müvafiq profil üzrə mütəxəssislər və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

4700000000
053-2019

**© "Əcəmi" 2019**

## MÜNDƏRİCAT


*** Önsöz ........................................................................... 5**

*** Giriş ............................................................................ 7**

*** Qərb-İslam sivilizasiyaları arasındakı münasibətlər ...... 10**

*** İslam sivilizasiyasında türklərin yeri və dominant rolu ...... 23**

*** Yaxın Şərqdə geosiyasi vəziyyət və Böyük Oyun ............ 33**

*** Terrorizmin mahiyyəti və İslamda terrora baxış ................ 56**

*** "Cihad" anlayışı və terrorun İslama şamil edilməsi ....... 64**

*** İslam həmrəyliyinə mane olan amillər və dini mövzularda doğru bilinən yanlışlar .......................... 78**

*** Nəticə ........................................................................ 141**

*** Ədəbiyyat .................................................................. 143**

# ÖNSÖZ

Sivilizasiyaların əsas mərkəzlərindən biri kimi tolerant və multikultural ənənələrə hər zaman sadiq olan Azərbaycan İslam dünyasında özünəməxsus rola və nüfuza sahibdir. İslam sivilizasiyasının əsas daşıyıcılarından olan bu tarixi diyar həmişə İslam dəyərlərinə və irsinə həssas münasibət göstərmiş, xüsusi qayğıyla yanaşmışdır. Qeyd etmək lazımdır ki, Azərbaycan İslam ölkələri arasında müasir inkişaf xətti ilə seçilir. Son dövrlərdə müsəlman dünyasında baş verən ziddiyyətlər, müharibələr, terrorçu qruplaşmaların dövlətləri ələ keçirmələri kimi proseslər fonunda Azərbaycan artıq İslam platformasının ən müasir və sabit ölkəsinə çevrilib. Təəssüf ki, günümüzdə İslamı terrorizmin, cəhalətin ünvanı kimi təqdim edən və buna qismən də nail olan məlum şəbəkələr mövcuddur. Etiraf etmək lazımdır ki, bu şəbəkələrin yaratdığı mənfi imic əslində İslamın daxilindəki parçalanmalardan, firqələrə bölünmələrdən, müsəlmanların maarifçilikdən uzaq düşmələrindən qaynaqlanır. Bu mənzərəni yaradanlar heç şübhəsiz ki, əks sivilizasiyanın hakim daşıyıcılarıdır. İslamın siyasi alətə çevrilməsinə yönələn cəhdlər, məzhəblərarası toqquşmalar və dini maarifçiliyin arxa plana keçməsi Qərbin maraqları ilə tamamilə üst-üstə düşür. İslamın qarşısında əsas qüvvə kimi Qərb sivilizasiyası dayansa da, İslamı həmişə cəhalət ünvanı, şər daşıyıcısı kimi bütün dünya ictimaiyyətinə Qərb təqdim etməyə çalışsa da, bunu da nəzərdən qaçırmamaq lazımdır ki, İslama ən böyük zərbə cahil düşüncə tərzi və mövhumatçı təfəkkürdən də gəlir.

Əks sivilizasiyanın hakim daşıyıcılarının niyyətləri və maraqları, eyni zamanda məhz onlar tərəfindən yaradılıb maliyyə-

ləşdirilən və silahlandırılan terrorçu qruplaşmalar qarşısında İslam həmrəyliyi qaçılmazdır. Bu baxımdan Azərbaycanda 2017-ci ilin **"İslam həmrəyliyi"** elan edilməsi olduqca əhəmiyyətli və zamanın çağırışlarına cavab verən mühüm bir addım, eyni zamanda İslam dünyasına verilən siyasi mesaj oldu. Cəsarətlə deyə bilərik ki, tolerantlıq və multikulturalizm dəyərlərinin əsl nümunəsi kimi Azərbaycanda belə bir addımın atılması müsəlman dünyasına verilən yüksək qiymətin göstəricisi olmaqla yanaşı, İslamı gözdən salmaq istəyən dairələrin də hərəkətlərinə qarşı ən sərrast və tutarlı cavab kimi xarakterizə oluna bilər.

# GİRİŞ

Bəri başdan qeyd edək ki, əsərin adının bu cür seçilməsi heç də təsadüfi olmayıb, rəsmi səviyyədə ifadə edilərək bütün dünyaya səslənən bir çağırışdan götürülmüşdür. 11 sentyabr 2001-ci il hadisələrindən dərhal sonra o zamankı ABŞ Prezidenti Corc Buşun (George W.Bush) terrorizmə qarşı mübarizə etmək əvəzinə, rəsmi şəkildə ifadə etdiyi **"Crusades – səlib yürüşləri"** şüarı istər-istəməz diqqətimizi Orta əsrlərdə baş vermiş xaçlı səfərlərinə yönəltdi və bizi o dövrdə müsəlmanlarla xristianlar arasında cərəyan etmiş hadisələrlə mövcud prosesləri müqayisəli şəkildə daha dərindən təhlil etməyə vadar etdi. "Xaçlı yürüşləri" olaraq da adlandırılan səlib yürüşləri 1095-ci ildə Roma Papası II Urbanın Yaxın Şərqdə yerləşən **"müqəddəs torpaqların *(Qüdsün)* kafirlərdən azad edilməsi"** çağırışı ilə xristian dövlətlərin qoşulduğu hərbi kampaniya ilə başlamışdır (6, s. 125; 7, s. 16; 45, s. 38; 95). Məlum olduğu kimi, Orta əsrlərdə insanların dünyagörüşündə mistika böyük rol oynayırdı. Bu üsulu yerində dəyərləndirən Papa bu hərəkata qoşulanları inandırmağa çalışırdı ki, "müqəddəs torpaqlar"ın azad olunması Tanrının onlara tapşırığı və əmridir.

Qeyd etmək lazımdır ki, o dövrdə kilsənin dəhşətli bir silahı vardı ki, o da günahları bağışlamaq metodu idi (45, s. 25). Müsəlmanların guya Qüdsü ziyarətə gedən xristianlara zülm və işgəncə verdiklərini xalqa təlqin edən Papa II Urban elan etdiyi səfərə gedəcək olanların hamısına heç bir cəzaya və kəffarəyə məruz qalmamaq şərtilə bütün günahlarının bağışlanacağını bildirmiş (45, s. 28-29) və belə əmr etmişdi: *"Tanrı belə olmasını buyurur. Bunu Ruhul-Qüds əmr edir. Ey İsanın müdafiəçiləri! Səlib yürüşləri sizin*

*nicatınız və səy-i əbədiyyətinizdir"* (45, s. 38).

Lakin tarixi faktlar onu göstərir ki, Avropada baş verən quraqlıq, aclıq, kasıblaşmış feodalların varlanmaq hərisliyi, ruhanilərin yeni torpaqlar ələ keçirmək istəyi və dünya malına olan həvəsləri səlib müharibəsinin əsas səbəbi idi. Sadəcə olaraq hərəkatın başlanması üçün ona dini don geyindirilmişdi.

Bir məsələni də qeyd etmək lazımdır ki, səlib yürüşləri tarixə Qərb sivilizasiya daşıyıcılarının bəşəriyyətə dini ayrı-seçkilik gətirdiyi hadisə kimi düşmüşdür. Səlib yürüşləri zamanı xristian olmayan hər kəsə düşmən gözüylə baxılırdı. Heç təsadüfi deyildir ki, həmin yürüşlər nəticəsində müsəlmanlarla yanaşı, yəhudilər də qətliama məruz qalmışdılar (bu barədə ətraflı bax: 50, s. 14-17). Səlib yürüşlərini özünəməxsus şəkildə dəyərləndirən Ərəstü Həbibbəyli qeyd edir ki, ümumilikdə bu müharibələr bəşər tarixində Qərb sivilizasiyasının cəmiyyətdə dini ayrı-seçkiliyin əsasını qoymasının ən bariz nümunəsidir. Nə qədər paradoksal olsa da, bu gün dünyada insan hüquqlarının, dini tolerantlığın əsas müdafiəçisi kimi görünməyə çalışan Qərb sivilizasiya daşıyıcılarının özləri bu mənfi presedenti yaratmışlar (6, s. 124-125).

Tarixi proseslərin təhlili onu deməyə əsas verir ki, bu yürüşdə səlibçilərin qarşısına türklər çıxsa da, hadisələr Xristian-İslam qarşıdurması müstəvisində baş vermişdir. Üzərindən əsrlər keçməsinə baxmayaraq, bu yürüşlər günümüzdə özünü müasir formada təzahür etdirmiş, Qərb-İslam toqquşmasının növbəti mərhələsi başlanmışdır.

Son zamanlarda elmi dairələrdə daha çox müzakirə olunan məsələ dünyada baş verən bir çox münaqişə və qarşıdurmaların başlıca səbəbinin sivilizasiyaların toqquşması ilə əlaqələndirilməsidir. Məşhur sivilizoloq alim Samuel Hantinqtonun ortaya atdığı **"Sivilizasiyaların toqquşması"** iddiası dünya gündəmində partlayışa səbəb olsa da, çox sayda tənqidlərə də məruz qaldı. Bu düşüncənin qeyri-real olduğunu iddia edənlər ola bilər. Şübhəsiz

ki, hər kəsin subyektiv düşüncəsi vardır və anlayışla qarşılanmalıdır. Lakin hadisələrin gedişatı qənaətimizcə, onun haqlı mövqeyini ortaya qoyur. Xüsusilə 11 sentyabr hadisələrinin baş verdiyi tarixlərdə rəsmi səviyyədə səslənən **"terrorizmə qarşı xaçlı yürüşləri"** çağırışları sivilizasiyaların toqquşması şüarına stimul verdi. Tədricən İslam dininə və onun daşıyıcılarına qarşı artan təzyiqlər də bu iddianın yanlış olmadığını ortaya qoydu.

Bu iddianı qüvvətləndirən digər bir amil isə 1095-ci ildə Papa II Urban tərəfindən xristianları müsəlmanlara qarşı hücuma səsləyən *"Tanrı belə olmasını buyurur və əmr edir. Səlib yürüşləri sizin nicatınız və səyi-i əbədiyyətinizdir"* çağırışı ilə 2001-ci ildə ABŞ Prezidenti Corc Buş tərəfindən rəsmi səviyyədə ifadə edilən *"Tanrıdan bizə ilham gəldi... Bu bir müharibədir... Xaçlı yürüşləri, terrorizmə qarşı müharibə çox vaxt aparacaq"* (51, s. 373; 79, s. 38) çağırışı arasındakı məna və məzmun baxımından oxşarlıqdır.

Qeyd etmək lazımdır ki, həmin çağırışdan etibarən İslama yönəlik çıxışlar və müsəlmanlara qarşı sərt mövqe Qərb dünyasında istər rəsmi, istərsə də qeyri-rəsmi, hətta ali ruhani səviyyədə açıq-aşkar şəkildə davam etdirilir.

## QƏRB-İSLAM SİVİLİZASİYALARI ARASINDAKI MÜNASİBƏTLƏR

Sovetlər Birliyinin süqutu və Soyuq müharibə dövrünün başa çatmasıyla yeni qlobal nizamın gələcəyi barədə müxtəlif fikirlər ortaya atılmışdır: **Tarixin sonu, sivilizasiyaların toqquşması, ölkələrin parçalanması və yeni dövlətlərin yaradılmağa çalışılması, Yeni Dünya Nizamı, sivilizasiyaların dialoqu və s.**

Bunların arasında məşhur sivilizoloq alim Samuel Hantinqtonun ortaya atdığı **"Sivilizasiyaların toqquşması"** şüarı ən iddialı düşüncə olaraq dünya miqyasında əks-səda doğurdu. Qeyd etmək lazımdır ki, bu fikir sosializm üzərində qəti qələbə qazanan Qərb liberalizmi hakimiyyətini, liberal-demokratiyanı dünyanın sonu sayan Frensis Fukuyamanın **"Tarixin sonu"** şüarına bir cavab olaraq ortaya çıxmışdır. Fukuyama bu şüarı ilə etnik qüvvələrin və dini fundamentalizmin liberal-demokratiyanın yayılmasının qarşısını almağa çalışan qüvvə kimi nəzərə almır. O, bəşər tarixinin inkişafının ideologiyalararası mübarizədən ibarət olduğunu və sonda liberal-demokratiyanın qalib gəldiyini qeyd edir (bu barədə ətraflı məlumat üçün bax: 46).

Samuel P.Hantinqton isə özünün "Sivilizasiyaların toqquşması" şüarı ilə ideologiyalar arasında olan müvəqqəti münaqişələrin sivilizasiyalar arasındakı qədim münaqişələrlə əvəz olunduğunu önə sürür. İslam mövzusuna da toxunan Hantinqton bu dinin hakim olduğu əraziləri "qanlı sərhədlər" kimi xarakterizə edir (51, s. 382).

Qeyd emək lazımdır ki, son zamanlarda Samuel P.Hantinqtonun bu məşhur şüarı elmi dairələrdə daha çox müzakirə olu-

nur, eyni zamanda dünyada baş verən bir çox münaqişə və qarşıdurmaların başlıca səbəbi də məhz sivilizasiyaların toqquşması ilə əlaqələndirilir. Bu düşüncənin qeyri-real olduğunu iddia edənlər də ola bilər və şübhə yoxdur ki, mövcuddur. Lakin tarixi proseslərin təhlilinə əsaslanaraq Qərb sivilizasiyası ilə İslam sivilizasiyası arasındakı münasibətlərin hansı səviyyədə olduğunu müəyyənləşdirmək mümkündür. Bu bir həqiqətdir ki, Qərb ilə İslam sivilizasiyaları arasındakı münasibətlər tarix boyu həmişə gərgin və münaqişəli olmuşdur. Uzun illərdir Qərb dünyasında mövcud olan **"xaçlı (səlib) yürüşləri"** zehniyyəti hal-hazırda fərqli adlar altında formalaşır.

11 sentyabr 2001-ci ildən bu tərəfə bütün dünyanı düşündürən bir sual var: Həmin tarixdə ABŞ-ın iqtisadi və hərbi mərkəzlərinə edilən hücum Hantinqtonun işarə etdiyi kimi, həqiqətən də sivilizasiyaların toqquşması idimi? Digər bir ifadə ilə, Hantinqton haqlı idimi?

O tarixlərdə rəsmi səviyyədə səslənən "Qərb mədəniyyətinə qarşı edilmiş bir hücum" və ya "terrorizmə qarşı xaçlı yürüşləri" kimi açıqlamalar sivilizasiyaların toqquşması şüarını təsdiqləyirdi. Xüsusilə ABŞ-ın o zamankı prezidenti Corc Buşun rəsmi olaraq ifadə etdiyi **"Crusades – xaçlı yürüşləri"** şüarı ilə dünya ictimaiyyətinin şüuraltında planlı şəkildə islami terror anlayışları yaradıldı (55, s. 141; 107). Hal-hazırda dini ekstremizm, İslam və terrorizm, İslam və demokratiya Qərbin mətbuat orqanlarının əsas mövzusudur. Heç təsadüfi deyildir ki, ABŞ-da və Avropa ölkələrində müsəlmanlara qarşı artan aqressiya və dünya üçün "təhlükə mənbəyi" kimi təqdim olunan İslam ölkələri dövrün nəbzini təyin edir. İslam artıq Qərb daxilində mühüm faktora çevrildiyindən bu təhlükə özünü islamofobiya meyillərində göstərir. Günümüzdə islamofobiya müsəlman ölkələrinə qarşı yönəlmiş bir alət olmuşdur. Qlobal miqyasda İslam dini, bu dinin daşıyıcıları, islami həyat tərzi təhlükə mənbəyi kimi göstərilməyə çalışılır. Aparılan təhlillər onu de-

məyə əsas verir ki, islamofobiya meyillərinin arxasında sadəcə dini deyil, geosiyasi məsələlər də dayanır.

Sivilizasiyaların toqquşması ilə yanaşı, sivlizasiyaların dialoqu, qarşılıqlı inteqrasiya, yeni sülh mədəniyyəti çağırışları da çox sıx səslənir. Hətta belə bir fikir önə sürülür ki, mövcud sivilizasiyaların birləşərək qlobal vahid mövqedən çıxış etməsi üçün Yeni Dünya Nizamına ehtiyac var və bu fikir zamana uyğunlaşdırılmalıdır. Həmin düşüncəyə görə, Yeni Dünya Nizamı müəyyən mənada sivilizasiyalar arasındakı anlaşmazlıqların və toqquşmaların qarşısını almağa yönəlik bir addımdır. Sivilizasiyaların dialoqu dinindən, irqindən, milliyyətindən asılı olmayaraq, xalqların və dövlətlərin bərabərliyini nəzərdə tutur. Dünyada sülhün təmin olunmasında zamanın tələbi, inkişaf prosesinin ayrılmaz tərkib hissəsi kimi xarakterizə olunan belə bir dialoqa böyük ehtiyac hiss edildiyi də irəli sürülür. Məsələ burasındadır ki, sivilizasiyaların dialoquna mane olan faktor məhz məsələyə dini və siyasi baxımdan yanaşan Qərbdir. İslam Qərbdə cəmiyyətə düzgün təqdim olunmur və mediada adı terror anlayışı ilə yanaşı çəkilir. Tarixə nəzər saldıqda, Avropada İslama qarşı sərgilənən münasibət bir zamanlar digər dinlərin daşıyıcılarına da tətbiq olunurdu. Tarix boyunca yəhudilər fərqli bir dini əqidənin nümayəndələri olduğu üçün Avropadan qovulmuşdular. Bunun da müxtəlif səbəbləri vardı. Məlum olduğu kimi, xristian Avropa ölkələri yəhudiləri İsa-Məsihin, dolayısı ilə Tanrının qatilləri **(God-killers)** olaraq görür və bu səbəbdən bütün yəhudi nəslini məsul tuturdular (42, s. 381). Beləliklə, Tanrının öldürülməsi günahından arınması mümkün olmayan "qanı kirli ikinci dərəcəli insanlar sinfi" kimi tanınan yəhudilər ən aşağı millət olaraq qəbul edilirdilər.

Qeyd edək ki, eramızdan əvvəlki dövrlərdə də Assuriya, Babil və Roma tərəfindən sürgünə məruz qalan yəhudilər 1290-cı ildə İngiltərədən, 1394-cü ildə Fransadan, 1492-ci ildə də İspaniyadan deportasiya olunmuşdular. Yəhudilərin adı çəkilən ölkələrdən sür-

gün edilmələri xristianlar tərəfindən bu millətin dini səbəblərdən qovulması şəklində xarakterizə olunmuş və xristian dünyasının ən qaranlıq dövrlərindən biri kimi qəbul edilmişdir. Nəticədə antisemitizm ideologiyası formalaşmışdır. XX əsrin əvvəllərində də nasistlərin idarəsi altında alman yəhudilərinin vətəndaşlıqları əllərindən alınmış və müxtəlif vəzifələrə gəlmələri qadağan edilmişdi. İkinci Dünya müharibəsinin başlanması ilə yəhudilərin kütləvi surətdə öldürülmələrinə hökm verilmiş, bu hökm dövlət siyasəti olaraq mənimsənmiş və həyata keçirilmişdi (63, s. 13-31; 78, s. 13-40). Beləliklə, musəvi yəhudilərin Nasist Almaniyası tərəfindən soyqırımı gerçəkləşdirilmişdir. Yəhudi soyqırımında ***(xolokost – E.Ş.)*** məsuliyyət bilavasitə Almaniyanın üzərinə düşsə də, xristian olmaları səbəbi ilə ümumilikdə Qərb-xristian dünyası günahkarlıq duyğusuna qapılmışdır.

*"Müqəddəs dəhşət: dini cinayətlər tarixi"* kitabının müəllifi Ceyms Haut təkzibedilməz materiallar əsasında yazır ki, insanlıq tarixinin ən bağışlanılmaz ləkələrindən olan nasistlər tərəfindən yəhudilərə qarşı tətbiq edilən soyqırımı cinayəti eyni zamanda dini zəmində də gerçəkləşdirilmişdir. Bu cinayət əsrlərdir xristianlığın musəvilik haqqındakı təlimlərinin acı meyvəsi idi. Əgər Tanrının adından musəvilərə qarşı nifrət aşılanmamış olsaydı, bu cinayətlər baş verməzdi. Nasistlər eyni ilə xristian ənənələrinə görə hərəkət etdilər. Hitlerin törətdiyi soyqırımı musəvilərə qarşı uzun illərdən bəri qidalanan nifrətin ən yüksək həddi idi (50, s. 105-106).

Müəllif digər bir yerdə də qeyd edir ki, nasistlərin törətdikləri cinayətlər yeni bir canilik deyildi. Onlar sadəcə olaraq 2 min illik tarixi olan musəvi əleyhdarlığına əsaslanan xristian ənənələrini davam etdirdilər. Faşistlərin ölüm düşərgələrinin kökləri xristianlığın tarixi strukturunda axtarılmalıdır. Musəvilərin şeytani rolları ilə əlaqəli əfsanələr əsrlər boyunca xristianlığı onlara qarşı hücuma sövq etmişdir (50, s. 108).

Xristian rahibləri və ümumilikdə kilsə tərəfindən insanların

beyinlərinin musəvi düşmənçiliyi ilə doldurulduğunu da göstərən Ceyms Haut onu da qeyd edir ki, din xadimləri sizə kimi öldürəcəyinizi söyləməz, sadəcə kimdən nifrət edəcəyinizi deyərlər. Kilsə daim gənclərə onların ən həssas dövrlərində musəvilərin İsanı öldürdüyünü və bu səbəblə Tanrının yəhudiləri əbədiyyətə qədər lənətlədiyini öyrətmişdir. 2 min il boyunca musəvilərə qarşı törədilən bütün cinayətlərdə kilsənin barmağı vardır. Harada xristian kilsəsi varsa, orada musəvi düşmənçiliyi vardır. Nasistlər də hakimiyyətə gəldiklərində öz cinayətlərini məhz bu reallıq üzərində qurdular (50, s. 109-110).

Fikirlərimizi bir daha əsaslandırmaq üçün valideynləri İkinci Dünya müharibəsi dövründə nasistlər tərəfindən öldürülən yəhudi mənşəli amerikalı tarixçi Daqobert Ranesin sözlərinə müraciət etməyi məqsədəuyğun sayırıq. O, yəhudi xolokostu barəsində xristian kilsəsini ittiham edərək deyirdi: *“Hitlerin musəvilərə qarşı törətdiyi vəhşi cinayətlər onsuz da daha əvvəllər xristian kilsəsi tərəfindən yəhudilərə tətbiq edilirdi. Bu ilk zərbə deyildi... Musəvi kitablarının və yəhudilərin yandırılması... Hitler bunların hamısını kilsədən öyrəndi. Keçmiş dövrlərdə kilsə yəhudi uşaqlarını və qadınları diri-diri yandırarkən, Hitler onlara daha sürətli ölüm bağışladı. Əvvəlcə qaz otaqlarında öldürdü, sonra da yandırdı”* (50, s. 109).

Ölüm düşərgələrində yəhudilərin vəhşicəsinə qətlə yetirilmələrindən 15 il sonra Papa XXIII Con belə bir dua etmişdi: *“Tanrım, onlara* ***(yəhudilərə – E.Ş.)*** *qarşı bütün insanlığa aşılamış olduğumuz lənətdən ötrü bizi bağışla!”* (50, s. 110).

Göründüyü kimi, yəhudi soyqırımında məsuliyyət bilavasitə Almaniyanın üzərinə düşmür. Bütün yəhudilərin düşüncəsinə görə, kilsə aşılamış olduğu fikirlərdən dolayı yəhudi soyqırımından məsuliyyət daşıyır. Məhz bu baxımdan Qərb-xristian dünyası günahkarlıq duyğusuna qapılmışdır.

Yəhudilərə qarşı törədilən xolokostun Qərb-xristian şüuru

üzərindəki təsirləri o qədər dərindir ki, onun səbəb olduğu dərin psixoloji gərginlik xristianların heysiyyətinə toxunmuş və bu təsir üstündən illər keçsə də, özlərini günahkar hiss etmələrinə yol açmışdır. Bu günahlardan arınmaq üçün guya türklər tərəfindən törədilən qondarma "erməni soyqırımı"nın yəhudi xolokostuna öncülük təşkil etdiyi iddiası ortaya atılmış, hətta musəvilərin məhv edildiyi qaz otaqlarının türklər tərəfindən icad edildiyi və Hitlerin belə bir addım atmasında türklərin başlıca rol oynadığı da iddia edilmişdir (98).

Halbuki yuxarıda da sitat gətirdiyimiz yəhudi mənşəli amerikalı tarixçi Daqobert Ranesin sözləri bu iddiaları kökündən təkzib edir. Əgər Hitler həqiqətən türklərdən nümunə götürsəydi, o zaman Daqobert Ranes kilsəni deyil, türkləri ittiham edər ya da ən azından bu barədə məlumat verərdi.

**"Hitler soyqırımını türklərdən öyrəndi"** şüarı əsl həqiqətdə *"biz əslində belə cinayətlərə yol vermərik, bu işdə müsəlman türklərin barmağı var"* məntiqi ilə işləyən bir mexanizmlə günahlardan arınma metoduna baş vurulmuşdur (103). Yəni burada musəvilərin düşməni olaraq xristianlar deyil, guya xristianlara yol göstərən və onları cinayətlərə sövq edən müsəlman türklər göstərilir.

Göründüyü kimi, tarixi hadisələr və mövcud proseslər təhlil olunduqda ortaya belə bir məqam çıxır ki, sivilizasiyalar toqquşmur, əksinə, planlı şəkildə toqquşdurulur. Belə bir vəziyyətdə hər hansı sivilizasiyalararası dialoqdan söz edilə bilməz. Son dövrlərdə sivilizasiyaların dialoqu kimi çağırışlar səslənsə də, Türkiyənin məşhur ilahiyyatçı alimlərindən Prof. Dr. Yaşar Nuri Öztürk bu dialoqu Vatikanın missionerlik fəaliyyətlərinin bir parçası, yəni xristianlaşdırma olaraq dəyərləndirmişdir (70, s. 292). Onun düşüncəsinə görə, bu dialoq kilsə mərkəzli bir sistemin nəzarəti altındadır (70, s. 294).

Dinlərarası dialoqdan müsəlmanlar həqarətə uğrayaraq və təhqir edilərək öz nəsibini lazımi qədər almışdır. Nəinki müsəlmanlar,

İslam peyğəmbərinin belə ünvanına nalayiq ifadələr işlədilmiş, şəxsi həyatına yönəlik karikatura rəsmləri nümayiş olunmuşdur. Tarixi proseslər göstərir ki, Qərbin dini tolerantlıq dəyərləri yalnız öz dini dəyərlərinin digərlərinə qəbul etdirilməsi üzərində qurulmuşdur. Sivilizasiyalararası dialoqdan söhbət gedirsə, müxtəlif dinlərə və mədəniyyətlərə mənsub olan insanların etiqadına hörmətlə yanaşılmalıdır. Amma təəssüflər olsun ki, hal-hazırda din amilindən siyasi vasitə kimi istifadə edilərək digər mədəniyyətlərin ehtişamına zərbə vurulmağa çalışılmaqda, Xristian-İslam, Musəvi-İslam düşmənçiliyi formalaşdırılmaqdadır. Dərindən diqqət yetirilərsə, baş verən terror hadisələri müxtəlif ölkələrdə fərqli səbəblərdən motivasiya edilən müəyyən radikal qruplar tərəfindən törədilir ki, bunun da arxasında müsəlman dövlətləri deyil, Qərb dövlətləri dayanır. Xüsusi vasitəyə çevrilən bu radikal qruplardan Qərb dövlətləri din amilini ortaya ataraq öz geosiyasi maraqları üçün əsas bəhanə kimi istifadə edirlər. Samuel Hantinqton *"Sivilizasiyaların toqquşması və dünya nizamının yenidən qurulması"* adlı kitabında yazır ki, Corc Buşun sıx-sıx Tanrıdan yardım istəməsi kimi ritorik yalvarmaları ərəblərin nəzərində "dini bir müharibə" olaraq görülür (51, s. 373). Eyni zamanda onun *"xaçlı yürüşləri, terrorizmə qarşı müharibə çox vaxt aparacaq... Bu bir müharibədir... Tanrıdan bizə ilham gəldi"* şəklindəki ifadələri də İslam ölkələri və müsəlman ictimaiyyəti arasında hüzursuzluğa yol açmışdır (79, s. 38).

Əl-Qaidə hücumlarını dini kontekstdə dəyərləndirən Corc Buşun "terrorizmə qarşı xaçlı səfərləri" şüarının davamı olaraq, növbəti prezident Barak Obama da sonradan ortaya çıxan digər terror təşkilatı İŞİD-ə qarşı hava hücumlarını başladaraq ABŞ-ın fəaliyyətini "böyük oyun" və "uzunmüddətli müharibə" olaraq dəyərləndirdi (101).

Məsələ burasındadır ki, **"terrorizmə qarşı xaçlı yürüşləri"** məhz müsəlman ölkələrinə yönəldilib və bu "böyük oyun", "uzunmüddətli müharbə" İslam coğrafiyasında aparılır. Qeyd etmək la-

zımdır ki, **"müasir xaçlı yürüşləri"** ifadələrinə rəvac verən çox sayda səbəblər vardır. Xristianların ruhani liderlərinin cərəyan edən hadisələrə münasibətlərində də bunları görmək mümkündür.

2006-cı ilin sentyabr ayında xristianların (katoliklərin) ən ali ruhani lideri Papa XVI Benediktin Almaniyanın Reqensburq Universitetindəki sivilizasiyalararası dialoqa deyil, qarşıdurmaya yönəlik çıxışı artıq hər kəsə məlumdur. Papa XIV əsrin axırlarında Bizans imperatoru Manuel II Paleoloqos ilə bir İslam alimi arasında baş vermiş söhbətə istinad edərək, diplomatik yolla İslam haqqındakı düşüncələrini ortaya qoydu. Onun sözlərinə görə, xristianlıqdan fərqli olaraq, İslam ağıl və məntiqlə uzlaşmayan bir dindir. Məhəmməd peyğəmbər bəşəriyyətə yalnız pis və insanlığa uyğun olmayan şeylər gətirmiş, eyni zamanda öz ardıcıllarına dini qılıncla yaymaq əmrini vermişdir (70, s. 283).

Papa XVI Benediktin bu sözləri "sivilizasiyaların toqquşması" şüarını təsdiqlədi və bu şüar uzun illərdən bəri davam edən böhranlar zəncirinə yeni bir halqa kimi əlavə olundu. Bütün dünya ölkələrində müsəlmanların müxtəlif şəkildə öz etirazlarını bildirmələri, hətta xristian dünyasının tanınmış simalarının da Papadan İslam dini haqqında dediyi sözlərə şərh gətirməsini tələb etmələri və gərginliyin günbəgün artması səbəbiylə XVI Benedikt bu sözlərin ona aid fikirlər olmadığını, Bizans imperatoru Paleoloqosdan sitat gətirdiyini bildirdi.

Qeyd edək ki, fərdi düşüncələr elmi obyektivliyə əsaslanmır və reallığı da heç vaxt özündə əks etdirmir. Manuel II Peleoloqosun fikirləri də təbii ki, tamamilə subyektiv olmuşdur. Digər bir tərəfdən, bu fikirlərlə bağlı ortaya müxtəlif suallar da çıxır:

***a)*** *İmperator Manuel II Paleoloqos bu sözləri niyə söyləyib?*

***b)*** *İmperatorun söylədikləri həqiqətə uyğundurmu?*

***c)*** *Papa XVI Benedikt bu sözləri niyə gündəmə gətirdi və əsas məqsədi nə idi?*

Bu suallara cavab olaraq tanınmış yəhudi politoloqu Uri Av-

nerinin 25 sentyabr 2006-cı il tarixli **"Quş Şalom"** qəzetində nəşr edilən *"Papa yanılır, xristianlar və yəhudilər İslama minnətdar olmalıdırlar"* adlı məqaləsində diqqət çəkdiyi müəyyən maraqlı məqamlara nəzər salmağı məqsədəuyğun hesab edirik:

*"...Papa ilə imperator II Corc Buş mükəmməl bir uzlaşma içərisindədirlər. Papanın çıxışı dünya miqyasında fırtınalar qopardı və mədəniyyətlər qarşıdurması mövzusunda Buşun "islamofaşistlərə" qarşı başlatdığı müharibə ilə üst-üstə düşdü...*

*...Mən ateist bir yəhudi olaraq bu müqayisəyə girməyə niyyətli deyiləm. Çünki Papanın məntiqini anlamaqda çətinlik çəkirəm. Amma "mədəniyyətlər müharibəsi"nin içində yaşayan bir israilli olaraq bu mövzudan çox narahat olduğum üçün öz fikrimi gizləyə bilmirəm. Papa İslamın məntiqə zidd olduğunu isbat etmək üçün Məhəmməd peyğəmbərin öz ardıcıllarına dini qılıncla yaymaq əmrini verdiyini iddia etdi. Onun sözlərinə görə bu durum məntiqdən kənardır, çünki inanc vücuddan deyil, ruhdan doğur. Yaxşı, bəs qılınc ruha necə təsir edər? Papa bu iddiasını gücləndirmək üçün Bizans imperatorundan iqtibas gətirdi...*

*...İrəlicədən onu deyək ki, bu sözləri söyləyən imperator o dövrdə Osmanlı türklərinin qorxusu altında idi. Osmanlılar Dunaya qədər gəlib çatmışdılar. Elə o sözün söylənməsindən bir neçə il sonra da İstanbul türklərin əlinə keçdi və Bizans imperatorluğuna son qoyuldu. O dövrdə Manuel Avropanın dəstəyini almaq üçün təbliğat kampaniyasına başladı. Kilsəni yenidən birləşdirməyə söz verdi, xristian ölkələrini türklərə qarşı ayağa qaldırmaq və növbəti səlib yürüşlərini qızışdırmaq üçün bu cür sözlər söylədi. Yəni din siyasətə alət edildi. Belə baxanda, bugünkü imperator II Corc Buş da müsəlman dünyasına qarşı kilsəni birləşdirmək istəyir. Həm də elə bir zamanda ki, barışcıl, sülh tərəfdarı mövqe tutan türklər Avropanın qapısını döyürlər. Hər kəsə məlumdur ki, Papa türklərin Avropa Birliyinə üzv olmasına qarşı çıxır.*

*Ciddi və məşhur bir ilahiyyatçı olaraq Papa yazılı mətnləri in-*

*kar edə bilməz. Bu səbəblə də Quranın dinin zorla yayılmasını israrla qadağan etdiyini qəbul etmiş olmalıdır. "Dində məcburiyyət yoxdur" ayəsi o qədər aydındır ki, kimsə çıxıb "mən bunu görmədim, bilmədim" deyə bilməz...*

*...Müsəlmanlar əsrlər boyunca Yunanıstanı idarə etdilər, yunanlar müsəlman oldularmı? Kimsə onları islamlaşdırmağa çalışdımı? Əksinə, xristian yunanlar Osmanlı idarəsində ən yüksək dövlət məqamlarına qədər ucaldılar. Bolqarlar, serblər, rumınlar, macarlar və digər Avropa xalqları Osmanlı hakimiyyəti altında xristian dininə bağlı olaraq yaşadılar. Kimsə onları müsəlman olmağa məcbur etmədi və onlar səmimi xristian olaraq qaldılar...*

*...1099-cu ildə xristianlar Həzrəti İsa adı ilə Qüdsü işğal etdilər, müsəlmanları və yəhudiləri fərq qoymadan qılıncdan keçirdilər. Ancaq Fələstinin 400 il boyunca müsəlmanlar tərəfindən idarə edildiyi müddətdə xristianlar ölkədə çoxluq təşkil edirdilər, heç bir basqı görmürdülər...*

*...Katoliklərin İspaniyanı yenidən ələ keçirməsi ilə bir terror havası əsməyə başladı. Yəhudilər və müsəlmanlar çox ağır bir seçim qarşısında qoyuldular: ya xristian olmaq, ya qətlə yetirilmək, ya da ölkəni tərk edib getmək. İnancını dəyişdirməyi qəbul etməyən yüz minlərlə yəhudi haraya getdi, bilirsinizmi? Demək olar ki, hamısı müsəlman ölkələrinin qanadı altında özlərinə sığınacaq tapdılar...*

*...Öz xalqının tarixini doğru-dürüst bilən yəhudilər İslam dininin 50 nəsil yəhudiləri qoruduğu halda, dinlərini dəyişdirmək üçün onları qılıncla qətlə yetirən xristian dünyası qarşısında İslama dərin minnətdarlıq hissi ilə yaşayırlar"* (2).

İslam haqqında, onun müqəddəs qurucusu barədə dünya miqyasında tanınmış digər görkəmli mütəfəkkirlər də obyektiv fikirlər söyləmişlər. İslamı düzgün və qərəzsiz öyrənən, bəşəriyyətin qeyri-müsəlman hissəsindən olan dahi mütəfəkkirlərin çoxu ya müsəlman olmuş, ya da İslam və onun peyğəmbəri haqqındakı hə-

qiqətləri səmimiyyətlə etiraf etmişlər. Bu mütəfəkkirlərdən məşhur ingilis alimi Riçard Belli, dahi rus yazıçısı Lev Nikolayeviç Tolstoyu, dahi alman yazıçısı İohann Volfqanq Höteni, məşhur fransız yazıçısı, filosof Roje Harodini, görkəmli fransız alimi, okeanoqraf Jak İv Kustonu, Münhen Universitetinin hüquq elmləri üzrə doktoru, Almaniyanın dövlət aparatının yüksək rütbəli məmuru, eyni zamanda Əlcəzairdə və daha sonra Mərakeşdə fövqəladə və səlahiyyətli səfir olmuş Vilfrid Hofmanı, Toronto Universitetinin "Anatomiya və embriologiya" ixtisası üzrə professoru Keyt Muru, Banqkok Tibb İnstitutunun "Anatomiya" ixtisası üzrə professoru Tasaja Tasajonu, bütün dünyada tanınan amerikan bioloqu, professor Alfred Korneri və s. misal göstərmək olar (ətraflı məlumat üçün bax: 10, s. 66-82).

Yuxarıda sadalananlardan belə bir məqam ortaya çıxır ki, XVI Benedikt Bizans imperatorundan sitat gətirməklə əsl həqiqətdə öz düşüncəsini ortaya qoymuşdur. Son dövrlərdə Avropanın bəzi ölkələrində yayımlanan və İslam dünyasını ayağa qaldıran karikatur böhranına Qərb mətbuatının sahib çıxması, necə həmrəylik çağırışları səslənildiyi, təhqiri törədənlərin deyil, təhqirə məruz qalanların necə yerdən-yerə vurulduğu, o cümlədən Yaxın Şərqdə axan qanlar da artıq hər kəs tərəfindən bilinən həqiqətdir. Papa XVI Benediktin İslama qarşı yönəldilmiş sözləri ilə **"xaçlı səfərləri"** çağırışları, eyni zamanda ABŞ-ın Yaxın Şərqdə törətdikləri hadisələr və karikatur böhranı arasında dərin bir bağlılıq vardır. Belə bir vəziyyətdə Qərb dünyasının aparıcı dövlətlərində İslama qarşı siyasi və dini baxımdan "xaçlı yürüşləri" zehniyyətinin yenidən formalaşdığını söyləmək mümkündür.

Samuel Hantinqtonun *"Sivilizasiyaların toqquşması və dünya nizamının yenidən qurulması"* adlı kitabı nəşr edildikdən sonra müəllifin "ortaya çıxmaqda olan qlobal siyasətin başlıca və ən təhlükəli miqyasının fərqli sivilizasiyaların daşıyıcıları arasındakı münaqişələr olacağı" ilə bağlı düşüncəsindən sonra insanlar son dərə-

cə təəccüblənmiş və qorxmuşlar (51, s. 9).

Samuel Hantinqton qeyd edir ki, fərqli sivilizasiyaların daşıyıcıları arasındakı münasibətlər heç vaxt yaxın olmayacaq və ümumiyyətlə, soyuq və düşmən olaraq qalacaqdır (51, s. 305).

Müəllif digər bir yerdə də göstərir ki, İslam İslam olaraq, Qərb də Qərb *(xristian – E.Ş.)* olaraq qaldığı müddət içərisində iki böyük sivilizasiya arasındakı qarşıdurma ötən 14 əsrdə olduğu kimi, gələcəkdə də davam edəcəkdir (51, s. 312-313).

Hantinqtonun fikirləri olduqca fərqli bir şəkildə qəbul olunmaqda və analitiklər tərəfindən həddən artıq tənqid edilməkdədir. **"Sivilizasiyaların toqquşması"** ifadəsinin insanları qorxutduğu danılmaz bir həqiqətdir. Lakin Hantinqtonun bu iddiası fikrimizcə, o qədər də yanlış deyil. Təbii ki, bu bizim subyektiv fikrimizdir. Bu gün qlobal siyasətdə başlıca yeri sivilizasiyalararası münasibətlər tutur. Digər sivilizasiyalar bir tərəfə, Qərb sivilizasiyası ilə İslam sivilizasiyası arasında qarşıdurmanın cərəyan etdiyi bir reallıqdır.

Samuel Hantinqton yazır ki, İslam ilə xristianlıq arasındakı münasibətlər həmişə gərgin olmuşdur. VII əsrdən VIII əsrin ortalarına qədər ərəb-islam ekspansionizmi Şimali Afrika, Yaxın Şərq, İran və Şimali Hindistanda müsəlman hakimiyyətini yaratdı. Təxminən 200 il boyunca İslam və xristianlıq arasındakı sərhəd xətləri taraz vəziyyətdə saxlanıldı. Daha sonra XI əsrin sonlarında xristianlar qərbi Aralıq dənizində nəzarəti ələ keçirdilər və xaçlı səfərlərini başlatdılar. Bir əsr yarım boyunca xristian hökmdarlar uğurlar qazana bilməsələr də, müqəddəs torpaqlarda öz dini hakimiyyətlərini qurmağa çalışdılar. Sonra səhnəyə türklər çıxdılar... Osmanlı türkləri Bizansı zəiflətdilər və daha sonra Şimali Afrika ilə birlikdə Balkanların geniş ərazilərini fəth etdilər. Onlar 1453-cü ildə İstanbulu ələ keçirdilər, 1599-cu ildə isə Vyananı mühasirəyə aldılar (51, s. 308-309).

Müəllif fransız tarixçisi Bernard Levisdən də sitat gətirərək

yazır ki, Avropa təxminən 1000 il boyunca İspaniyaya ilk müsəlman axınından türklərin Vyananı mühasirəyə almasına qədər sıx-sıx təhlükə altında idi. İslam Qərbin həyatda mövcud olmasını qeyri-müəyyən edən və bunu ən azından iki dəfə gerçəkləşdirən yeganə mədəniyyətdir (51, s. 309).

Bir məsələni vurğulamağı vacib bilirik ki, İslam deyiləndə sanki ərəb dünyası başa düşülür. Halbuki İslam milli din deyil və sırf ərəblərə məxsusluğu barədə ümumi yanaşma olduqca yanlışdır. Qurani-Kərimdə İslamın bütün bəşəriyyətə gəldiyi bildirilir: *"(Ey peyğəmbər!) Biz səni bütün insanlığa bir rəhmət olaraq göndərdik"* **(Ənbiya surəsi, ayə: 107).**

*"(Ey peyğəmbər!) de ki: Ey insanlar! Yaxşı bilin ki, mən Allahın hamınıza göndərdiyi bir elçiyəm"* **(Əraf surəsi, ayə: 158).**

*"(Ey nəbi!) Biz səni ancaq bütün insanlıq üçün bir müjdəçi və xəbərdaredici olaraq göndərdik, amma insanların əksəriyyəti bunun fərqində deyillər"* **(Səba surəsi, ayə: 107).**

Göründüyü kimi, İslam milli deyil, bəşəridir və bu dinin daşıyıcıları sadəcə ərəblərdən mütəşəkkil olmayıb, onun yayılmasında türklərin dominant rol oynaması da vurğulanmalıdır. Heç təsadüfi deyil ki, Hantinqton öz əsərində ərəb ekspansionizmindən bəhs etsə də, İslam sivilizasiyasının ayrılmaz parçası olan türklərə də xüsusi diqqət çəkir və oxucunun nəzərini istər-istəməz Qərb ilə Türk sivilizasiyaları arasındakı gərginliyə yönəldir.

## İSLAM SİVİLİZASİYASINDA TÜRKLƏRİN YERİ VƏ DOMİNANT ROLU

İslam sivilizasiyasının əsas daşıyıcılarından biri məhz türklərdir. Lakin bu sahəni tədqiq edən Qərb sivilizoloqları və analitikləri sivilizasiyaları təsnifləndirərkən heç bir halda Türk sivilizasiyasını ayrıca bir sivilizasiya olaraq nəzərdən keçirməmişlər. Nə Samuel Hantinqtonun, nə Arnold Toynbinin, nə Frensis Fukuyamanın, nə Harald Müllerin, nə də başqalarının əsərlərində və ifadələrində Türk sivilizasiyası anlayışına müstəqil bir sivilizasiya növü kimi rast gəlinmir. Türk sivilizasiyası İslam sivilizasiyasının bir parçası, ən yaxşı halda isə onun subsivilizasiyası olaraq qəbul edilib göstərilməkdədir. Təbii ki, İslam sivilizasiyası Türk sivilizasiyası üçün başlıca xüsusiyyətlərdən biridir. İslami dəyərləri özündə ehtiva etməsinə baxmayaraq, Türk sivilizasiyasına Ərəb və İran sivilizasiyaları kimi müstəqil bir tip kimi baxılmalıdır. Ərəstü Həbibbəyli, Rahid Ulusel kimi azərbaycanlı tədqiqatçılar Türk sivilizasiyasına tamamilə İslam sivilizasiyası daxilində baxılması məsələsinin yanlış olduğunu qeyd edirlər (6, s. 38; 17, s. 15).

Olduqca doğru bir mövqe! Çünki məsələyə bu aspektdən yanaşılsa, türklərin islamaqədərki ən azı minillik inkişaf tarixi nəzərdən qaçırılmış olar. Türklərin İslamı qəbul etdikdən sonrakı dövrlərdə Qərb sivilizasiyası ilə Türk sivilizasiyası arasındakı münasibətlər Xristian-İslam kontekstində inkişaf etmişdir. Günümüzdə Qərb sivilizasiyası deyildiyi zaman ilk növbədə xristian dünyası başa düşülür. Türklər də İslamı qəbul etdikdən sonra bu dinin əsas dayağı olmuş və İslamın yayılmasında müstəsna rol oynamışlar. Daha dəqiq bir ifadə ilə, İslam məhz türklərin sayəsində öz ehtişamını və gücünü qoruyub saxlamışdır.

Qərb və Türk sivilizasiyaları arasındakı münasibətlər tarix boyu həmişə gərgin və münaqişəli olmuşdur. Bu münaqişə günümüzdə də davam edir. Məşhur türk tədqiqatçısı Mətin Aydoğan haqlı olaraq göstərir ki, Qərbdə antitürk zehniyyət və düşüncə tərzinin yayğın olduğu reallıqdır, bu düşüncə artıq tarixi ənənəyə çevrilmişdir. Türklərin Qərblə münasibətləri 1600 illik müharibə və münaqişələrlə dolu bir keçmişə sahibdir. Orta Asiyadan gələn şimallı Hun axınçıları Qərbi Roma imperiyasının süqutuna səbəb olaraq kölə hegemonluğuna əsaslanan İlk Çağı sona çatdırdılar və Orta əsrlər dövrünü başlatdılar. Fateh Sultan Mehmet isə Şərqi Roma imperiyasının (Bizansın) varlığına son verərək çözülməyə başlayan və qul hegemonluğuna əsaslanan Orta əsrlərin çöküşünü sürətləndirdi. Türklər Qərbi Roma imperiyasının süqutundan 1699-cu il Karlovitsa müqaviləsinə qədər tam 1300 il Qərb üzərində qəti üstünlüyünü qoruyub saxladı. Avropalıların xristianlıq uğrunda təşkil etdikləri 8 xaçlı səfərinin əksəriyyətinə türklər sinə gərdi və onları ağır məğlubiyyətə uğratdılar (27, s. 181-182).

Xaçlı səfərlərinin hansı sivilizasiyaların daşıyıcılarına qarşı yönəlməsi ilə bağlı ortaya belə bir sual çıxır: bu səfərlərin qarşısında Türk, yoxsa Ərəb sivilizasiyasının təmsilçiləri dayanmışdılar?

Türk tədqiqatçıları Əli Çimen və Göknur Göğebakanın bu məsələ ilə bağlı fikirləri çox qətidir: *"Xaçlı səfərlərini təşkil edənlər uzaq diyarlardan gələn qərblilər idi, lakin bu səfərlərə qarşı əvvəlcədən mübarizə aparanlar isə türklər olmuşlar. Xaçlıların 200 ilə yaxın davam edən hakimiyyətlərinə son verənlər də türklər idilər. Bu mübarizə Şərq ilə Qərb arasındakı körpü vəziyyətindəki Anadolu üzərindən gerçəkləşmiş, bölgədəki iqtidar boşluğunu doldurmaq yarışı türklər ilə xristian German-Latın toqquşmasına səbəb olmuşdu"* (40, s. 111).

Təxminən 200 il davam edən 8 böyük "Xaçlı səfərləri"nə müxtəlif dövrlərdə Fransa kralı VII Lüdovik, Alman kralı III Konrad, Alman imperatoru I Fridrix Barbarossa, Fransa kralı II

Filip Avqust, İngiltərə kralı "aslanürəkli" I Riçard və Fransa kralı "müqəddəs" IX Lüdovik də qoşulmuşdular (7, s. 16).

Tarixi proseslərin təhlilinə əsaslanaraq qeyd etmək mümkündür ki, xaçlı müharibələri ümumilikdə Qərbin qeyri-xristianlara qarşı yürüşləri olsa da, konkret olaraq xristian Latın-Germanların müsəlman türklərlə toqquşmasıdır. Bu, daha çox üzərində durduğumuz bir iddiadır. Çünki bütün xaçlı səfərlərində xristian Qərbin qarşısına çıxanlar hər zaman türklər olmuşlar.

Hindistanın ilk Baş naziri Cəvahirləl Nehru da *"Ümumdünya tarixinə nəzər"* adlı kitabında xaçlıların müharibəsinin türklərə qarşı olduğu barədə dəyərli məlumatlar vermişdir (13, s. 267-272).

Xaçlı səfərlərinin Qərb ilə Türk sivilizasiyalarının daşıyıcılarının toqquşması ilə bağlı reallıqları əsaslandırmaq üçün bəzi məsələlərə nəzər salaq. Ərəstü Həbibbəyli *"Sivilizasiyaların kəsişməsində türk dünyası"* adlı əsərində çox haqlı suallar ortaya qoyur və cavablandırır: "*Ərəblərin İspaniyanı ilhaqı və İspaniyadan Avropaya doğru hücumları zamanı nəyə görə Xaçlı Birliyi ideyası yox idi? Çünki səlib yürüşlərinin başlandığı dövrlərdə ərəblər öz inkişaflarında aktiv dövrü arxada qoymuş, passiv mərhələni yaşayırdılar. Real baxdıqda xaçlıların başlıca məqsədi müqəddəs şəhər olan Qüdsü xilas etmək deyildimi? Bu şəhər coğrafi baxımdan ərəb torpaqlarında yerləşmirmi? Bəs, o zaman VII əsrdən aktiv passionarlıq dövrünü yaşayan ərəblərin zamanında xaçlıların iddia etdikləri bu müqəddəs torpağı azad etməyə nəyə görə ehtiyac hiss edilmirdi? Səlib yürüşlərinin niyə Qərb-Şərq sivilizasiyalarının* (Şərq dedikdə həmin dövr bu ərazidə mövcud olan Türk, Ərəb, İran sivilizasiya daşıyıcılarının birliyi nəzərdə tutulur) *toqquşması deyil, məhz Qərb-Türk sivilizasiyalararası qarşıdurma olduğuna aydınlıq gətirmək üçün bu hadisələrin baş verdiyi dövrdə regionun tarixi mənzərəsinə baxmaq lazımdır"* (6, s. 125-126).

Beləliklə, qəti olaraq demək mümkündür ki, xaçlı səfərləri Qərb sivilizasiyasının Türk sivilizasiyasına qarşı mübarizəsi, daha dəqiq bir ifadə ilə, müharibəsi olmuşdur. Türk sivilizasiya daşıyıcılarından tarixdə ən uzunömürlü dövlət olan Osmanlı (1299-1922) dövründə də Türk-Qərb münasibətləri İslam-Xristian qarşıdurması kontekstində davam etmişdir. Artıq XIV əsrdən Osmanlıların Avropa dövlətləri ilə müharibəsində Qərb təmsilçiləri "xaçlı birliyi"ni yaratmışdılar. Türklərin Anadoludan Avropaya hücumunun qarşısında uzun müddət Konstantinopol (İstanbul) dayanmışdır. Sultan Bəyazidin dövründə 1396-cı ildə bütün cəhdlərə baxmayaraq, İstanbul fəth oluna bilməmişdi. Lakin 1453-cü ildə Fateh Sultan Mehmet tərəfindən İstanbul fəth edilmiş və bununla da Türk sivilizasiya tarixində ən böyük hadisələrdən biri baş vermişdir. Zaman-zaman fəthlər genişlənmiş, xüsusilə Sultan Süleymanın dövründə Macarıstanadək ərazilər işğal olunmuş, hətta Vyana mühasirəyə alınmışdı, lakin sonralar Osmanlı ordusu əksər işğal etdiyi ərazilərdən çıxarılmış, amma İstanbul əldən verilməmişdir (6, s. 132-133).

Vyana mühasirəsinin Türk-Qərb sivilizasiyaları arasındakı münasibətlərdə tarixi rolu ilə bağlı Prof. Dr. Əhməd Davudoğlu qeyd edir ki, Vyana mühasirəsi Avropa üçün bir dönüş nöqtəsi olmuşdur və Osmanlı qarşısında yaradılan koalisiya ilk avropalılıq şüuru və fikrinin yaranmasında mühüm rol oynamışdır (42, s. 66).

Məhz bu baxımdan qeyd etmək lazımdır ki, Qərb sivilizasiyası türklərin bu zəfər yürüşünü heç zaman unutmamış və onların gözündə müsəlman türk dövləti o zamanlardan bəri ən böyük rəqib və hətta düşmən olmuşdur. Hal-hazırda İslamla birlikdə Türk sivilizasiyasına qarşı xaçlı zehniyyətinin formalaşması göründüyü kimi, heç də təsadüfi deyildir. Hələ Orta əsrlər dövründə avropalı hökmdarların, ümumiyyətlə, bütün Avropanın nəzərində **"Tanrının qırmancı"** ***(Scorge of God)*** kimi qəbul edilən türklər

Qərbin şüuraltında insan kimi deyil, vəhşi varlıqlar, hər cür qəddarlığı və amansızlığı törədə biləcək məxluqlar olaraq tanınırdılar (60, s. 103-104).

XIX əsrin sonlarında Böyük Britaniyanın Baş naziri Qladstonun türklər haqqında dediyi sözlərə nəzər salaq: *"...Türk milləti nə idi və hal-hazırda nədir? Bu, sadəcə İslam problemi deyil, İslamın bir millətə xas xarakteri ilə birləşməsi, bütünləşməsidir. Türklər Avropaya ayaq basdığı o ilk qara gündən indiyə qədər bəşəriyyətin ən böyük insanlıqdan uzaq növünü təşkil ediblər. Haraya getdilərsə, arxalarında geniş qanlı yol qoydular və onların hökmranlığının qurulduğu yerlərdə mədəniyyət yox oldu. Bəşəriyyətin insanlıqdan uzaq yeganə məxluqu məhz türklərdir..."* (27, s. 185).

1919-cu ildə də Böyük Britaniyanın Baş naziri Lloyd Corc isə belə deyirdi: *"...barbar və talançı bir millət olan türklər bəşəriyyətin yoluxduğu bir xəstəlikdir. Onlar idarə etdikləri torpaqların ətinə keçmiş bir yaradır..."* (27, s. 185).

Yaddaşlarda kök salmış bu cür mifik düşüncələrin və zehniyyətin, keçmişdəki hadisələrin nəticəsidir ki, Qərbdə türklərə qarşı həm qorxu, həm də nifrət psixologiyası bu gün də hakimdir. Belə bir zehniyyəti Avropa İttifaqına da şamil etmək olar və qeyd etmək lazımdır ki, bu ittifaq iqtisadi, siyasi və sosial birlik modeli ilə yanaşı, "xristian birliyi" olaraq dini təməllərə də söykənir. Alman Xristian Demokrat Birliyinin (CDU) sədri G.Şebl (G.Scheuble) "bu xristian birliyində heç bir müsəlman ölkənin yer almayacağı"-nı xüsusilə vurğulayırdı (27, s. 349).

Katolik kilsəsinə bağlı italyan yepiskoplarının mətbuat orqanı olan **"L' Avvanire"** qəzetinin 3 yanvar 2000-ci il tarixli sayında müsəlman Türkiyənin Avropa İttifaqına üzvlüyü barəsində aşağıdakı qeydlər yer alır: *"Müsəlman Türkiyənin Avropa İttifaqına daxil olması bizim kimliyimizə kölgə sala bilər. Bu üzvlük birlikdə inkişaf edən xristian ənənələri əsasında formalaşan Avropa mədəniyyətlərinin təməlindəki ittifaqları sarsıdar. Unudulmamalıdır ki,*

*“avropalı fikri” birbaşa “düşmən türklərə” və bütövlükdə Türk-İslam sivilizasiyasına qarşı formalaşıb”* (37).

Məşhur alman alimi Fritz Numark (Fritz Neumark) bütün Avropanın və avropalıların türklərə və İslama qarşı münasibətini bu şəkildə açıqlayırdı: *“Səmimiyyətlə etiraf etməliyik ki, avropalılar türkləri sevməz, hətta sevməsi mümkün deyil. Türk və İslam düşmənçiliyi yüz illərdir ki, xristianların və kilsənin damarlarına və hüceyrələrinə hopmuşdur. Avropalılar türkləri müsəlman olduqları üçün sevməzlər. Türkiyədəki dünyəvilik bir tərəfə dursun, hətta Türkiyə xristian bir ölkə olsa belə onlara yenə düşmən gözüylə baxarlar”* (27, s. 182).

Bu düşmənçiliyin və nifrətin səbəblərini isə Numark aşağıdakı kimi izah edərək türklərə belə səslənir:

*1. Müsəlman və türk olduğunuz üçün sevilmirsiniz;*

*2. Avropanın bazarı idiniz. Amma hal-hazırda Avropa sizin bazarınızdır;*

*3. Ən az 400 il Avropada kürəyimizdə və boynumuzda at çapdınız;*

*4. Səlcuqlar Anadolunu, Osmanlılar isə Mərkəzi Avropa və Balkanları xaçlı ordusuna məzar etdilər;*

*5. Sizi silah ilə məğlub edə bilməyənlər sizləri özlərinə oxşadaraq üzərinizdə hegemonluğu təmin etdilər;*

*6. Səlcuqlar və xüsusilə də Osmanlılar İslamiyyət naminə hər şeylərini fəda etməsəydilər, İslam bu gün bəlkə də sadəcə Hicazda varlığını davam etdirərdi. Qaldı ki, vəhabiliyi yaradanlar da ingilislərdir. Qərb İslamiyyətin azğın inanclara yol açması üçün həmişə və hər yerdə əlindən gələni əsirgəməmişdir. Lakin Osmanlı Əsr-i Səadəti davam etdirdi;*

*7. Kilsə sizə kin qusmaqdadır, səbəblərini yuxarıda izah etdim;*

*8. Sizlər öz həqiqi kimliyinizə döndüyünüz vaxt Avropanın rifahı və mədəniyyəti süqut edər;*

*9. Yenə sizlər Avropanın tarixi düşmənisiniz və daim düşmən olaraq qalacaqsınız* (93).

Bu baxımdan məsələyə milli və dini olmaqla iki aspektdən yanaşmaq lazım gəlir. **"Avropalı fikrinin düşmən türklərə qarşı formalaşması"** məntiqindən yola çıxsaq görərik ki, Qərbdə həqiqətən də sırf milli baxımdan antitürk bir düşüncə və nifrət psixologiyası hakimdir. Bu da keçmişdən miras qalan hadisələrlə əlaqədardır. Digər bir tərəfdən, dini baxımdan **"yüz illərdir ki, İslam düşmənçiliyi xristianların və kilsənin damarlarına və hüceyrələrinə hopmuşdur"** kimi fikirlərin səslənməsi heç də təsadüfi deyil. Bu vəziyyət bilavasitə sivilizasiyaların toqquşmasına rəvac verən əsas amildir. Halbuki İsa-Məsih xristianlara hər kəsi, hətta düşmənlərini belə sevməyi əmr etmişdir. İsanın yüksək əxlaqi fikirlərinə əsaslanan amerikan tədqiqatçısı Maykl Hart Matta İncilindən sitat gətirərək **(5: 43-44)** yazır: *"İsa bizə bunları əmr etmişdir ki, düşmənlərinizi sevin, sizdən nifrət edənlərə yaxşılıq edin. Pisliyə pisliklə cavab verməyin. Sağ yanağınıza bir sillə atana digər yanağınızı da çevirin. Təəssüflər olsun ki, bu sözlər bizim tərəfimizdən yayğın şəkildə qəbul edilmir. Xristianların əksəriyyəti "düşməninizi sevin" əmrini yaşadığımız real dünyada əsas tutulacaq məntiqli bir yol olaraq deyil, bəlkə də qüsursuz bir dünyada gerçəkləşə biləcək ideya olaraq dəyərləndirir. Biz ümumiyyətlə, bu əmrə riayət etmir və digərlərinin tətbiq etməsini də gözləmirik"* (49, s. 17-18).

**"Düşməninizi sevin"** məntiqindən məsələyə yanaşsaq, həqiqət budur ki, İslam əhli-kitab ənənəsinə sadiq qalaraq xristianlığa heç vaxt düşmən münasibət göstərməmiş, nəinki xristianlığa, digər dinlərə də həmişə hörmətlə yanaşmış, fərqli dinlərə mənsub olan insanların öz məbədlərində ibadət etmələrinə heç bir qadağa qoymamış, hətta kilsələrin və sinaqoqların inşa və təmir edilmələrinə şərait yaratmışdır. Qeyd etmək lazımdır ki, Türk-İslam sivilizasiyasının daşıyıcısı olan Azərbaycanda da dini tolerantlıq yüksək sə-

viyyədədir. Lakin təəssüflər olsun ki, əsasən Qərb dünyasında və hətta Ermənistanda tolerantlıq məsələsi sual olaraq qalmaqdadır. Bu gün Ermənistanda nəinki tolerantlıq yoxdur, əksinə, azərbaycanlılara məxsus Türk-İslam abidələri və məzarlıqları dağıdılmışdır.

Burada bir məsələyə xüsusilə diqqət yetirmək lazımdır ki, erməni məsələsi də məhz Qərb və Türk sivilizasiyaları arasındakı toqquşmanın törəməsi kimi ortaya çıxmışdır. XIX əsrin sonlarında qlobal mahiyyət kəsb edən bu məsələ tədricən öz təsirini göstərməyə başlamış, nəticədə Türk-İslam sivilizasiyasının daşıyıcılarından biri kimi Azərbaycan bundan ciddi yaralar almışdır. Düzdür, keçmişdən miras qalan səlib zehniyyəti Azərbaycandan çox Türkiyəyə şamil olunur. Lakin ortada erməni məsələsi olunca, bu amil dolayı olaraq öz növbəsində Azərbaycana da təsir edir. Azərbaycan bunun acısını XX əsrin əvvəllərindən bəri yaşayır. Türk sivilizasiyasına qarşı nifrətin təzahürüdür ki, Böyük Güclərin də dəstəyi ilə Türk dünyasının bağrına Ermənistan kimi bir xəncər saplanmış, Qərb dövlətlərinin maddi və hərbi dəstəyi sayəsində ermənilər tərəfindən XX əsrin əvvəllərində və sonlarında azərbaycanlılara qarşı soyqırımı siyasəti gerçəkləşdirilmişdir. Hal-hazırda Azərbaycanın 20%-dən çox torpaqları Ermənistanın işğalı altındadır. Qərb-Türk sivilizasiyalarının toqquşmasının və keçmişdən miras qalan səlib zehniyyətinin nəticəsidir ki, hal-hazırda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində nəinki real addımlar atılmır, əksinə, əsas diqqət və dəstək işğalçı tərəfə verilir. Bütün bunlara əsaslanaraq qeyd etmək mümkündür ki, günümüzdə Qərbdə ermənilərə göstərilən rəğbətin kökündə məhz xaçlı səfərləri dövründə onların səlibçilərə göstərdiyi köməklik dayanır.

İstanbuldan Qüdsə qədər bütün yol boyunca xaçlılarla birlikdə olan ermənilər səlibçilərin qida və sursat baxımından bütün ehtiyaclarının təmin olunmasında, eyni zamanda Adana, Tarsus, Toros

dağlarının cənub bölgələri, Kilikiya, Antakya, Kayseri, Konya, Sivas və s. bölgələrin işğal edilməsində böyük rol oynamışdılar (bu barədə bax: 26, s. 49; 56, s. 32; 58, s. 534; 59, s. 83-84).

Xaçlı səfərləri dövründə ermənilərin səlibçilərə olan sədaqətini və onlarla yaxın əlaqələrini XVI əsrdə Papa XIII Qriqorius Vatikanda erməni katolik rahiblər heyətinin qurulması münasibəti ilə verdiyi imtiyaz bullasında ***(fərmanında)*** belə mədh edirdi: *"Erməni millətinin kilsəyə və xristian idarəçilərinə göstərdiyi xidmətlər içərisində elə bir xidmət vardır ki, daim yaddaşlarda saxlanılmalıdır. Xristian şahzadələri və xristian orduları İsanın məzarını yenidən geri almaq üçün getdikləri vaxt xristianlara heç bir millət ermənilər qədər dərhal və sevinclə köməyə tələsməmişdir. Ermənilər hər vəchlə öz dəyərli adamlarını xaçlıların əmrinə vermiş, heyvan (at), yemək, içmək, istirahətgah, yatacaq yer təmin etdikləri kimi, öz tövsiyələrini və silah yardımlarını da əsirgəməmişlər. Bütün gücləri ilə yorulmadan qəhrəmancasına və sədaqətlə bu müqəddəs müharibələrdə xristianlara yardım etmişlər. Xaçlı ordularına bələdçilik edərək yolu göstərmək, ən əlverişli yolu seçmək, türk qalalarının vəziyyətini açıqlamaq, türk ordusunun vurucu gücünün sayını və hərbi texnikasını öyrənib bildirmək ermənilərin sədaqətinin bariz nümunəsidir. Buna türklərə qarşı frankları qorumaq üçün müharibəyə qoşulmaları və türkləri öldürmələri də daxildir... Sonra ermənilər türklərin boyunduruğu altına girmək məcburiyyətində qalmış, onların əsiri olmuşlar. Böyük acıyla və içimiz yanaraq bildiririk ki, heç bir hakimiyyət, heç bir təzyiq onları (erməniləri) bu dərəcə yaralamamış, xristian kilsəsinə, dininə, ibadət zərurətinə bu dərəcə həqarət edilməmişdir. Bütün çətinliklərə baxmayaraq, ermənilər hər cür fəlakətə sinə gərmişlər"* (56, s. 33-35).

Qərb dövlətlərinin ermənilərə qarşı kökü səlib yürüşlərinə qədər uzanan yaxınlıq və səmimi münasibətləri sonrakı dövrlərdə də davam etmiş, nəticədə ermənilərin vaxtilə göstərdiyi yardımlar müqabilində onlar üçün Birinci Dünya müharibəsinin sonunda

dövlət yaradılmışdır.

Bu problem fərqli bir tədqiqat işinin mövzusu olduğuna görə, üzərində durmaq niyyətində deyilik, lakin qeyd etməyi vacib bilirik ki, tarixən Böyük Güclərin siyasi alətinə çevrilən erməni məsələsi geosiyasi maraqların toqquşmasının nəticəsi olmaqla yanaşı, Türk sivilizasiyasına qarşı nifrətin təzahürü kimi də ortaya çıxmışdır.

Ümumiyyətlə, Orta əsrlərdə Yaxın Şərqdə müqəddəs torpaqlar uğrunda gedən müharibələrdə türklər qarşısında səlibçilərin məğlubiyyətə uğraması və alınan ağır nəticələr yaddaşlarda möhkəm yer tutmuş, Qərb sivilizasiyası bu məğlubiyyəti heç vaxt unutmamış və həzm etməmişdir. Məhz bunun nəticəsidir ki, əsrlərdən bəri davam edən bu anlayışla müsəlman türklərə qarşı ən böyük rəqib, hətta düşmən gözüylə baxılmaqdadır.

Osmanlı dövlətinin süqutundan sonra Yaxın Şərq uğrunda mübarizə yenidən qızışmış, bölgə XX əsr boyunca geosiyasi maraqların toqquşduğu arenaya çevrilmişdir. XXI əsrdə isə müasir səlib yürüşləri fərqli adlar altında gerçəkləşdirilməkdədir.

## YAXIN ŞƏRQDƏ GEOSİYASİ VƏZİYYƏT VƏ BÖYÜK OYUN

Yaxın Şərq tarixən problemlərin, münaqişələrin, xəyanət və dostluqların mövcud olduğu coğrafi bir ərazi, bəzilərinə görə xaosun, qeyri-sabitliyin, geri qalmışlığın, digərlərinə görə də neft və zənginliyin mərkəzi olan, haqqında çox şey danışılan, amma barəsində az bilinən bir bölgədir. Mədəniyyətlərin beşiyi olan bu region başda İslam dini olmaqla, xristianlığın və musəviliyin ortaya çıxdığı və yayıldığı coğafi bir məkandır. Eyni zamanda dəniz hövzəsi baxımından da dünyada çox önəmli keçid yollarının olduğu önəmli bir sahədir. Bununla yanaşı, bölgə iqtisadi baxımdan da son dərəcə həyati bir önəm daşıyır.

Günümüzdə Yaxın Şərq deyə adlandırılan bölgə Türk-İran hövzəsi (Türkiyə, İran, Əfqanıstan), Ərəbistan yarımadası (Səudiyyə Ərəbistanı, Bəhreyn, Birləşmiş Ərəb Əmirlikləri, Küveyt, Oman, Qətər, Yəmən), Bərəkətli Hilal adıyla xarakterizə olunan bölgə (İraq, İsrail, İordaniya, Livan, Suriya) və Afrika qitəsindəki Misirdən mütəşəkkildir (96).

Olduqca geniş bir əraziyə sahib olan bu bölgə neft və qaz ehtiyatları ilə uzun illərdir Böyük Güclərin diqqətini öz üzərinə çəkmişdir. Dünya neft ehtiyatlarının 70%-i, qaz ehtiyatlarının isə 35%-i məhz bu torpaqlardadır. Bu baxımdan Yaxın Şərq, ona sahib olan hər hansı bir böyük gücə dünya hegemonluğunu ələ keçirmə imkanını, eyni zamanda dünyadakı hər hansı bir dövlətin nə qədər istehsal və istehlak edəcəyinə qərar vermək səlahiyyətinə malik olma fürsətini verir (21, s. 27).

Əsrlər boyu türklərin idarəsində qalan Yaxın Şərq Osmanlı dövlətinin çöküş prosesində imperialist dövlətlərin təsir dairəsi-

nə düşmüş, Birinci Dünya müharibəsinin sonunda isə tamamilə Böyük Güclərin, xüsusilə də İngiltərənin nəzarəti altına keçmişdir. Yaxın Şərqin uzun illərdən bəri hegemon güclərin diqqətini çəkdiyi nəzərə alınarsa, Birinci Dünya müharibəsinin də məhz Osmanlı dövlətinin sərhədləri içərisində yer alan belə bir zəngin ərazi ucbatından baş verdiyini qeyd etmək hər halda yanlış olmaz.

Çox sayda tarixi və siyasi kitablarda Birinci Dünya müharibəsinin başlanmasının başlıca səbəbi kimi hərbi təlimləri müşahidə etmək üçün Sarayevoya gedən Avstriya-Macarıstan vəliəhdi Frans Ferdinandın 28 iyun 1918-ci ildə serb millətçisi Qavrilo Prinsip tərəfindən qətlə yetirilməsi göstərilir. Bu səbəbdən dövlətlər bir-birinə müharibə elan etmiş, beləliklə, Birinci Dünya müharibəsi başlanmışdır (24, s. 100; 57, s. 194; 68, s. 170). Bu faktlar doğrudur, ancaq məsələnin mahiyyətini tam olaraq açmır. Çünki vəliəhd Frans Ferdinandın ölümü sadəcə planlı şəkildə ortaya atılmış bir **bəhanə** idi. Eyni 11 sentyabr 2001-ci il hadisələrinin cavabdehi və səbəbkarı kimi tanınan Üsamə bin Ladin, Əl-Qaidə və günümüzdə Yaxın Şərqi qana boğan İŞİD kimi bir bəhanə.

ABŞ-ın keçmiş prezidentlərindən olan Franklin Delano Ruzveltin də söylədiyi kimi: *"...Siyasətdə heç bir şey təsadüfi deyil. Hər hansı bir hadisə vaqe olarsa, o hadisənin müəyyən formada zühur edəcəyinin əvvəlcədən planlanmış olduğuna əmin ola bilərsiniz..."* (19, s. 13).

XIX əsrin sonları və XX əsrin əvvəllərində fərqli bloklar **(Üçlər İttifaqı və Antanta)** yaradaraq böyük rəqabət içərisinə girən Böyük Güclər Osmanlı dövlətini müxtəlif bəhanələrlə müharibəyə cəlb edərək onun sonunu hazırladılar. Baş vermiş çevrilişdən dolayı Rusiyanın müharibədən çəkilməsi və Almaniyanın da məğlub olmasıyla iki müttəfiq dövlət İngiltərə və Fransa zəngin təbii ehtiyatları özündə ehtiva edən Yaxın Şərqi paylaşma yarışı içərisinə

girdilər. Nəhəng Osmanlı imperiyasının parçalanması ilə onun geniş ərazilərində, xüsusilə Yaxın Şərqdə çoxlu süni dövlətlər meydana gətirildi və həmin torpaqlarda 1920-ci il tarixli San-Remo konfransı ilə İngiltərə və Fransanın himayəsində mandatlıq rejimləri yaradıldı (San-Remo konfransı üçün bax: 16, s. 54; 24, s. 201).

Qeyd etmək lazımdır ki, Yaxın Şərqdə ən karlı çıxan dövlət İngiltərə oldu. İngiltərənin Osmanlı torpaqlarına olan marağı əsrlər öncəsinə dayanır. Xüsusilə Yeddiillik müharibələrdən[1] Birinci Dünya müharibəsinə qədər olan dövrdə getdikcə güc itirən və **"xəstə adam"** deyə adlandırılan Osmanlı imperiyasının zəngin və strateji əraziləri bir çox müstəmləkəçi dövlət kimi İngiltərənin hələ o tarixlərdən diqqətini çəkmişdi. Məlum olduğu kimi, müstəmləkəçi dövlətlər Osmanlı imperiyasının əraziləri uğrunda öz aralarında qızğın rəqabət aparırdılar. Başlıca imperialist dövlətlər olan İngiltərə, Rusiya, Fransa, sonradan Almaniya və İtaliya üçün ən önəmli məsələ Osmanlı torpaqlarının necə bölüşdürüləcəyi, bu imperiyanın etnik ünsürlərindən hansı şəkildə öz mənafeləri üçün yararlanılması idi.

XVIII əsrin sonlarından etibarən Osmanlı dövlətinin ərazi bütövlüyünü müdafiə etmək siyasətini yeridən İngiltərə 1877-1878-ci illər Osmanlı-Rusiya müharibəsindən sonra Osmanlı imperiyasının ərazi bütövlüyünə əsaslanan ənənəvi siyasət prinsiplərindən zahi-

---

[1]**Qeyd:** Yeddiillik müharibələri İngiltərənin məşhur siyasi və dövlət xadimlərindən Uinston Çörçil (Winston Churchill) Birinci Dünya müharibəsi olaraq adlandırır. 1756-1763-cü illər arasında baş verən bu müharibəyə çox sayda dövlət – koloniyaları ilə birlikdə İngiltərə, Fransa, İspaniya, Portuqaliya, Prussiya, Avstriya, Müqəddəs Roma imperiyasına daxil olan əksər alman knyazlıqları, Rusiya, İsveç, Saksoniya, Sarduniya qatılmış və müharibə Uzaq Şərq, Hindistandan Avropaya, oradan bütün Amerika materikinə qədər olan bütün ərazilərdə cərəyan etmişdir. İngiltərə və müttəfiqlərinin qalib gəldiyi müharibə Birinci Dünya müharibəsi olaraq dəyərləndirilir (bu barədə bax: H.V.Bowen. War and British Society (1688-1815). Cambridge: Cambridge University press, 1998, p. 7).

rən ayrılmasa da, bu dövlətin özü üçün strateji əhəmiyyət daşıyan ərazilərinə sahib olmaq və ya ən azından bu ərazilər üzərində nəzarət və təsirini gücləndirmək siyasətinə yönəldi. Digər bir ifadə ilə, əvvəllər Osmanlı dövlətinin ərazi bütövlüyünü müdafiə edən İngiltərə XIX əsrin ikinci yarısından etibarən Osmanlı dövlətini yıxmaq məqsədini daşıyan bir siyasəti mənimsəməyə başladı. Bunun əsas səbəbi də ondan ibarət idi ki, İngiltərənin siyasi xadimləri əvvəllər Hindistan yolunun Osmanlı dövlətinin ərazi bütövlüyü ilə təminat altına alınacağı fikrini mənimsəmişdilər. Lakin XIX əsrdən etibarən bu dövlətin çox qısa bir müddətdə dağılacağını dərk edən İngiltərə Osmanlı dövlətinin torpaqları üzərində yeni dövlətlər yaratmağı və bu sayədə Hindistanı və Hindistan yolunu təminat altına almağı qarşısına məqsəd qoydu. İngiltərənin əsas məqsədi bunlar idi:

a) Öz ərazi bütövlüyünü qoruya bilməyən və itirən Osmanlı dövlətinin torpaqlarının İngiltərənin maraqlarına zərər verə biləcək və müstəmləkələrini təhdid edə biləcək bir ölkənin əlinə keçməsinə mane olmaq;

b) Rusiyanın isti dənizlərə enməsinin qarşısını almaq üçün əvvəllər Osmanlı dövlətinin ərazi bütövlüyünü qorumaq istəyən İngiltərənin artıq bu dövlətin sonunun yaxınlaşdığını gördüyü üçün Osmanlı imperiyasının torpaqları üzərində özündən asılı dövlətlər yaratmaqla müstəmləkələrinin təhlükəsizliyini təminat altına almaq (bu barədə ətraflı bax: 23, s. 564-567; 25, s. 200-201).

İngiltərə sadəcə Osmanlı torpaqlarını parçalamağı və parçalanmış ərazilər üzərində hegemonluq qurmağı hədəfləməmiş, eyni zamanda Rusiyanın Aralıq dənizinə enməsinin qarşısını almaq istəmişdir. Məlum olduğu kimi, İngiltərə dünyanın ən böyük dəniz gücünə sahib idi və dünya ticarətini əlində saxlayırdı. Qazandığı zəfərləri ilə rəqibsiz bir gücə çevrilmişdi. İngiltərənin ali strategiyası güclü diplomatik və strateji balans əsası üzərində qurulmuşdu. 1890-cı illərdə İngiltərə Fransa ilə açıq dənizlərdə, Afrikada, Ya-

xın və Uzaq Şərqdə, Almaniya ilə Avropa rəqabətində və Osmanlı imperiyasının torpaqları üzərində, Rusiya ilə də Yaxın Şərqdə, Balkanlarda, Anadoluda və Asiyada, xüsusilə Əfqanıstan və Çində rəqib idi. Eyni zamanda Osmanlı imperiyasının torpaqları İngiltərəni çox maraqlandırırdı. Buna görə də Balkanlarda Bolqarıstanı, Anadoluda Ermənistanı, Yaxın Şərq torpaqlarında da özündən asılı ərəb dövlətləri yaratmaqla Rusiya, Fransa və Almaniyaya qarşı rəqabət və güc mübarizəsində ingilis maraqlarına uyğun olaraq üstünlük əldə etmək istəyirdi.

Heç təsadüfi deyildir ki, müharibənin ilk dövrlərindən başlayaraq İngiltərə Osmanlı dövlətini arxadan vurmaq üçün bütün ərəb dünyasını müxtəlif vədlərlə aldadaraq ona qarşı təhrik etmiş, bəzi ərəb şeyxləri ilə görüşərək üsyan fəaliyyətlərini başlatmışdır. 1915-ci ildə Məkkə əmiri Şərif Hüseynlə aparılan uzun müzakirələrdən sonra xilafətin Osmanlı sultanından alınaraq ona verilməsi, bütün Ərəbistan yarımadası, Suriya və İraqı da içinə alan böyük bir dövlətin başına əmirin keçirilməsi üzərində anlaşmaya varıldı. Ərəblərlə ingilislər arasındakı bu gizli anlaşmalar tarixdə **“Hüseyn – Mak Mahon yazışmaları”** olaraq bilinir (bu barədə geniş məlumat üçün bax: 24, s. 125; 68, s. 234-236).

Əslində Şərif Hüseyn oyuna gəlmiş və aldadılmışdı. Aparılan müzakirələrdən Fransanı da xəbərdar edən İngiltərə bölgəni öz aralarında bölüşdürərək Sayks-Pikot **(Sykes-Picot)** anlaşmasını imzaladılar. Şərif Hüseynə verilən sözlər eyni ilə Nəcd əmiri İbn Səuda da vəd edildi. İngiltərə hər iki şəxslə ayrı-ayrılıqda anlaşmalar imzalamış, eyni torpaqları hər ikisinə də vəd etmişdi (24, s. 126). İngiltərə ilə anlaşdıqdan sonra İbn Səud Osmanlı dövlətinə müharibə elan etməsə də, Bəsrə körfəzində ingilislərə təminat verdi. Şərif Hüseyn isə 1916-cı ilin iyun ayında Osmanlı dövlətinə müharibə elan etdi (24, s. 126). Təsadüfi deyildir ki, Türkiyədə uzun illərdir ki, Osmanlı dövlətinin son dövrlərində ərəblərin ortaya qoyduğu münasibət və fəaliyyətləri arxadan vurulan zərbə və xəyanət kimi

dəyərləndirilir.

Qeyd etmək lazımdır ki, Birinci Dünya müharibəsindən sonra Yaxın Şərqə başqa bir güc – **Sionizm** də daxil oldu. Sionistlərin regiona olduqca maraq göstərmələrinin səbəbi bir çox amillərlə izah oluna bilər:

Sionizm bir ideya-siyasi cərəyan kimi XIX əsrin sonlarında meydana gəlmişdir. Məlum olduğu kimi, siyasi sionizm öz ideyasını Orta əsrlərdə geniş yayılmış dini sionizmdən götürmüşdür. Bu ideyanın məzmunu isə "Bibliya" rəvayətləri əsasında yaranmış nəzəriyyədən – bütün Yer kürəsinə yayılmış yəhudilərin Qüdsdə Sion dağlarına, yəni "ulu əcdadlarının torpağına" qayıtmasının labüdlüyündən ibarətdir. Yəhudi fəlsəfəsinə və onların müqəddəs kitablarına görə, guya Tanrı tərəfindən seçilmiş millət məhz İsrailoğulları, yəni yəhudilərdir və Tanrı (Yehova) Hz. İbrahimin yuxusuna girərək, *"... Misir (Nil) çayından ta ... böyük çay olan Fərata qədər kənanilər, kənizilər ... və yəbusilərin məmləkətini sənin nəslinə verirəm",* – demiş və Nildən Fərata qədər olan torpaqları İsrailoğullarına hədiyyə etmişdir (22, s. 7; 39, s. 45).

Sonradan "siyasi sionizm" fəlsəfəsinin meydana gəlməsi ilə yəhudi ideologiyasında dünya hakimiyyəti məfkurəsi təşəkkül tapmışdır. Göründüyü kimi, sionizm yəhudilərin Yaxın Şərqdə yerləşdirilməsi yolu ilə bu ərazilərin əslində nəzarətə götürülməsi məqsədini daşıyan siyasi ideologiyadır.

Müasir sionizm formal olaraq 1897-ci ildə yəhudi mənşəli avstriyalı jurnalist Teodor Herzl tərəfindən yaradılmışdır. O, belə hesab edirdi ki, yəhudilər heç vaxt özgə ölkələrdə rahat yaşaya bilməyəcəklər və onların təhlükəsizliyinin təmin edilməsi üçün ən düzgün yol yəhudi dövlətinin yaradılmasıdır (bu barədə ətraflı bax: 20, s. 114-120; 68, s. 33-40; 78, s. 41-43).

İlk baxışda adi hüquq kimi müəyyən edilən bu anlayış XIX əsrin sonlarından günümüzə qədər ciddi tarixi sualların və qlobal qarşıdurmaların başlanğıcını qoymuşdur. Onu da qeyd etməyi va-

cib bilirik ki, bu ideologiya yəhudi xalqının bütün nümayəndələri tərəfindən dəstəklənmir və yəhudi xalqının milli hərəkatı kimi xarakterizə edilə bilməz.

Rəsmi sionizmin əsasında yəhudilərin öz dövlətlərini yaratması ideyası dayansa da, belə bir dövlətin qurulması üçün milyonlarla yəhudi qurban verilmişdir. İstər-istəməz belə bir sual da ortaya çıxır: Yəhudi dövlətini yaratmaq bəhanəsi ilə onların Avropadan uzaqlaşdırılması hansı dövlətlərin maraqlarına xidmət edirdi? Bu baxımdan sionizmin əsl mahiyyətini düzgün anlamaq üçün bu ideologiyanın təşəkkül tapmasında və inkişafında hansı qüvvələrin maraqlı olmasını analiz etmək və məsələyə düzgün yanaşmaq lazım gəlir ki, bu barədə kifayət qədər araşdırmalar aparılmışdır.

Məlum olduğu kimi, sionistlər bölgəyə hələ Sultan II Əbdülhəmid dövründə girmək istəyirdilər, lakin sultanın sərt reaksiyası səbəbiylə onlar gözləmək məcburiyyətində qaldılar (bu barədə bax: 65, s. 50-52; 68, s. 41-50). Yaxın Şərqin Osmanlının nəzarətindən çıxması isə sionistlər üçün mükəmməl bir fürsət oldu. Xüsusilə İngiltərənin Xarici İşlər naziri Artur Ceyms Balfur (Arthur James Balfour) tərəfindən 2 dekabr 1917-ci ildə hazırlanıb Sionist Federasiyasının rəhbəri, zəngin bankir Lord Rötşildə **(Lord Rothschild)** göndərilən və **Balfur deklarasiyası** adıyla məşhurlaşan sənəd (və ya məktub) sionistlərin siyasi davasında dönüş nöqtəsi oldu (24, s. 200; 65, s. 106; 68, s. 263).

Həmin deklarasiya ilə Fələstində yəhudilər üçün yeni vətən qurulmasının qəbul edildiyi rəsmi şəkildə bildirilirdi. Məhz bunun nəticəsidir ki, Avropadan yəhudilərin tədricən köçürülməsi ilə İkinci Dünya müharibəsindən sonra bölgədə İsrail dövləti quruldu **(14 may 1948).** Əslində bölgədə İsrail dövlətinin qurulması heç də səbəbsiz deyildi. Biz əvvəlki fəsildə tarixən xristianlarla yəhudilər arasında yaşanmış ziddiyyətli münasibətlər və onların səbəbləri barəsində bəhs etmişdik. Lakin qeyd etmək lazımdır ki, İsrailin milli dövlət olaraq ortaya çıxması və bunun Qərb dövlətləri tərəfindən

ərsəyə gətirilməsi məsələsinin mahiyyətində fərqli səbəblər dayanır. Türkiyənin sabiq Xarici İşlər naziri, Prof. Dr. Əhməd Davudoğlu *"Strateji dərinlik: Türkiyənin beynəlxalq mövqeyi"* adlı əsərində göstərir ki, Qərb yüzillərlə Avropa məkanında yəhudi-xristian qarşıdurması olaraq xarakterizə olunan yəhudi məsələsini müsəlman-yəhudi münaqişəsinə çevirərək Yaxın Şərqə ixrac etmişdir (42, s. 380). Halbuki Avropada yüzillərlə davam edən yəhudi məsələsi xristian teologiyasından qaynaqlanan antisemit hərəkət olsa da, İkinci Dünya müharibəsindən sonra Yaxın Şərqə ixrac edilən İsrail məsələsinə qarşı bölgədəki müsəlman ictimaiyyətin göstərdiyi reaksiya antisemit deyil, siyasi əsası olan antisionist bir reaksiyadır (42, s. 381).

Məsələnin mahiyyəti bundan ibarətdir ki, Qərb xristian-yəhudi qarşıdurmasını unutdurmaq istəmiş və beləliklə, bu dini toqquşma öz yerini yəhudi-müsəlman qarşıdurmasına vermişdir. Heç təsadüfi deyildir ki, İsrail dövləti qurulduğu gündən bəri ərəblərlə müharibə vəziyyətindədir.

Mövzudan uzaqlaşmadan qeyd etmək lazımdır ki, Osmanlı dövlətinin süqutu ilə Birinci Dünya müharibəsindən qalib çıxan İngiltərənin Yaxın Şərqdə dominant gücü İkinci Dünya müharibəsindən sonra zəiflədi və ortaya çıxan iki yeni güc – ABŞ və SSRİ bölgəylə maraqlanmağa başladılar. ABŞ-ın Yaxın Şərqdə güclənməsinə rəvac verən vəziyyət 1956-cı il tarixli Süveyş böhranıdır (ətraflı bax: 24, s. 492-501). Həmin tarixdən bir il sonra, yəni 1957-ci ildə ABŞ regionda arzu edən ölkələrə hərbi yardımın göstərilməsini özündə ehtiva edən Eyzenhover doktrinası ilə SSRİ-nin qarşısına çıxdı. Digər bir ifadə ilə, ikiqütblü dünya sistemində fərqli ideologiyaları təmsil edən ABŞ ilə SSRİ ilk dəfə Yaxın Şərqdə qarşı-qarşıya gəldilər (24, s. 502-503). Bu, eyni zamanda ideologiyaların toqquşması idi.

Soyuq müharibə dövründə ABŞ və SSRİ Yaxın Şərq ölkələri arasında ortaya çıxan müharibələrdə *(Ərəb-İsrail və İran-İraq mü-*

*haribələri)* fəal rol alaraq tərəfləri silahlandırmış, öz ideologiyalarını nüfuz qazanaraq yaymaq istəmişlər. Soyuq müharibənin və SSRİ-nin dağılmasıyla ikiqütblü sistem də sona çatır və ABŞ birqütblü dünya siyasətini formalaşdırmağa başlayır. Qeyd etmək lazımdır ki, Soyuq müharibə dövründə Qərb dünyası bütün neqativ halların qaynağında Sovet ideologiyasını görürdü. Soyuq müharibədən sonra isə dünyanın bir çox ölkəsi, o cümlədən Yaxın Şərq sərhəd problemləri və dini fanatizm kimi hadisələrlə sıx-sıx müharibə vəziyyətində olmuşdur. ABŞ Soyuq müharibə illərində dövlətləri Sovet ideologiyasından duyduqları qorxu səbəbiylə qorumaq və demokratik bir sistem vədi ilə öz ətrafında toplamış, onları özünün geosiyasi maraqları istiqamətində yönləndirmişdi. Lakin Soyuq müharibədən sonra beynəlxalq münasibətlər sistemi tərkibinə və xarakterinə görə yeni bir mərhələyə qədəm qoyaraq Yeni Dünya Nizamının formalaşması mərhələsinə keçdi. Xüsusilə Körfəz müharibəsindən sonra ABŞ Yaxın Şərqdə ən dominant gücə çevrildi. Öz strateji və iqtisadi maraqlarına uyğun olaraq regionun "himayəsini" öhdəsinə götürən ABŞ etdiyi müdaxilələrlə yeni dalğaların ortaya çıxmasına səbəb oldu. Addım-addım məşhur 11 sentyabr hadisələrinə gələrkən, Bill Klintonla başlayan sülh içərisində yeni bir dünya atmosferi gözləntisi Corc W.Buş (George W.Bush) dövrüylə tarixə qarışdı. I Corc Buş **(Ata Buş)** dövründə olduğu kimi, II Corc Buş **(Oğul Buş)** dövründə də ABŞ Yaxın Şərqdə qanlı müharibələrə imza atdı. Soyuq müharibə dövründə sosializm ideologiyasına qarşı mübarizə aparan ABŞ üçün 11 sentyabr hadisələrindən sonra yeni hədəf kəşf edildi. Lakin əsl hədəfin adı sual işarəsi olaraq qalırdı: **Terrorizm, yoxsa İslam?**

Həmin dövrdə Prezident Corc Buşun rəsmi səviyyədə "**terrorizmə qarşı "Crusades" (xaçlı yürüşləri)"** ifadəsini işlətməsi əslində real hədəfi göstərirdi: **Terrorizm adı altında İslam ölkələrinə hücum!**

Bəzi mütəxəssislərə görə, 11 sentyabr 2001-ci il tarixi "Yeni

Dünya Nizamı"nın başlanğıc tarixidir. Düşüncəyə görə, Yeni Dünya Nizamı bilavasitə ABŞ-ın özünün dünya hegemonluğunu isbat etmək üçün yaratdığı bir sistemdir. Digərlərinə görə, bu tarix nəzəri olaraq alt strukturu hazırlanan Yeni Dünya Nizamının formalaşmağa başladığı tarixdir ki, bu sistem uzun illərdən bəri planlanmaqdaydı. Bu iki variantdan fərqli olaraq, bəzi analitiklər 11 sentyabr 2001-ci il tarixini "Soyuq müharibə"nin başa çatmasından sonra Avropa, Çin, Rusiya kimi dünya sistemini müəyyənləşdirəcək miqyasda bir çox yeni güclərin ortaya çıxmasının qarşısını almaq və eyni zamanda özünün qlobal hegemonluğunu tamamilə reallaşdırmaq istəyən ABŞ-ın bu güclərin təsir dairəsini azaltmaq üçün hərəkətə keçdiyi zaman kəsimi olaraq qəbul edirlər (55, s. 137).

Hər üç ehtimala "ola bilər" deyən müsəlmanlar baxımından isə bu tarix tamamilə fərqli bir məna kəsb edir. Onlar daha çox 11 sentyabr hadisələrini İslama qarşı növbəti "xaçlı səfərləri"nin başlanğıc tarixi kimi qəbul edirlər.

Bizə görə, yuxarıda qeyd olunan ehtimalların dördü də düzgündür. Lakin beynəlxalq terrorizmə qarşı mübarizənin sırf İslam ölkələrinə yönəlməsi fikri daha çox üstünlük qazanmışdır. Həqiqətən də İslam ABŞ-ın öndərliyində qlobal bir müharibənin açıq düşməni olaraq hədəf alınmışdır. Bütün qlobal problemlərdə ABŞ və İngiltərənin dünya hegemonluğunu "cilovlamağa" çalışan, Yeni Dünya Nizamının ABŞ-ın qlobal imperiyasına çevrilməməsi üçün balanslaşdırma axtarışlarına girən regional və qlobal güc mərkəzləri "Soyuq müharibə"dən sonra ilk dəfə ABŞ ətrafında ortaq bir düşmənə – **İslama** qarşı birləşdilər. Baş vermiş "11 sentyabr" adlı tragediyanın üstündən bir gün belə keçmədən və ortada heç bir sübut-dəlil olmadan hücumun arxasında hansı güc və ya güclərin olacağı araşdırılmadan yeganə düşmən elan olundu: **Üsamə bin Ladin, Taliban, islami terrorizm!**

Kimin daha çox amerikanpərəst olduğunu isbat etmək üçün

yarışa girən dünya mediası müsəlman ölkələrini, bu ölkələrdəki ən radikalından ən demokratına qədər islamçı qrupları hədəf siyahısına qoyub, müharibə nərələri çəkərək müsəlmanlara qarşı şiddət və nifrət yaratdı. Dünyanın bir çox ölkəsində, xüsusilə Avropada, o cümlədən Fransada, Almaniyada, ABŞ-ın bir çox əyalətlərində müsəlmanlara aid evlər, iş yerləri və camilər hücuma məruz qaldı, müsəlman uşaqlar məktəblərdən qovuldu, təhqir edildi. Avropa və Amerikada yüksələn irqçilik müsəlmanlara yönəldi. Klu Kluks Klanlar (KKK) bu dəfə zəncilər deyil, müsəlmanları hədəf aldılar. Ortaya belə bir sual çıxır: Beynəlxalq sistemi lərzəyə salan hücumun bir nömrəli şübhəlisi elan edilən Üsamə bin Ladin nə qədər güclü bir insan idi ki, sadəcə bir terror aksiyası ilə bütün dünyanı xaosa sürükləyib, qlobal və regional bloklaşmaları bir anda işləməz vəziyyətə gətirərək, dünyanı dərəcəsi və miqyası bilinməyən bir müharibə atmosferinə çəkə bildi? Əgər bir şəxs və ya qrup dünya sistemini bu qədər asanlıqla lərzəyə sala bilirsə və güc balanslarını heç bir çətinlik çəkmədən poza bilirsə, dünya sistemini təşkil edən gücün, sərmayənin və güclər balansının söykəndiyi əsasların bir heç olduğu ortaya çıxmırmı?

ABŞ Prezidenti Corc Buş hücumdan sonra terrorizmə qarşı "xaçlı səfəri" başlatdığını, bu müharibənin illərlə davam edəcək hərbi, iqtisadi, diplomatik mahiyyətdə və eyni zamanda hüdudlarının və miqyasının qeyri-müəyyən olacağını elan etdi (55, s. 141).

Diqqət yetirilməsi vacib olan məsələlərdən biri də budur ki, "Soyuq müharibə" dövründə Sovetlərə qarşı Türkiyə, Pakistan, İran və s. ölkələr ABŞ-ın, Qərbin və kapitalizmin əsas sütunları idilər. SSRİ-nin Əfqanıstana qarşı işğalçılıq siyasəti yeritməsi ilə bölgə "Soyuq müharibə" dövrünün ən qanlı münaqişə zonalarından birinə çevrildi. ABŞ-ın kommunizmə qarşı islami hərəkatlara və müsəlman ölkələrə verdiyi dəstək Sovetlər Birliyi süqut edincə öz mənasını itirdi və strateji hesablamalarda ciddi dəyişikliklər baş

verdi. Bir vaxtlar ABŞ-ın ən yaxın müttəfiqi olan Pakistan gözdən çıxarılaraq, onun yerini Hindistan aldı. Getdikcə daha da fəallaşan islami hərəkatlar sadəcə ABŞ-ın Cənubi Asiya, Orta Asiya və Yaxın Şərqdəki maraqları üçün deyil, Rusiyanın, Çinin və Hindistanın da maraqları üçün təhdid olaraq görülməyə başlandı. Bir zamanlar Sovetlərə qarşı "əməkdaşlıq edilə biləcək güc" olaraq görülən İslam ölkələri sonradan nəzarət altına alınması vacib olan bir gücə çevrildilər.

2002-ci il yanvar ayının 29-da ABŞ Konqresində "ölkədə vəziyyət haqqında" proqram xarakterli çıxışında ölkə prezidenti Corc Buş ABŞ-ın terrorizmə qarşı mübarizə ***(oxu: müharibə – E.Ş.)*** hədəflərini açıqladı və konkret olaraq İraq, İran, Şimali Koreya və s. dövlətlərin beynəlxalq terrorizmi hərtərəfli müdafiə və himayə etdiyini, bu dövlətlərin dünyada sülh üçün böyük təhlükə olduğunu bəyan etdi. O, 15 sentyabr 2001-ci il tarixdə amerikan ictimaiyyətinə səslənərək, açıq-açığına qeyd edirdi ki, terrorizmə qarşı zəfər yalnız bir müharibədə qazanılmayacaq. Bu qələbə terrorist təşkilatlara və onlara qucaq açıb dəstəkləyənlərə yönəlik bir sıra qərarlı fəaliyyətlərlə əldə ediləcəkdir (34, s. 117).

Corc Buş eyni zamanda bildirdi ki, bu dövlətlər tərəfindən KQS-nin *(Kütləvi Qırğın Silahları)* əldə edilməsinə də ABŞ yol verməyəcək, belə cəhdlərə və onları reallaşdıran siyasi rejimlərə son qoyacaqdır. Dünya KİV *(Kütləvi İnformasiya Vasitələri)* tərəfindən bu bəyanat **"Buş doktrinası"** olaraq dəyərləndirildi. Bu, mahiyyət etibarilə ABŞ-ın terrorizm yuvası hesab edəcəyi dövlətlərə qarşı birtərəfli qaydada güc tətbiqinə haqq qazandıran, bunun üçün hüquqi baza yarada biləcək bir sənəd idi (106). Bu sənəd şahmat lövhəsi üzərində oynanılan oyun kimi, gələcəkdəki müəyyən yeni strategiyaları və həmlələri özündə ehtiva edirdi. Bu baxımdan məşhur dövlət xadimi, bir vaxtlar Böyük Britaniyanın Hindistandakı qubernatoru olmuş, eyni zamanda Xarici İşlər naziri kimi məsul vəzifələrdə çalışmış Lord Kerzonun (Lord Curzon) 1898-ci ildə

dediyi sözlər olduqca düşündürücüdür: *"...Etiraf etmək lazımdırsa, qənaətimcə, ölkələr dünya hakimiyyətinə yönəlik böyük bir oyunun oynanıldığı şahmat lövhəsi üzərindəki piyadalardan başqa bir şey deyildir..."* (72, s. 117).

Lord Kerzonun hələ o dövrdə dediyi sözlər günümüzdə də öz aktuallığını qoruyur. 11 sentyabrdan etibarən ABŞ Prezidenti Corc Buşa dəstək vermək üçün alovlu çıxışlar edən İngiltərənin keçmiş Baş naziri Toni Bleyr öz ölkəsinin həqiqi niyyətini dilə gətirərək qeyd edirdi ki, bizim yalnız bir yolumuz var: **ya məğlub etmək, ya da məğlub olmaq!** (72, s. 123).

Ümumiyyətlə, silah ticarətini təşkilatlandıran ilk millət olan ingilislər üçün ticarət taleyin qaçılmaz bir oyunu olaraq qəbul edilir. Corc Buş terrorizm yuvası olaraq gördüyü ölkələri "şər mehvərlər" adlandırarkən, Bleyr hökuməti İran, Livan, İsrail və Suriya da daxil olmaqla 25 ölkəyə kimyəvi silah satdığını təsdiqləyirdi (72, s. 154).

Avstraliyalı tədqiqatçı Con Pilqer (John Pilger) *"Dünyanın yeni sahibləri"* adlı kitabında yazır ki, dünyanın super silah mağazası olan Amerikada da silah satışları əslində iqtisadi partlayışın fitilidir. Amerikan "hərbi-sənaye" kompleksi silah və hərbi müqavilələr əsasında öz qüdrətini saxlayır. ABŞ-dakı hər bir dolların 40 senti Pentaqonun büdcəsinə daxil olur. Müharibələr bir baxımdan iqtisadi inkişafın da açarıdır. Körfəz müharibəsinin ardından amerikan silah sənayesinin satışları 64% artdı. Yuqoslaviyaya yönəlik bombardmanın ardından 17 milyard dollarlıq bir satış artımı nəzərə çarpdı. 11 sentyabr hadisələrindən sonra isə silah satışında tam bir partlama oldu. Hücumların ardından açılan birjada "Raytheon", "Alliant Tech Systems", "Northrop Gruman" və "Lockheed Martin" kimi hərbi sənaye quruluşları və şirkətlərinin hissələri dəyər qazandı. Amerikan ordusunun ən böyük tədarükçülərindən olan "Lockheed Martin"in hissə sənədlərinin dəyəri 30% artdı. Şirkətin başlıca istehsal mərkəzi Prezident Buşun məmləkəti Texasdadır.

Corc Buş hələ Texas qubernatoru ikən əyalətin alt struktur xidmətlərini "Lockheed Martin"lə əməkdaşlıq edən şirkətlərə vermək üçün çox cəhdlər göstərmişdi. Şirkət 1999-cu ildə 25 milyard dollarlıq satışıyla rekord əldə etmişdi. Onun 12 milyard dolları Pentaqonun tenderlərindən gəlirdi. Dünya Ticarət Mərkəzi və Pentaqona yönəlik hücumlardan altı həftə sonra şirkət öz tarixindəki ən böyük tenderi qazandı (72, s. 154).

Bu bir həqiqətdir ki, Sovetlər İttifaqının parçalanmasından sonra ABŞ özünü yeganə super güc olaraq görmüş və dünyanı idarə etmək hüququnun sadəcə ona aid olduğunu hiss etdirməyə başlamışdı. Dünyanı idarə etmək işi tamamilə amerikan maraqlarına uyğun olaraq formalaşmalı və bütün dünya ölkələrinin ABŞ-a xidmət etməsinə şərait yaradılmalıydı. Bəzi siyasi ekspert, politoloq və strateqlər "Amerikan Röyası"nın artıq gerçəkləşmək üzrə olduğu barədə həmfikirdirlər. Onların düşüncəsinə görə, bu röyanın gerçəkləşməsi üçün əvvəla Ameika Birləşmiş Ştatlarının müharibə başlatması lazım gəlirdi. Müharibənin başlanması üçün də səbəblər və bəhanələr ortaya atılmalıydı və atıldı ki, bu da "beynəlxalq terrorizmə qarşı mübarizə"dir. 11 sentyabr 2001-ci il tarixində ABŞ-da baş verən qanlı cinayət dünyanın siyasi xəritəsində önəmli hadisələrin baş verəcəyinin xəbərçisi idi.

Amerikanın məşhur tədqiqatçılarından Uilyam Blum (William Blum) bu barədə yazır: *"...Hücumdan sonra hər gün Milli Təhlükəsizlik Dövləti (ABŞ) üçün bir bayram oldu. Arzu olunan nə vardısa artıqlaması ilə yerinə yetirildi. Qısa müddətdə hərbi büdcələrini artırdılar, nüvə silahları və raket müdafiəsi proqramına yenidən həyat qazandırmaq üçün hücumu bəhanə etdilər. Zəngin böyük şirkətlər üçün yüksək vergi endirimlərinə başladılar, ən önəmli silah nəzarət müqavilələrindən birini təktərəfli ləğv etdilər. İraq, İran, Somali, Şimali Koreya və digər bölgələrə yönəlik "terrorizmə qarşı xaçlı səfəri" bayrağı altında amerikan imperiyasının uzandığı arenanı daha da genişləndirə biləcək planlarını*

*elan etdilər..."* (30, s. 10).

Dünya Ticarət Mərkəzi və Pentaqona təşkil edilən hücumdan sonra Əfqanıstan və İraqın 11 sentyabr hadisələrində dolayı əlaqələri olduğu iddia edilməyə başlandı. Uilyam Blum yazır ki, Nyu-York, Vaşinqton və Pensilvaniyadakı qanlı faciələrdən sonra ABŞ 3 min günahsız və müdafiəsiz qurbanının intiqamını Əfqanıstana yüz gün boyunca gecə-gündüz bomba yağdıraraq, 4 mindən çox günahsız və müdafiəsiz sivili öldürərək aldı. Ancaq ABŞ hökuməti dünyaya Əfqanıstanda öldürülənlərin Birləşmiş Ştatlara qarşı terrorist fəaliyyətlərdə iştirak etdiklərinə dair heç bir dəlil göstərə bilmədi (30, s. 12).

Əldə edilən məlumatlara görə, amerikan B-52 qırıcı təyyarələri xəritədə belə görünməyən əfqan kəndlərini bombalamış və bir gecədə 300-dən çox insanı məhv etmişdir. 7 oktyabr – 10 dekabr 2001-ci il tarixləri arasında amerikan bombardmanında ölən sivillərin sayı 3.767-yə çatmışdı. Adi riyazi hesablamayla gündə 62 sivil həyatını itirmişdi və bütün bunlar illik milli gəliri 83 milyon dollar – hardasa B-52-nin maliyyətinin onda biri – olan bir ölkədə gerçəkləşmişdi (72, s. 12).

Con Pilqer qeyd edir ki, dünya tarixində heç bir kütləvi qırğın silahının öldürə bilmədiyi qədər insanın son on illik zaman müddətində İraqda ölmüş olması nə Corc Buşun, nə də ondan sonra gələnlərin gözündə günah və cinayət hesab olunmayacaq. Çünki təsir-reaksiya qanununa görə, həyati fərqlilik qətliam ilə *"əgər cinayəti biz törətsək, o cinayət deyildir"* şəklindəki məkrli təbliğatın arasındakı məsafədə gizlənir. Bu və ya digər kütləvi cinayətlər onların nəzərində cinayət kateqoriyasına daxil edilmir (72, s. 15-16).

Hadisələrin gedişatı göstərir ki, terrorizmə qarşı mübarizə əsl həqiqətdə öz axarından çıxaraq yeni hədəflər axtarışına yönəlmişdir. Amerikalı jurnalist Ceneviv Kora Freyzer *"Parçala və hökm et"in yeni hədəfi İran və Türkiyədirmi?"* adlı məqaləsində yazırdı ki, Yaxın Şərqdə yeni siyasi hədəflər meydana çıxıb və bu siyasi

hədəflər yalnız ərəb ölkələri ilə məhdudlaşmayacaq. Corc Buş günlərin birində İraqdakı əsgərlərini İrana apararaq, Yaxın Şərqdəki hərbi ağırlıq mərkəzini bu ölkəyə köçürəcək. Buş bununla bağlı planı artıq həyata keçirməyə başlayıb (4).

Düzdür, hal-hazırda Corc Buş iqtidarda olmasa da, onun planlarının günümüzdə ABŞ tərəfindən reallaşmayacağını proqnozlaşdırmaq da olduqca məntiqsiz görünür. Çünki Corc Buşun planlarını məhz onun şəxsi planları şəklində dəyərləndirmək doğru deyildir. Bu plan ABŞ-ın sabit strateji siyasət xəttidir. Bəzi tədqiqatçılar bu sabit strateji siyasət xəttini sadəcə ölkənin milli maraqları ilə deyil, dövlət administrasiyasında çalışan müəyyən nüfuzlu siyasətçilərin şəxsi ambisiyaları ilə də əlaqələndirirlər. Məşhur türk tədqiqatçısı Erol Bilbilik qeyd edir ki, Buş və Dik Çeney ikilisi iri silah monopoliyaları ilə birlikdə neft monopoliyalarını da dəstəkləyirlər. Hətta Buş və onun köməkçisi Çeney böyük neft şirkəti sahibidirlər və digər nəhəng neft şirkətləriylə bilavasitə əlaqə içərisindədirlər. Dik Çeney eyni zamanda "Lockheed Martin" şirkətinin layihə tenderini qazanan beynəlxalq "TRW" şirkətinin keçmiş idarə heyətinin üzvü olmuşdur. Onun həyat yoldaşı Layn V.Çeney (Lyne V.Cheney) isə "Lockheed Martin" şirkətinin keçmiş idarə heyətinin üzvü idi. "Lockheed Martin" və "TRW" şirkətinin üst səviyyəli kadrları Buş-Çeney ikilisinin qurduğu "Şahinlər Qanadı"nın öndə gələn üzvlərindən təşkil edilmişdi (29, s. 89-90).

Başda ABŞ olmaqla, Qərbin yeni hədəflər axtarışına çıxdığı artıq sirr deyil. Bu axtarışlarla bağlı olaraq çox vacib bir məsələni də qeyd etməyi məqsədəuyğun sayırıq. Əldə edilən məlumatlara görə, 2006-cı il sentyabrın 15-də NATO-nun İtaliyanın paytaxtı Romadakı Hərbi Kollecində quruma üzv ölkələrin hərbçilərinin iştirakı ilə keçirilən seminarda dünyadakı müasir siyasi və hərbi durum, eyni zamanda baş verə biləcək hər hansı gözlənilməz hadisələrə münasibətdə NATO-nun ata biləcəyi addımlar müzakirə edilmiş, Yaxın Şərqin və Asiyadakı bəzi ölkələrin parçalanması və

oradakı müəyyən müstəqil dövlətlərin yaranacağını əks etdirən xəritə nümayiş etdirilmişdir. Xəritədə İran, İraq, Suriya və Türkiyə ərazilərində yaradılacaq Kürdüstan dövlətinin sərhədləri müəyyən olunmuşdur. Heç təsadüfi deyildir ki, 25 sentyabr 2017-ci ildə İraqda Şimali İraq Regional Administrasiyasının "Kürdüstanın müstəqilliyi referendumu" keçirildi (bu barədə geniş məlumat üçün bax: 108; 109). Strateji baxımdan təhlil edilərsə, Şimali İraqda keçirilən referendum regionda mövcud olan böhranları daha da mürəkkəbləşdirən və təhlükə potensialını artıra biləcək bir vəziyyət idi. Şübhəsiz ki, bu kimi məsələlər gələcəyə hesablanmış strategiyaların və planların bir parçası olaraq dəyərləndirilməlidir. Əvvəla, bölgədə ABŞ-ın, bəzi Avropa dövlətlərinin, xüsusilə də İngiltərənin, eyni zamanda İsrailin çox ciddi planları var. Yəni keçirilən referendum bu ciddi planlarda, meqageopolitik layihələrdə sadəcə bir mərhələdir. Bu plan Yaxın Şərqdə yeni bir dövlətin yaradılmasıdır. Şərti olaraq buna **"ikinci İsrail"** də deyilir. Bu, çox ciddi, uzun müddətdir həyata keçirilməsi üçün hədəflənən layihədir. Hal-hazırda isə onun reallaşdırılması mərhələsidir. Onsuz da həssas, böhranlarla dolu olan bir regionda yeni dövlətin yaradılmasının özü çox böyük təhlükə potensialı daşıyır. "Kürd kartı"nın arxasında əvvəlcə SSRİ dayanırdı. SSRİ dağılandan sonra bu kart ABŞ-ın və İsrailin əlinə keçdi. Əslində İngiltərə də burada var, sadəcə olaraq arxa plandadır.

Gələcək plana görə isə coğrafi olaraq Kürdüstan adlandırılan bölgə Türkiyənin, İranın, Suriya və İraqın bir sıra ərazilərini əhatə edir. Region dövlətləri arasında strateji fikir birliyi və ortaqlıq yaranmasa, hər bir dövlət öz oyununu oynamaq istəyəcək. Belə bir vəziyyətdə isə Böyük Güclər bundan istifadə edəcəklər. Böyük Güclərin planının qarşısını fərdi strateji gedişlərlə almaq mümkün deyil. Şübhəsiz ki, ABŞ, İngiltərə, digər Avropa dövlətləri və İsrail yüz illik planlarından vaz keçəsi deyillər. Bu ba-

xımdan region dövlətləri anlamalıdır ki, bu, uzunmüddətli mübarizədir. Uzunmüddətli mübarizə də kifayət qədər strateji güc tələb edir.

Yuxarıda bəhs olunan NATO üzvlərinin iştirakı ilə 2006-cı ildə Romada təşkil olunmuş Hərbi Kollecdə keçirilən seminarda müzakirə olunan məsələlərə bir daha müraciət edək. Həmin seminarda nümayiş olunan xəritədə sadəcə yeni yaradılacaq Kürdüstan dövləti deyil, eyni zamanda qurulması nəzərdə tutulan digər dövlətlərin də adı vardır. Burada olduqca strateji bir məkanda yer alan, Əfqanıstan və Pakistan əraziləri hesabına yaradılacaq yeni Belucistan dövlətinin sərhədləri də öz əksini tapmışdır (məsələ ilə bağlı ətraflı məlumat üçün bax: 85).

Onu da qeyd edək ki, Pakistanın sərhədləri daxilində olan Belucistan təbii qaz, daş kömür, qızıl və mis ilə olduqca zəngindir. Pakistanın cənub-qərbində yerləşən Belucistan ərazisi ilə İrandan Hindistana qaz və neft kəmərlərinin çəkilməsi nəzərdə tutulub. Bundan əlavə, Belucistan narkotik maddələrin tranzitində "qızıl yollar" əyaləti kimi də məşhurdur. Bu əyalətin ərazisindən istifadə edən narkotik maddə tacirləri Əfqanıstandan, İrandan və digər bölgələrdən öz məhsullarını Avropa, Asiya və Amerikaya göndərirlər. Amerikanın Belucistana verdiyi xüsusi əhəmiyyət yalnız onun neft, qaz, dəmir, daş kömür, qızıl və mislə zəngin olması, yeni çəkiləcək neft-qaz kəmərlərinin mərkəzində yerləşməsi deyil, həm də buranın narkotik maddələrin daşınması üçün əvəzsiz strateji bölgə olması ilə də bağlıdır.

Şərqin təbii zənginliklərinin istismarına imkan verəcək yeni işğal planının arxasında bəzi mühüm məqamlar vardır. Ərəb baharı, Afrikadan Mərkəzi Asiyaya qədər əməliyyatların əsasında "fəlakət kapitalizmi", yəni beynəlxalq terrorizmlə mübarizə adı altında qlobal sərmayəyə yeni pul kanallarının açılması dayanır. Xüsusilə müsəlman ölkələrində oyuncaq dövlətlər qurulmaqda, ölkələr terror bataqlığına çevrilməkdədir. Məşhur "11 sentyabr 2001-ci

il" hadisələrindən etibarən Yaxın Şərqdə eyni ssenari oynanmaqdadır. Müharibələr, ölkələrin daxili işlərinə müdaxilələr, rejimlərin dəyişdirilməsi, terror qruplarının yaradılması, onlara silah və maliyyə dəstəyinin verilməsi, sivillərin öldürülməsi, köçlər, təbliğatlar və ajitasiyalar, qeyri-qanuni sərmayələr, işgəncələr və qanunsuz həbslər bu ssenarinin bir parçasıdır. Digər bir ifadə ilə, "Böyük Orta Şərq layihəsi" çərçivəsində 1916-cı ildə Sykes-Picot **(Sayks-Pikot)** anlaşması ilə yaradılan süni dövlətlərə əsaslanan Orta Şərq xəritəsi yenidən cızılmaqdadır. Demokratiya adı altında müharibəyə səhnə olan İraq bölünməkdə, Əfqanıstanın gələcəyi qaranlıq, Şimali Afrika ölkələrinin vəziyyəti qarışıq, Suriya daxili müharibələrlə parçalanmaqdadır. Yaradılan terrorist qruplar – İŞİD *(İraq-Şam İslam Dövləti)*, Əl-Nusra, PKK, Boko Haram kimi çox sayda təşkilatlar Böyük Güclərin maraqlarına xidmət edir. Bu terror təşkilatları sayəsində ABŞ və müttəfiqləri başda neft ölkələri olmaqla zəngin təbii sərvətlərə sahib olan dövlətlərdəki rejimləri dəyişdirmək istəməkdə, xüsusi təyinatlı dəstələri ilə terroristlərə hərbi təlim keçməkdədirlər. Qısacası, ABŞ və müttəfiqləri terrorla mübarizə yerinə, terror sayəsində xarici siyasətlərini həyata keçirir, müxtəlif terror təşkilatları yaradaraq onlardan faydalanırlar. Heç şübhə yoxdur ki, gələcəkdə məqamı yetişdiyində fərqli adlar altında yeni terror təşkilatları da ortaya çıxacaqdır. Bütün bunların ortaq məxrəcində isə ABŞ-ın və onun müttəfiqlərinin məqsədlərinə xidmət edən xaos şəraiti, ələ keçiriləcək neft bölgələri və geosiyasi maraqlar dayanır.

Son dövrlərdə Yaxın Şərqdə, xüsusilə də Suriyada baş verən hadisələr Böyük Güclərin əsl plan və niyyətlərini üzə çıxardı. Kimyəvi silahlardan istifadə edilməsi məsələsi bəhanə edilərək Suriyaya müdaxilələr edildi. Məsələnin mahiyyətinə varmaq üçün əlbəttə ki, hadisələrin dərinliyində gizlənən pərdəarxası məqamların ciddi şəkildə araşdırılıb təhlil edilməsi lazım gəlir. Burada diqqəti çəkən əsas cəhət isə enerji amilidir.

Enerji qaynaqlarına duyulan ehtiyacın artması neft amilini strateji bir vasitə, Yaxın Şərqi də bu strateji vasitənin geoiqtisadi hövzəsi olaraq geosiyasi rəqabət meydanına çevirmişdir. Yaxın Şərqin dünya neft ehtiyatlarının önəmli bir hissəsinə sahib olması bölgənin strateji restrukturizasiyasına, eyni zamanda böyük və regional güclərin bu restrukturizasiya içərisində tutduqları mövqeyə və manevrlərinə olduqca təsir etmiş və etməyə davam edəcəkdir (42, s. 333).

Bu bir həqiqətdir ki, XXI əsrdə bütün dünya dövlətləri neftin əhəmiyyətini dərindən idrak edirlər. Keçmişdə olduğu kimi, günümüzdə də Böyük Güclər hər şeylərini ortaya qoyaraq bu yağlı maddənin mütləq hakimi olmaq niyyətindədirlər. Məlum olduğu kimi, neft dünyanın ən güclü təbii qaynağı və dünyanı idarə edən əsas qüdrəti olmuşdur. Bu gün də vəziyyət eyni şəkildə davam edir. Neft neçə-neçə dövlətləri oyuncağa və alətə çevirmiş, böyük, kiçik bir çox yeni yaranan dövlətlərə azadlıq verdiyi kimi, qocaman imperiyaları və dövlətləri də tarix səhnəsindən silmişdir. Bu maye üçün insan deyilən varlığın zərrə qədər də olsun dəyəri yoxdur. Məşhur siyasətçi Uinston Çörçilin 1936-cı ildə İcmalar Palatasında neftin əhəmiyyəti barədə dediyi sözlər olduqca düşündürücüdür: *"Bir damla neft bir damla qandan daha qiymətlidir"* (54, s. 13-14).

Bir damla insan qanının bir damla neft qarşısında bu qədər dəyərsiz olduğu bir dünyada minlərlə, hətta milyonlarla insanın bu və ya digər səbəblərdən öldürülməsi, kütləvi surətdə məhv edilməsi Böyük Güclərin nəzərində necə bir məna ifadə edə bilər? Bu baxımdan Yaxın Şərq bölgəsinin Böyük Güclərin geosiyasi maraqlarında necə önəmli bir yerə sahib olduğunu anlamaq o qədər də çətin deyil.

Super Güc olmağın yolu enerji mənbələrinə nəzarət etməkdən keçir. Enerji qaynaqlarına nəzarət edən güc də öz növbəsində Yaxın Şərq, Asiya və Afrikanın da sahibi olur ki, bu da dolayısı ilə

Avropanın idarə edilməsi hüququnu öz inhisarında tutmaq deməkdir. Məhz belə bir güc Afro-Avrasiya geosiyasətini reallaşdıra bilər. Və məhz belə bir güc qlobal hegemonluq mübarizəsində qalib çıxa və təkqütblü hakimiyyət qura bilər.

Bu baxımdan Suriya müharibəsi sadəcə Suriya ilə məhdud qalan bir qarşıdurma olaraq dəyərləndirilməməlidir. Bəsrə körfəzi sahil ölkələrindəki enerji yataqları, Şərqi Aralıq dənizindəki böyük karbohidrogen ehtiyatları və bunların dünya bazarlarına nəqli, "Böyük Yaxın Şərq layihəsi" və ya "Genişləndirilmiş Yaxın Şərq layihəsi", bu bölgələrdən dünya hakimiyyəti strategiyasında yararlanmaq üçün işğal cəhdləri, Rusiyanın amerikan mühasirəsini Yaxın Şərqdə yarmaq niyyəti və s. kimi məsələlər nəzərə alınarsa, qan gölünə çevrilən Suriyanın geosiyasi maraqların toqquşduğu arena olduğu açıqca ortaya çıxar (bu barədə ətraflı məlumat üçün bax: 110; 111).

Problemin mahiyyətinin daha dərindən anlaşıla bilməsi baxımından çoxsaylı suallar yaranır: Suriyadan kimlər nə istəyir? Və ya qocaman bir dünyada özünəməxsus yer tutan Suriya kimi nisbətən balaca bir ölkə nəyə görə Böyük Güclər arasındakı maraqların toqquşduğu arenaya çevrilib?

Cavab aydındır: Suriya amerikan imperializminin "Genişləndirilmiş Yaxın Şərq layihəsi"nin başlıca tərkib hissəsi olmasaydı və ya planın mərkəzində yer almasaydı, İsrail kimi bir dövlətlə qonşu olmasaydı, Bəsrə körfəzindən Avropa və dünya bazarlarına enerji nəqli üçün boru xətti rəqabəti olmasaydı, İranın "şiə hilalı" anlayışından yola çıxaraq Şərqi Aralıq dənizinə enmə strategiyası olmasaydı, Türkiyənin Yaxın Şərq üzərində təsir planları və haqlı olaraq pay tələbləri olmasaydı, ən önəmlisi isə Şərqi Aralıq dənizində trilyonlarla dollar dəyərində böyük karbohidrogen ehtiyatları, neft-qaz yataqları kəşf edilməsəydi, Böyük Güclər arasındakı geosiyasi toqquşma bu bölgədə baş verməzdi.

Bu müharibədən məğlub çıxmaq amerikan imperializmi baxı-

mından Yeni Dünya Nizamının çökməsi, rus imperializmi baxımından beynəlxalq enerji bazarından məğlub çıxmaq və bölüşdürülən paydan uzaqlaşdırılmaq, Avropa ölkələri baxımından təbii ehtiyatlara möhtac olmaq və nüfuzunu itirmək, İran baxımından alternativ enerji bazarlarından təcrid edilmək, Türkiyə baxımından pay tələblərindən, enerji təminatında paylayıcı mövqedən məhrum edilmək, eyni zamanda bölgədə zəif vəziyyətə düşmək, hətta parçalanmaq təhlükəsi anlamına gəlir. Bu baxımdan Suriya və ümumi mənada Yaxın Şərq "qurdlar süfrəsi"dir. Bu süfrədə hər bir hegemon və regional dövlət öz gücünə görə yer almaq istəyir. Digər bir ifadə ilə, bu süfrə qlobal və regional olmaqla geosiyasi bir süfrədir. Vaxtilə yetişdirilib təlimatlandırılaraq siyasi arenaya çıxarılan müəyyən qruplar, xüsusilə də "Böyük Güclərin məkrli planlarının icraçıları" kimi xarakterizə oluna biləcək terrorist qruplar üzərindən aparılan bu müharibədə indi əsas aktorlar ortaya çıxmışdır. Şərqi Aralıq dənizinə hakimiyyət hal-hazırda Suriyaya hakim olmaqdan keçir. Bu baxımdan Suriyada baş verən hadisələr və müharibə kənar güclərin müdaxiləsi ilə bir-birinə təsir edən qlobal və regional mahiyyətli qarşıdurmadır.

Yeni Dünya Nizamı, "Genişləndirilmiş Yaxın Şərq layihəsi" əslində ABŞ-ın Avrasiya, daha dəqiq bir ifadə ilə, Afro-Avrasiya geosiyasətinin bir parçasıdır. Bu geosiyasətin reallaşa bilməsi üçün bəzi bölgələrin və ölkələrin də nəzarət altına alınması zəruri hesab olunur ki, Yaxın Şərq bunların başında gəlir. Başqa sözlə desək, Yaxın Şərq Avrasiyanın qəlbidir. "Genişləndirilmiş Yaxın Şərq layihəsi" əslində bizim bildiyimiz Yaxın Şərqin sərhədlərini aşır, Afrikadan, onun Aralıq dənizinə sahildaş ölkələrindən Türkiyəyə, İrana, Əfqanıstana, Pakistana qədər uzanan əraziləri əhatə edir. Bu strategiya əslində Rusiya və Çini çənbərə almaq, bu dövlətləri sıxışdırmaq siyasətini güdür.

XXI əsrdə beynəlxalq siyasətdə hakim olan anlayışlardan biri budur ki, bütün dünyaya hökm etmənin yolu Avrasiyaya hakim ol-

maqdan keçir. Günümüzdə "yeganə super güc" mövqeyində olduğu üçün Avrasiya geosiyasətini detallandıran, buna görə strategiya müəyyənləşdirən və addımlar atan tək ölkə ABŞ-dır. ABŞ ekspansionizminin dünya hakimiyyəti üçün müəyyənləşdirdiyi və inkişaf etdirdiyi geosiyasət *(dünya iqtisadiyyatı üzərində hakimiyyət, xammal, neft və qaz kimi enerji qaynaqları üzərində nəzarət, maraqların rol oynadığı hər ölkə və bölgədə hərbi varlıq və buna əsaslanan siyasi təsir)* təkqütblü hakimiyyəti hədəfləyir. Amerikan ekspansiyasının dünya hakimiyyəti üçün Avrasiyaya yönəldiyini görən digər aparıcı güclər bu geosiyasi anlayışın reallaşmaması üçün mübarizə aparırlar. Digər bir ifadə ilə, Avrasiya geosiyasəti günümüzdə böyük güclər arasındakı ziddiyyət və qarşıdurmaların kəskinləşdiyini göstərir. Bu baxımdan baş verən hadisələri və qarışıqlıqları Avrasiyaya hakim olmaq üçün müəyyənləşdirilən strategiyaların tərkib hissəsi kimi xarakterizə etmək mümkündür. Lakin bir məsələni də gözdən qaçırmamaq lazımdır ki, Avrasiya, üzərində qlobal hakimiyyət mübarizəsinin aparıldığı bir şahmat lövhəsidir. Bu lövhədə kimin **"mat"** olacağını isə əlahəzrət "Zaman" özü göstərəcək.

## TERRORİZMİN MAHİYYƏTİ VƏ İSLAMDA TERRORA BAXIŞ

Mədəniyyətlərlə bağlı millətlərarası nizam qlobal miqyasda baş verə biləcək müharibələr qarşısında ən böyük təminatdır. Sivilizasiyaların toqquşması isə beynəlxalq aləmdə sülhün önündə çox ciddi təhlükədir. Belə bir vəziyyətdə sivilizasiyalararası toqquşmanın qarşısını ala biləcək millətlərarası nizamın mövcud olub-olmaması sualı ortaya çıxır. Həqiqət budur ki, sivilizasiyalar arasında ziddiyyətlərin yaranması belə bir nizamın olmadığına dəlalət edir. Heç təsadüfi deyildir ki, "terror" və "terrorist" adlandırılan bəzi aksiyalar və qruplar məhz geosiyasi rəqabətlərin və onun təzahürü kimi ərsəyə gətirilən sivilizasiyaların toqquşması nəticəsində yaranmışdır. Əvvəlcədən qeyd edək ki, bütün terror aksiyalarını sivilizasiyalararası ziddiyyətlərin törəməsi kimi xarakterizə etmək doğru deyildir. Bu yanlış anlaşılmamalıdır. Amma hər halda bəzi aksiyalar və qruplar (məsələn, radikal dini təşkilatlar), beynəlxalq səviyyəli terror aktları yuxarıda da qeyd edildiyi kimi, məhz sivilizasiyaların toqquşması nəticəsində meydana gəlmişdir.

Məlum olduğu kimi, Amerika Birləşmiş Ştatlarında 11 sentyabr 2001-ci il tarixində meydana gələn terror hadisəsindən sonra terrorizm haqqında çox şeylər yazılmış və yazılmaqdadır. Samuel Hantinqton yazır ki, İslamı qlobal düşmən olaraq görən Qərb müsəlmanların gözündə "Allahsız"dır. Onlar tarixən xristianları qüsurlu, yanlış, ancaq bununla birlikdə, "əhli-kitab" olaraq dəyərləndirsələr də, "Soyuq müharibə"dən sonra sivilizasiyaların toqquşmasında öz düşmənlərini **"Allahsız Qərb"** kimi tanımaqdadırlar (51, s. 315). Müəllif digər bir yerdə də göstərir ki, Qərb üçün isə əsas təhlükə İslam fundamentalizmi deyil, bilavasitə İslamın özü-

dür (51, s. 322). İslam eyni zamanda həm nüvə silahlanmasının, həm də terrorizmin əsas mənbəyi kimi dəyərləndirilir (51, s. 318).

Əldə edilən nəticələrə görə, terrorizmin dünyaya yayılmasında məsuliyyət bilavasitə İslamın üzərinə yıxılır. Antiterror koalisiya liderləri beynəlxalq terrorizmlə mübarizənin guya qətiyyən İslama və müsəlmanlara qarşı aparılmadığını qeyd etsələr də (51, s. 308), günümüzdə baş verən hadisələr bunun əksini göstərir.

Əslində terrorizmin köklü tarixə sahib olan İslam mədəniyyəti ilə hər hansı bir əlaqəsi mümkün deyil. Qədim romalılardan etibarən müharibə siyasətin bir parçası hesab olunurdusa, günümüzdə terrorizm siyasi vasitə kimi istifadə edilir.

Terrorizm siyasi məqsədlərə çatmaq üçün planlı olaraq icra edilən zorakılıq aksiyasıdır. Bu məqsəd siyasi, sosial, iqtisadi, ideoloji, irqi, milli, dini və s. şəkildə ola bilər. Qeyd edək ki, terrorizmin mahiyyətini bütövlükdə özündə ehtiva edən universal bir tərif hələ ki, icad olunmamışdır. Terrorizm öz fəaliyyətlərini, istəklərini, davalarını, məqsəd və niyyətlərini normal yollarla təsdiq etdirə bilməyən qüvvələrin siyasi və hərbi gücə sahib olmaması və ya ola bilməməsi səbəbiylə ortaya çıxan bir anlayışdır (14, s. 34-45; 43, s. 3; 87, s. 24-36). Mənası "qorxu, dəhşət, vahimə" deməkdir.

Biriləri üçün terrorizm və terrorçu olan bu qavram başqa birilərinə görə, milli qurtuluş hərəkatı *(national liberation movement)* və azadlıq mübarizəsi *(freedom fighter)* mənasında işlədilir (18, s. 118). Buna misal olaraq, Yaxın Şərqdə amerikan və ingilis ordusu ilə mübarizə aparanlar "terrorçu" adlandırılmışdır. İşğalçı mövqeyindəki amerikalıları və ingilisləri öldürən "terrorçular" isə ərəb xalqının nəzərində azadlıq mübarizləridir. "Soyuq müharibə" illərində də ABŞ sosializm tərəfdarlarının hakim olduğu ölkələrdə rejimə qarşı baş qaldıran qruplara "azadlıq mübarizləri" adını verərkən, o ölkənin hakim siyasi elitaları və SSRİ tərəfindən bu qruplar "terrorçu" elan edilmişdi. Eyni zamanda FAT *(Fələstin Azadlıq Təşkilatı),* Həmas, Hizbullah, İslami Cihad Ordusu, İslami Hərəkat

Ordusunun İsrail və ona dəstək verən dövlətlər tərəfindən terrorçu təşkilat adlandırılmalarına baxmayaraq, müsəlmanların böyük əksəriyyətinin nəzərində bunlar milli azadlıq təşkilatları olaraq görülür. Bu müddəaları Şimali İrlandiyadakı İRO-ya *(İrlandiya Respublika Ordusu),* İspaniyadakı ETA-ya *(Euzkadi Ta Askatasuna – Bask Qurtuluş Təşkilatı),* çeçenlərə və ümumiyyətlə, dünyanın bir çox ölkəsində fəaliyyət göstərən müxtəlif qruplara da şamil etmək mümkündür. Demək ki, bu mənada "azadlıq mübarizləri" ilə "terrorçu" anlayışları bütünləşmişdir.

Terrorizm anlayışının tərif edildiyi ilk beynəlxalq müqavilə heç bir zaman qüvvəyə minməmiş olan 1937-ci il tarixli "The Convention for the Prevention and Punishment of Terrorism – Terrorizmin Qarşısının Alınmasına və Cəzalandırılmasına Dair Konvensiya"dır. Müqaviləni imzalayan dövlətlər isə Belçika, Bolqarıstan, Çexoslovakiya, Fransa, Yunanıstan, Hollandiya, Rumıniya, İspaniya, Türkiyə, Yuqoslaviya, Albaniya, Argentina, Dominikan Respublikası, Ekvador, Misir, Estoniya, Norveç, Peru və Venesuela olmuşlar (18, s. 125). Sözləşməyə görə terrorizm aşağıdakı kimi xarakterizə olunmuşdur:

a) Dövlət başçılarına, dövlət başçılarının səlahiyyətlərini yerinə yetirən rəsmi şəxslərə, onların xələflərinə və sələflərinə;

b) Yuxarıdakı şəxslərin həyat yoldaşlarına;

c) Öldürmək, ciddi fiziki yaralamaq və azadlığını əlindən almaq məqsədi ilə ictimai işlərlə vəzifələndirilmiş rəsmi şəxslərə, hədəfə çevrilmiş insanlara yönəldilən hər cür əməl və hərəkət (18, s. 125-126).

Ancaq bu sözləşmədə çatışmayan cəhətlər gözə çarpır. Əvvəla, terrorizmin xarakteri baxımından bu cür fəaliyyətlərin fərdi və ya sistematik olub-olmadığının təsirinə toxunulmamışdır. İkincisi, sadəcə rəsmi nümayəndələrə yönələn belə fəaliyyətlər terrorizm sferasına daxil edilmişdir, amma sivillərə yönəlmiş hərəkətlər üzərində dayanılmamışdır. Eyni zamanda törədilən aksiyaların əsl məqsədi

də müəyyən edilməmişdir. Məqsədin şəxsi və ya daha genişmiqyaslı siyasi, yaxud mədəni səpkidə olması terrorizmin tərifi baxımından əhəmiyyət kəsb etmir.

ABŞ Müdafiə Nazirliyi terrorizmi bu şəklidə izah edir: *"Terrorizm çox zaman siyasi və ya ideoloji məqsədlərlə hökumətləri və ictimaiyyəti qorxutmaq niyyəti ilə inqilabçı bir qrup tərəfindən şəxslərə və ya əmlaka qarşı törədilən qeyri-qanuni zorakılıq aksiyasıdır"* (18, s. 129).

ABŞ Xarici İşlər Nazirliyinin açıqlamasına görə isə terrorizm "əvvəlcədən planlanmış, siyasi cəhətdən motivləşdirilmiş submilli və ya gizli dövlət xəfiyyələri tərəfindən hərbi əməliyyatlarda iştirak etməyənlərə qarşı yönəlmiş zorakılıq aksiyası"dır (18, s. 130).

Ümumiyyətlə, terrorizm fenomeni bəşəriyyətin tarixində zorakılıq problemi ilə bağlıdır. Bu nöqteyi-nəzərdən qeyd etmək lazımdır ki, terrorizm çox zaman milli, dini, sosial və siyasi təzyiqlərdən qaynaqlanıb daha dəhşətli və amansız cavab reaksiyası şəklində təzahür edir. Dünyada cərəyan edən hadisələrə nəzər yetirilsə, bu aksiyaları törədən qruplara dəstək verən çox sayda böyük güclərin olduğu görülə bilər. Çünki terror təşkilatlarının məqsəd və niyyətləri bu terror qruplarının fəaliyyət göstərdiyi ölkələrin "dostu" olmayan ölkələr tərəfindən xoş qarşılanmaqdadır. Ölkələr terror barəsində "düşmənimin düşməni mənim dostumdur" fəlsəfəsini mənimsəməkdə və düşmən olaraq gördüyü ölkələrin içinə sızan terror təşkilatlarını "dost" olaraq qəbul etməkdədirlər. Buna görə də dünya miqyasında terror ilə mübarizədə əsaslı və köklü nailiyyət əldə edilməmişdir.

Beynəlxalq terrorizmin qarşısının alınmaması məsələsində ölkələr daim bir-birilərini "terroru dəstəkləyən ölkə" olaraq ittiham edir və müxtəlif sanksiyalar tətbiq etməyə çalışırlar. Xüsusilə demokratiya adı altında çıxış edən dünyanın ən qabaqcıl, inkişaf etmiş dövlətləri öz maraqları yolunda böyük maneəyə çevrilən terror təşkilatlarına alov püskürərkən, mənfəətləriylə çulğaşan terror

təşkilatlarına da hər baxımdan dəstək verirlər (69, s. 36). Terror fəaliyyətlərini həqiqətən də “terrorizm” olaraq qəbul etməyən ölkələr mövcud olduqca, bu aksiyaları gerçəkləşdirənlər üçün hər zaman sığınılacaq bir məkan olacaqdır. Bu vəziyyət eyni zamanda terrorçuların hüquqi təzyiq olmadan rahatlıqla öz fəaliyyətlərini artıraraq davam etdirmələrinə də şərait yaradacaqdır.

11 sentyabr 2001-ci il tarixdə Nyu-Yorkdakı “Əkiz Qüllələr”ə çarpılan təyyarələr bir baxımdan Amerika Birləşmiş Ştatlarına və onun hegemon olduğu beynəlxalq sistemə də zərbə vurdu. Terrorizm 11 sentyabr hadisələri ilə ortaya çıxmış yeni bir məfhum deyil. Bu məfhum 11 sentyabrdan hələ çox-çox əvvəl özünü açıq şəkildə göstərmiş şiddət metodudur. Təəssüflə qeyd edilməlidir ki, başda ABŞ olmaqla dünyanın bir çox ölkələri terrorun təhlükə olduğunu yalnız 11 sentyabr 2001-ci ildə “dərk” edə bildi. Bütün bunlar onu göstərir ki, minlərlə insanın canına qıyan PKK fəaliyyətlərinin, minlərlə türkün ölümünə səbəb olan erməni cinayətlərinin terror olduğunu, Azərbaycanın 20%-nin Ermənistan tərəfindən işğalını, bir milyondan çox azərbaycanlının didərgin vəziyyətinə düşməsini, bunların terror çərçivəsində həyata keçirildiyini anlaya bilmək üçün 11 sentyabrda təyyarələrin binalara start alaraq 3 mindən çox günahsız insanı öldürməsi lazım gəlirmiş. Məsələ burasındadır ki, bir əsrdən artıq ömrü olan erməni terrorizmi beynəlxalq səviyyədə qınanmamış, onlar tərəfindən törədilən cinayət hadisələri və Ermənistanın dövlət terrorizmi çərçivəsində Azərbaycana qarşı həyata keçirdiyi işğal siyasəti də günümüzdə öz real siyasi, hüquqi həllini tapmamışdır.

Bir məsələni də xüsusilə vurğulamağı lazım bilirik ki, 11 sentyabr hadisələri və törədilən terror aksiyası heç də təsadüfən baş verməmişdir. Təkrar da olsa, burada Franklin Delano Ruzveltin söyləmiş olduğu məşhur sözü bir daha xatırlatmaq yerinə düşərdi: *“...Siyasətdə heç bir şey təsadüfi deyil. Hər hansı bir hadisə vaqe olarsa, o hadisənin müəyyən formada zühur edəcəyinin əvvəlcədən*

*planlanmış olduğuna əmin ola bilərsiniz..."* (19, s. 13).

Məlum olduğu kimi, qanunlar fərqli mədəniyyətlərdə fərqli mahiyyətlərə sahibdirlər. Bu da bir həqiqətdir ki, hal-hazırda insanlığın tərifi Qərb mədəniyyətinə uyğun şəkildə verilir. Günümüzdə Hindistanın dünyanın hegemon gücü olduğunu təsəvvürümüzə gətirsək, müqəddəsləşdirilmiş inəklərin sərbəst şəkildə dolaşdığı bir ölkəni mükəmməl hesab etməliyik. Həqiqət budur ki, günümüzdəki əxlaq anlayışlarını və dəyərləri Qərb müəyyən etməkdə və bunu qlobalizm adıyla bütün dünyaya aşılamaqdadır. Qərb dövlətləri hər hansı bir terrorist haqqında açıqlama verərkən, onun törətdiyi terror aksiyalarının beynəlxalq qanunlara zidd olduğunu vurğulayırlar.

Bədəninə bomba bağlayan şəxslərin bəşəriyyətə yönəlik cinayətlər törətdikləri həqiqətdir. Amma ortaya belə bir sual çıxır: Bədəninə bomba bağlayanlarla təyyarələrdən atılan bombalar arasında nə kimi fərq vardır? Bunların hansı qanunauyğundur? Əslində inanılmaz dərəcədə böyük fərqlər vardır. Bədəninə bomba bağlayanlar öz hüquqlarını, milli-mənəvi azadlığını müdafiə etmək istədiklərini, amma istəklərinin qarşılığını ala bilmədikləri üçün çarəsiz qalaraq belə bir yola baş vurduqlarını düşünürlər. Təbii ki, özünü əqidəsi uğrunda qurban vermənin ciddi əsasları olmalıdır. Bu yolu tutanlar öz inanclarına əsasən qisasçı, əqidələri uğrunda şəhid olduqlarını fikirləşirlər. Digərləri isə bunu insanlıqdan uzaq hal kimi təqdim edirlər. Məsələnin bir yönünə də baxmaq lazımdır ki, İslam dini özünəqəsdi, yəni intiharı qəti şəkildə qadağan edir **(Nisa surəsi, ayə: 29)**.

Burada digər bir cəhəti də unutmaq olmaz ki, hansı dərəcədə yasaq olsa da, haqq və ədalət üçün "terror"a baş vurmaq bu aksiyanı törədənlər tərəfindən müsbət qarşılanır. Şübhəsiz ki, istər dini baxımdan, istərsə də insanlıq mövqeyindən məsələyə yanaşsaq, bu metod qanunauyğun deyil. Müəyyən məqsədlər daxilində təyyarələrdən atılan bombalar – ki, bütün bəşəri canlılara ziyan vurur – bu

isə tamamilə qəbuledilməzdir və eyni zamanda birinci metoddan daha təhlükəlidir.

Günümüzdə "din" dediyimiz zaman ağla sivilizasiyalararası qarşıdurmalardakı modelə uyğun bir tərif gəlir. Belə bir vəziyyətdə dinlər arasında əzəldən əbədiyyətə qədər davam edəcək bir münaqişəni qəbul etmiş oluruq. Hal-hazırda dünyada Qərb mentalitetinə əsaslanan "universal qanunlar" deyə bir model mövcuddur. Bu qanunları "universal qanunlar" olaraq deyil, "universallaşdırılmış qanunlar" şəklində xarakterizə etmək daha məqsədəuyğundur. Günümüzdə "sivilizasiyalararası, dinlərarası dialoq və sülh" çağırışları səslənir. Dünyada təxminən 2.5 milyard insan acınacaqlı bir vəziyyətdə cüzi bir gəlirlə yaşayarkən, hansı sülh və əmin-amanlıqdan söz edilə bilər? Qərbin anlayışına görə, "sülh" deyilən anlayış insanların məcburən Qərb mədəniyyətini və qanunlarını mənimsəməsidir. Belə bir vəziyyətdə **"terrorizmə istiqamət verən və yol göstərən İslamdır"** başlığı adı altında şüarların irəli sürülməsi sivilizasiyalararası dialoqu reallaşdıra bilməz. İtaliyanın sabiq Baş naziri Silvio Berluskoninin Şərq və İslam mədəniyyəti ilə bağlı dediyi sözlər olduqca düşündürücüdür: *"...Şərqi qərbiləşdirmək* **(oxu: mədəniləşdirmək – E.Ş.)** *və Şərq xalqlarını fəth etməyə davam etmək Qərbin alın yazısıdır. Qərb bunu kommunist dünyasında və İslam aləminin bir hissəsində etmişdir, 1400 ildir ki, heç bir irəliləyişə nail ola bilməyən İslam dünyasında da eyni şeyi edəcək. Mədəniyyətimizin üstünlüyündən və gücündən əmin olmalıyıq. Bizim mədəniyyətimizdə insan hüquqlarına və dinlərə hörmət var. Amma İslam ölkələrində bu hüquqlara və dinlərə olan hörmət aşağı səviyyədədir..."* (48, s. 39).

Əgər Berluskoninin qeyd etdiyi kimi, Qərb mədəniyyətində insan hüquqlarına və dinlərə hörmət varsa, İslam ölkələrində isə bunlara əks münasibət göstərilirsə, bəs o zaman bəzi xristian ölkələrində Hz. Məhəmmədə yönəlik karikatura böhranını, xristian dünyasının (katoliklərin) ali ruhani lideri Papa XVI Benediktin müqəddəs İslam peyğəmbərinə ünvanlanan təhqiramiz fikirlərini,

Avropanın bəzi ölkələrində camilərin dağıdılması barəsində qəbul edilən qərarları, hal-hazırda İslam ölkələrində baş verən hadisələri və törədilən cinayətləri hansı mədəniyyətin adına yazmaq lazımdır? Məgər onlar Qərb mədəniyyətinin daşıyıcıları deyillərmi?

Məşhur fransız yazıçısı Amin Malofun (Amin Maalouf) düşüncələri digərlərindən olduqca fərqlənir: *"...Əgər atalarım müsəlman orduları tərəfindən fəth edilən bir ölkədə xristian olmaq yerinə, xristianlar tərəfindən fəth edilən bir ölkədə müsəlman olsaydılar, öz inanclarını qoruyaraq 14 əsr kənd və şəhərlərdə yaşaya bilərdilərmi? Buna inanmağım gəlmir. Həqiqətən də, İspaniyadakı müsəlmanlara nə oldu? Bəs Siciliyadakı müsəlmanlar? Yox oldular, hamısı qətl edildi, sürgünə göndərildilər yaxud məcburən xristian oldular..."* (61, s. 50).

Bu bir həqiqətdir ki, günümüzdə terror hadisələri əsasən İslamın adına yazılmaqda və bu cinayətləri törədənlər "İslami terror təşkilatları" və ya "İslamçı terroristlər" adlandırılmaqdadır. "İslami və ya islamçı" məfhumları məqsədli şəkildə şiddəti mənimsəyən bəzi terrorist təşkilatlara şamil edilmişdir. Bu kimi ifadələrin işlədilməsi yolverilməzdir. Belə son dərəcə həssas məsələlərdə ifadələr dəqiq ölçülüb-biçilməlidir. Çünki məsələnin bu cür qoyuluşu bütün müsəlman dünyasını terrorizmlə ittiham etmək deməkdir. Bu vəziyyətdə belə bir mif yayılmaqdadır ki, guya İslam dini müharibə əhval-ruhiyyəsi aşılayır, öz daşıyıcılarından qeyri-müsəlmanlara qarşı amansız mübarizənin aparılmasını tələb edir. Bu yerdə ən çox müraciət edilən məsələ **"cihad"** termini ilə bağlıdır.

## "CİHAD" ANLAYIŞI VƏ TERRORUN İSLAMA ŞAMİL EDİLMƏSİ

Qərb dünyası cihadı "qeyri-müsəlmanlara qarşı müqəddəs müharibə", digər bir ifadəylə, "bütün dünya ölkələri müsəlmanlığı qəbul edincəyə və İslam hakimiyyətinə keçincəyə qədər əmr olunan müqəddəs müharibə" **(Holy War)** kimi yozmaqda davam edir. Halbuki İslamiyyətin bütün dünyanı müsəlmanlaşdırma kimi bir iddiası yoxdur. Qurani-Kərim açıq şəkildə *"bütün insanların (müsəlmanlar kimi) inanmayacaqlarını"* bildirir **(Yusif surəsi, ayə: 103-106)**.

Bütün bəşərin zorla hidayətə və imana daxil edilməsi mümkün deyil. Qurani-Kərimdə Hz. Məhəmmədə və onun şəxsində bütün müsəlmanlara belə səslənilir: *"Sən (sadəcə) öyüd-nəsihət ver və xatırlat. Sən yalnızca xatırladıcısan. Sən onlar üzərində zorla hökm edən deyilsən. Onlarla haqq-hesab çəkmək Bizə aiddir"* **(Ğaşiyə surəsi, ayə: 21, 22, 26; Rəd surəsi, ayə: 40)**.

İslam dini peyğəmbərlər də daxil, heç kimə insanlar üzərində təzyiq qurmaq və zorakılığa baş vurmaq səlahiyyətini vermir: *"Əgər Rəbbin istəsəydi, yer üzündə olanların hamısı iman gətirərdi. İnsanları iman gətirməyə sənmi məcbur edəcəksən?"* **(Yunis surəsi, ayə: 99).**

Göründüyü kimi, təməl prinsip budur: *Dində məcburiyyət (zorakılıq) yoxdur* **(Bəqərə surəsi, ayə: 256)**.

Dində məcburiyyət olmadığına görə, insanları zorla müsəlmanlaşdırmanın da heç bir mənası yoxdur. Əks təqdirdə, zora məruz qalan şəxs mömin yox, münafiq olar ki, bu da İslama tamamilə ziddir.

Təbii ki, islami hökmlərə yad olan yanlış düşüncələrin ortaya

atılması və bunların dünya ictimaiyyətinin şüuraltına yerləşdirilməsi Qərb strategiyasının məhsuludur. Məşhur türk ilahiyyatçı alimi Prof. Dr. Yaşar Nuri Öztürk Qərb strategiyasının əsasını çox haqlı olaraq belə izah edir: *"**Şiddətə yoluxdurmaq, sonra da şiddət və terrorla ittiham etmək!** Şiddəti dindarlıq zənn edənlər Qərbin oyununda bir vasitəyə çevrildilər. Bu oyunun da bir nəticə verməsi üçün "cihad nərələri" çəkən şiddət tərəfdarı qruplara şərait yaradıldı. Halbuki Qərbin strategiyasına təslim olan bu şiddət tərəfdarı qruplar öz inancları uğrunda "cihad" etsələr də, bu mübarizənin Qərbin mənafeyi ilə üst-üstə düşdüyünün fərqində deyillər"* (70, s. 120).

Bunun ən bariz nümunəsini İslam dini adından savaşan terroristlərdə görmək mümkündür. Öldürmək, baş kəsmək və terror aktlarına "cihad" kontekstindən yanaşaraq **"Allahu Əkbər"** nidaları altında öz niyyətlərini gerçəkləşdirmək din adından yola çıxan terroristlərin başlıca qayəsidir. İslamda haqsız yerə və əsassız şəkildə öldürmək əmri qətiyyən yoxdur. Bu, planlı şəkildə İslamı beynəlxalq arenada qaralamaq və ləkələmək kampaniyasına xidmət edən bir amildir.

**"Cihad"** hərfi mənasına görə, ***"ən yüksək səy, cəhd"*** deməkdir. İslam ideologiyasının təqdimatına görə, cihad **"İslamın müdafiəsi uğrunda mübarizə"** anlamını verir (14, s. 46). Üzərində durmaq istədiyimiz məsələ budur ki, **İslam və terror** = bu iki məfhumun beynəlxalq arenada bir-biriylə bağlılığı və sıx əlaqəsi iddiası heç gündəmdən düşmür. Halbuki terrorun hər hansı bir dinə və millətə mənsubluğu yoxdur. Həqiqət budur ki, islamçı, xristiançı, musəvi, brahmani və s. terror olmaz. Bu bənzətmələrin doğru olması üçün yuxarıda sadalanan dinlərdən hər hansı birinin və ya hamısının prinsipləri, əmrləri və teoloji əsasları baxımından terrora razılıq verməsi lazımdır. Əgər İslami terror varsa, o zaman son on illər ərzində meydana gələn bəzi hadisələr də bu məntiqlə dini terror adlandırılmalıdır. Məsələn, 19 aprel 1995-ci ildə Oklahomada-

kı Ticarət Mərkəzində terror hadisəsi baş vermişdi. Terrorçunun kimliyi müəyyənləşdirilməzdən əvvəl baş vermiş cinayətin səbəbini ABŞ-ın o dövrdəki Prezidenti Bill Klinton "islamçı terrorçular"la əlaqələndirmişdi. Halbuki cinayət amerikalı katolik Timoti Mak Vey (Timothy Mc Veigh) tərəfindən törədilmişdi. Ancaq açıqlamalarda əsla "xristian və ya katolik terrorçu" ifadəsi yer almamışdı. Bunun üzərinə Klinton bütün müsəlmanlardan və İslam dünyasından üzr istəmişdi (bu barədə ətraflı məlumat üçün bax: 47, s. 34; 48, s. 39; 62, s. 105; 79, s. 36-37).

Bundan başqa, İsrailin Fələstində ən müasir silahlarla sivil xalqı kütləvi şəkildə qətl etməsi də eyni məntiq içərisində dəyərləndirilməlidir. Baş verən bu cinayətlər Qərb mediasında yəhudi terroru olaraq səslənmir. Halbuki eyni məntiqə görə, bunlar da dini terrordur. Heç bir din əsla terrora razılıq vermir, əksinə, bütün dinlər terroru, şiddəti qadağan edir və lənətləyir. Çünki onların hamısı insanlara və canlı varlıqlara dəyər verir. Nəinki insan qanı tökmək, fiziki olaraq cana qəsd etmək, hətta bütün canlılara zərər vermək belə ümumilikdə bütün dinlərin qoymuş olduğu qanunlarda yoxdur və başlıca günahlardan biridir. Qurani-Kərimdə də buyurulduğu kimi, *"bir cana qıymaq bütün bəşəriyyəti qətl etməyə bərabərdir"* **(Maidə surəsi, ayə: 32)**.

Qeyd edildiyi kimi, şiddətə razılıq verən heç bir din yoxdur. Olmadığına görə də törədilən terror aktları terrorçu qrupların mənsub olduğu dinə deyil, qrupun özünə aid edilməlidir. İslam dini terrora qətiyyən razılıq vermir. Bu müqəddəs dində terror yox, **"cihad"** düşüncəsi vardır ki, bunlar da çox fərqli ifadələrdir. Əsl mahiyyət baxımından tərif etsək, cihad **"İslam yolunda könüllərin qazanılması, ürəklərin fəth edilməsi üçün aparılan mübarizə"**dir. Başqa bir ifadə ilə, cihad **"insan ilə İslam arasındakı maneələrin ortadan qaldırılması üçün sərf olunan əmək"**dir. Burada "insan, İslam və maneə" kəlmələri əslində mənanın izahına açar təşkil edən terminlərdir.

Qurani-Kərimdə buyurulur ki, insan məxluqatın bir çoxundan üstün olaraq yaradılmışdır **(İsra surəsi, ayə: 70)**. Əgər o, istəsə nəfsinin ona təlqin etdiyi pisliklərə və haqsızlıqlara qarşı mübarizə apararaq yaradılış qayəsini dərk edə bilər. Bu mübarizənin adı cihaddır. İslamda bu, ən böyük ruhi və mənəvi mübarizədir.

Cihad iki cürdür: **böyük cihad** və **kiçik cihad.** Burada üzərində durmaq istədiyimiz böyük cihaddır. Böyük cihad nəfslə mübarizədir. Bu çox önəmlidir. Çünki öz daxilində bəzi pisliklərlə mübarizə etməmiş, ruhi və əxlaqi yetkinləşmənin qarşısındakı maneələri ortadan qaldırmamış şəxslərdən digər insanları doğru yola dəvət etmələri gözlənilməz. Bu məna çərçivəsində cihad mənəvi paklaşma yolunda insanın öz daxilində apardığı mübarizə, nəfsinə hakim olması və onu tərbiyə etməsi deməkdir.

Açar mahiyyətindəki terminlərdən ikincisi olan İslam Allah tərəfindən Hz. Məhəmmədin vasitəsilə təbliğ edilən dindir. İslam Allaha təslimiyyət, sülh (silm) və xoşbəxtlik (səlamət) deməkdir. Bunlar bütün dinlərin ortaq xarakteristikasıdır. Müsəlman, yəni Allahın iradəsinə və əmrlərinə təslim olmuş insan öz daxili və xarici dünyasında sülhü (silmi) aşılayan və ictimai həyatın firavanlıq üzrə davam etməsinin mümkün yollarını göstərən şəxsdir. Allaha təslimiyyət "silm" içərisində yaşamağı özündə ehtiva edir. "Silm" Allahla, canlı təbiətlə, insanlarla və insanın öz varlığı ilə sülh içərisində yaşaması deməkdir. Maneələr isə daxili dünyanın ehtiraslarından din və vicdan azadlığına gətirilən məhdudiyyətlərə, siyasi təzyiq və sosial məhrumiyyətlərə qədər uzanan geniş sahələrə yayılır.

Hal-hazırda "cihad" deyildiyi zaman təsəvvürlərdə silaha sarılmaq və ya hərbi əməliyyatlara başlamaq kimi görüntülər canlanır. Buna ən tutarlı cavab olaraq Furqan surəsinin 52-ci ayəsində buyurulur ki, **insanlara (inanmayanlara) qarşı Quranla cihad et.**

Yəni ən böyük cihad insanlara Qurani-Kərimi anlatmaqdır. Bu müqəddəs kitaba görə, cihad "insan öldürmək deyil, əksinə,

insanları maarifləndirmək, sevgiylə ürəkləri və könülləri fəth etmək"dir.

Məlum olduğu kimi, ərəb dili hər hansı bir hadisəni müxtəlif kəlmələrlə ifadə edəcək zənginlikdədir. Məsələn, qıtal *(qətl)* bilavasitə sonu ölümlə nəticələnən, müharibə isə müxtəlif dövlətlər, xalqlar və ya millətlər arasında cərəyan edən öldürmə və münaqişə vəziyyətidir. Əgər cihad zənn edildiyi kimi, yalnız öldürmək və müharibə olsaydı, Qurani-Kərimdə və ərəbcədə qarşılığı olan **"qıtal"** və **"hərb"** kimi kəlmələrin istifadə olunmasına ehtiyac qalmazdı. Bu baxımdan "cihad"ın mahiyyətini dərk etmək lazımdır. Cihad öz-özlüyündən ortaya çıxmır, eyni zamanda qeyri-müsəlmanlara sırf müsəlman olmadığı üçün müharibə elan etməsi anlamına da gəlmir. Cihad "İslam yolunda silaha sarılaraq və ya hərbi əməliyyatlara başlayaraq deyil, könüllərin fəth edilməsi üçün aparılan mübarizə" olsa da, silahlı hücum və ya işğal qarşısında qanuni olaraq özünümüdafiə və əks tərəfə qarşılıq vermə hüququna da sahib olur. Heç təsadüfi deyildir ki, İslam hüquqşünaslarının böyük əksəriyyəti müharibənin əsas səbəbini müsəlman ölkələrinə qarşı edilən hücumlarda görürlər.

Demək ki, ortada bir səbəb var: *"Sizə savaş açanlarla Allah yolunda siz də savaşın, ancaq həddən kənara çıxmayın. Allah həddi aşanları sevməz"* **(Bəqərə surəsi, ayə: 190)**.

Qeyd olunduğu kimi, həmişə yaxşılığı və sülhü təlqin edən İslamda müharibə yalnız qarşı tərəf savaş elan edərsə, qanuni müdafiə üçün hüquqi əsasa malik olur: *"Onlara qarşı müharibə elan edilən möminlərə mübarizə aparmaq (savaşmaq) izni verildi. Çünki onlar zülmə uğramış, haqsızlığa məruz qalmışdılar..."* **(Həcc surəsi, ayə: 39)**.

Burada bir məsələyə də xüsusilə diqqət yetirmək lazımdır. Cihad əsassız şəkildə haqsızlığa məruz qalan və zülmə uğrayanları işğalçılarla müharibəyə təşviq etmir, sadəcə olaraq qanuni müdafiəyə icazə verir: *"Kim sizə hücum edərsə, siz də eyni şəkildə qarşı-*

*lıq verin. Lakin həddi aşmaqda Allahdan qorxun və bilin ki, Allah təqva sahibləri ilə bərabərdir"* **(Bəqərə surəsi, ayə: 194)**.

Dini hökmlərə görə, müharibə olsa belə müsəlmanların qadınları, qocaları, uşaqları, şikəstləri və s. insanları öldürmələri qadağandır. Əgər düşmən tərəf bu qaydalara riayət etməsə belə İslam hüququ "eyni şəkildə qarşılıq vermə" prinsipinə razılıq vermir (33, s. 30; 80, s. 177-178).

Kitabi-Dədə Qorqudda da *("Salur Qazanın evi yağmalandığı boyı bəyan edər" qismində)* müsəlman Oğuzların qeyri-müsəlmanlara qarşı rəftarında qeyd edilən prinsiplər öz əksini tapmışdır: *"...Qazan bəgün qartaşı kafərin tuğilə sancağı qılıcladı, yerə saldı. Dərələrdə, dəpələrdə kafərə qırğun girdi, leşinə quzğun üşdi. On iki bin kafər qılıcdan keçdi. Beş yüz Oğuz yigitləri şəhid oldı. Qaçanı Qazan bəg qomadı, aman deyəni öldürmədi..."* (9, s. 50).

İraqın işğalçı güclər tərəfindən işğalından sonra amerikalı və ingilis əsgərləri tərəfindən müsəlman kişilərin işgəncəyə, qadınların isə təcavüzə uğramasına dair çox sayda faktlar mövcuddur. Bu cür insanlıqdan uzaq hallar ermənilərin azərbaycanlı əsirlərə olan rəftarlarında da görülə bilər. Halbuki İslam qanunları qeyri-müsəlman olsa belə əsirlərə işgəncə və qadınlara təcavüz etməyi qəti şəkildə pisləmiş, bu əməli ağır cinayət olaraq qəbul etmişdir.

Dini, milli və əxlaqi baxımdan hər hansı bir millətin heysiyyətinə toxunmaq, şübhəsiz, qıcıqlandırmalara səbəb ola bilər ki, bu da qisasın meydana gəlməsinə şərait yaradır. Məlum olduğu kimi, din də mənəvi dəyərlər içərisindədir. Bu faktor bəşəriyyətin ümumi ideoloji inkişafında mühüm şərtlərdəndir və hakim mövqeyə malikdir. Din insanların əqli və ruhi strukturunu, sosial həyatın müxtəlif sferalarını ehtiva edir. Din, vicdan və iman azadlığı beynəlxalq hüququn ayrılmaz bir faktorudur. İnsanların etiqadına, onların müqəddəslik anlayışına qarşı yönələn hər hansı bir hörmətsizlik insan hüquqlarının, demokratiya qaydalarının ciddi şəkildə pozulmasıdır. Dini etiqadlara, müqəddəslərə hörmətsizlik və ədəb-

sizlik qıcıqlandırmaların digər bir yönüdür. Heç təsadüfi deyildir ki, son dövrlərdə İslam dininə, onun peyğəmbəri Hz. Məhəmmədə hörmətsizlik əlaməti olaraq ortaya atılan "karikatura böhranı" qıcıqlandırmaların ən bariz nümunələrindən biridir (99; 100). Əgər hal-hazırda dünyada sivilizasiyaların dialoqu çağırışları səslənirsə, bu qıcıqlandırma dialoq istiqamətində ciddi bir maneə kimi qarşıya çıxır. Dünya tarixində ən müqəddəs, ən böyük və ideal şəxsiyyətə qarşı təhqir mahiyyətli karikaturaların bəzi müsəlman olmayan ölkələrin mətbuatında təkrar-təkrar yer alması cinayət, eyni zamanda bütün dünya müsəlmanlarına və tarixə qarşı ciddi hörmətsizlikdir. Halbuki təhqir edilən bu müqəddəs insan dinlərə, fərqli dinlərin mənsublarına, onların ata-babalarına xoş münasibət göstərmiş, sırf insan olduqları üçün dinlərinə fərq qoymamışdır.

Hz. Məhəmməd bir gün yoldan yəhudi cənazəsi aparılarkən ayağa qalxır. Həmin əsnada peyğəmbərin yanında olan səhabə *"Ey Allahın rəsulu, axı o, bir yəhudidir"*, – deyir. Hz. Məhəmməd isə halını dəyişmədən yanındakı səhabəyə: *"Amma o, bir insandır!"*, – cavabını verir (35, s. 15-16).

Göründüyü kimi, Məhəmməd peyğəmbər Allahdan aldığı tərbiyə ilə "müsəlman, xristian və musəvi" ayrımı aparmadan demək olar ki, hər bir insana dəyər vermişdir. Nəinki İslam peyğəmbərinə, hətta digər dinlərin peyğəmbərlərinə və müqəddəs sayılanlarına bu cür hörmətsizlik müqəddəslərin müqəddəsliyinə bəşərin nəzdində xələl gətirə bilər. Belə bir vəziyyətdə İslam prinsiplərini və əxlaq dəyərlərini əsas götürərək edilən etirazlar qanunauyğun şəkildə yerinə yetirilməlidir. Məsələn, müsəlmanlar karikaturaları çəkən şəxslərin dinlərini nəzərə alaraq, onların mənsub olduqları dinə və müqəddəslərinə hörmətsizlik etməməlidirlər. İslam dini bütün peyğəmbərlərə hörmətlə yanaşmışdır. Hz. Süleymana, Hz. Yusifə, Hz. Davuda, Hz. Musaya, Hz. İsaya nalayiq bir söz işlətmək islami prinsiplərə yaddır. Pisliklər Allahın buyurduğu kimi dəf edilməlidir: *"Yaxşılıqla pislik eyni ola bilməz! Sən pisliyi yaxşılıqla dəf*

*et!...”* **(Fussilət surəsi, ayə: 34)**.

Söyməklə, təhqir etməklə, hətta bayraqları yandırmaqla qarşılıq vermək doğru hərəkət deyil. Unudulmamalıdır ki, bayraq bir milləti təmsil edir. Bu qıcıqlandırmalara səbəb olan müxtəlif qrupların məqsədyönlü hərəkətlərinə bir milləti təmsil edən bayrağı yandırmaqla qarşılıq vermək məntiqsiz addımdır. Ağılla ağılsızlığın təzadı anında müxtəlif tarixi fəsadlar reallaşır. Məsələyə fəlsəfi zəka prizmasından yanaşılsa, ekzistensiyanın (varlığın) şüuru obyektiv şəkildə müəyyənləşdirdiyini idrak etmək imkanı əldə oluna bilər.

Hadisələrə sadəcə mətbuat azadlığı çərçivəsində baxmaq doğru olmaz. Demokratiya sonsuz azadlıqlar demək deyil. Demokratiyanın, söz azadlığının da öz çərçivələri, öz hüdudları var. Böyük geosiyasi hədəfləri və planları olan iri dövlətlər Şərq-Qərb mədəniyyətlərinin inteqrasiyası, demokratiya və insan hüquqları adı altında İslam aləmini mənfi dəyişikliyə uğratmaq üçün müxtəlif tədbirlərə əl atmaqda qərarlıdırlar. Belə bir yanaşma sivilizasiyaların inteqrasiyası ilə deyil, qanlı toqquşması ilə nəticələnə bilər.

İslam dini və onun peyğəmbəri təhqir edilməklə dünya müsəlmanlarının nəbzinin yoxlanıldığı bir həqiqətdir. Getdikcə sərhədləri aşan və bütün müsəlmanların hiddətinə səbəb olan bu böhran qlobal bir məsələyə çevrildiyində beynəlxalq güclər mövcud vəziyyətdən istifadə edib, müxtəlif siyasətlərə baş vurdular. Bəzi hegemon Qərb dövlətləri hadisələri əvvəlcə sükut içərisində qarşıladılar, müsəlman ölkələri etiraz səslərini yüksəltdikdən sonra öz münasibətlərini ortaya qoydular və özlərini guya müsəlmanların mənəvi dəyərlərinə hörmətlə yanaşan bir dövlət və xalq olaraq göstərməyə çalışdılar. Bəziləri fərqli kimliyə bürünərək hadisəni qınama yolunu seçdilər. Bu baxımdan məsələnin mahiyyətini dərk etmək xüsusilə vacibdir. Hadisələrə ilk başda səssiz qalmaq, sonradan məsələyə münasibət göstərmək təbii ki, siyasi manevrlərdir və bütün bunlar dünya müsəlmanlarının nəbzini yoxlamaqdan başqa

bir şey deyil. Məsələyə fərqli bir prizmadan yanaşsaq görərik ki, hadisələrin tüğyan etdiyi mərhələlərdə müsəlmanlara qarşı edilən təhqiramiz hərəkətlərə böyük dövlətlərin elə bir ciddi reaksiyası olmamışdır. Bunun da müəyyən səbəbləri vardır:

Qərbin əsas qorxusu müsəlmanların sayının BMT-nin statistik məlumatlarında da göstərildiyi kimi, başqa dinlərin nümayəndələrinin sayını ötməsidir.

İkinci əsas qorxu isə onların qocalan ölkələrində qalan gənclərin, intellektual insanların da İslama üz tutmasıdır. Buna görə də onlar antisemitizmi antiislam, islamofobiya kimi ifadələrlə əvəzləyiblər. Avropada müsəlmanların sayının sürətlə artımı Qərb baxımından təhlükəli bir faktora çevrilib. Günümüzdə Qərbdə İslamı qəbul edən insanların adi deyil, ziyalı sayılan, intellektinə hörmət edilən insanlar olması "birilərini" çox qıcıqlandırır (12).

Qərbi qorxudan digər bir məsələ də onların övlad dünyaya gətirməkdənsə bu hisslərini müxtəlif heyvanlarla əvəzləmələrinə üstünlük verməleridir.

Əgər söz azadlığı günümüzdə bu qədər geniş imkanlar təmin etsəydi, şərəf və ləyaqətin təhqir edilməsinə görə qarşı tərəf cəzaya məhkum edilməzdi. Söz azadlığı adı altında insanların namusuna, onların müqəddəslərinə ləkə yaxmaq ağır bir cinayətdir. Məsələn, bəzi Qərb ölkələri qondarma erməni soyqırımını inkar edənlərə cəza verilməsini qanunilәşdirsə, mətbuat da bunun soyqırımı olmadığını ifadə etsə, cinayət olar. Heç təsadüfi deyildir ki, Fransa Parlamenti qondarma "erməni soyqırımı"nı tanımayanların cəzalandırılması barədə qərar qəbul etmişdir (105). Halbuki "azadlıqlar ölkəsi" hesab edilən Qərbdə Hitlerin lehinə, yəhudilərin və ya Papanın əleyhinə yazıların yayınlanması əsasən mümkün deyil. Lakin **"terrora istiqamət verən İslam dinidir"** şəklində ortaya atılan şüarlar, eyni zamanda Hz. Məhəmmədə ünvanlanan təhqiramiz ifadələr söz azadlığı prinsipləri içərisində dəyərləndirilir.

Bu deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, terrorizm

siyasi, ideoloji və iqtisadi məqsədlər güdülməklə etnik, milli və dini ekstremizm pərdəsi altında həyata keçirilir.

İkincisi, İslam bayrağı altında çıxış edən terrorist təşkilatların fəaliyyəti daha çox İslamın özünə qarşı yönəldilmişdir. Bu təşkilatlar xüsusilə böyük güclərin məqsədyönlü dəstəyi nəticəsində yaradılmış, onların nümayəndələri bilavasitə bəzi Qərb dövlətləri tərəfindən təlimləndirilmiş və bu sayədə İslam dininin məhvi istiqamətində ona qarşı təzyiqlər artırılmışdır. Qeyd edək ki, CIA-nin "əməliyyatlar qəfəsi" Taliban və Əl-Qaidə olaraq tarix səhnəsinə çıxan təşkilatın 35 min nümayəndəsinə hərbi təlim keçmişdi (72, s. 14). Eyni zamanda onların təlimi və silahlandırılması ABŞ və İngiltərənin xüsusi xidmət orqanları tərəfindən narko-biznesdən gələn pul hesabına geniş maliyyələşdirilirdi (1, s. 222). Həqiqətlər ortaya çıxdıqca, məqsədyönlü şəkildə İslam bayrağı altında çıxış edən terrorist təşkilatların bəşəri din olan İslamla heç bir əlaqəsinin olmadığı aydın olur.

Yuxarıda da qeyd edildiyi kimi, dünya ictimaiyyətinin şüuraltına **"İslam terror dinidir"** şüarları yerləşdirilmişdir. Son dövrlərdə isə bu ifadə **"bütün müsəlmanlar terrorist deyil, lakin bütün terroristlər müsəlmandırlar"** şüarı altında təbliğ olunur. Bu ifadələr tamamilə İslam düşmənçiliyi üzərində qurulan qorxu paradiqmasına çevrilmişdir. Bu kimi şüarlar və təbliğatlar İslamın mahiyyətinə və fəlsəfəsinə tamamilə ziddir, çünki İslam sülh dinidir və beynəlxalq terrorizmlə heç bir ümumiliyi və əlaqəsi yoxdur. Terrorçulara münasibətdə islami terminlərdən istifadə edilməsi həm müsəlmanlara qarşı ədavətin alovlanmasına, həm də sivilizasiyalar arasında qarşıdurmaya yönəldilmişdir.

Üçüncüsü, İslama qarşı fəaliyyətlərə istiqamət verməklə, təzyiqləri artırmaqla, təhqiramiz ifadələr işlətməklə, bütövlükdə müsəlmanların heysiyyətinə toxunmaqla qıcıqlandırmalara şərait yaradılmış, planlı şəkildə nifrət və ədavət hissi alovlandırılmışdır.

Dördüncüsü, Qərb öz qarşısında Sovetlər İttifaqının dağılma-

sından sonra sadəcə iki mədəniyyəti – İslam və Çin mədəniyyətini rəqib olaraq görür. Qərb mədəniyyətini üstün vəziyyətə gətirmək üçün çoxşaxəli fəaliyyətlər aparılır. Bunun üçün başda media olmaq üzrə hər cür vasitələrdən istifadə edilir.

Beşincisi, İslam dünyasının zəifliyi və müsəlmanların öz içində parçalanaraq ixtilafa düşmələridir. Müsəlmanların geri qalmasındakı əsas səbəb əsl həqiqətdə İslam dinini düzgün yaşamamaları, Qurani-Kərimi tam mənası ilə dərk etməmələri, ondan uzaqlaşmaları və firqələrə bölünərək parçalanmalarıdır. Günümüzdə müsəlmanların ixtilaf içərisinə düşmələri İslam ölkələrini zəiflətmiş və böyük güclərin onlar üzərində hakimiyyət qurmalarına zəmin hazırlamışdır. Məhz bunun nəticəsidir ki, Qərb sivilizasiyası hal-hazırda özünü Şərq sivilizasiyası qarşısında üstün görür. Belə bir fikir şüuraltına yeridilməyə çalışılır ki, dünya humanist şüuru, demokratik cəmiyyət yalnız Qərb sivilizasiyası çərçivəsində formalaşa və qurula bilər. Amma qeyd etmək yerinə düşərdi ki, İslam mədəniyyətində Qərb üçün həlledici olan azadlıq, insan hüquqları, liberalizm, demokratiya kimi ideyalar demək olar ki, özünə dəstək ala bilmir. Z.Bjezinski, S.Hantinqton və başqaları müasir dünyanın Qərb cəmiyyətini vahid və bölünməyə malik təkrarolunmaz sivilizasiya, uzunmüddətli mübarizə nəticəsində dünya üzərində hakimlik məqsədilə mövcud olmuş bir mədəniyyət elan etmişlər. Baş verən siyasi proseslərdə, o cümlədən Qərb-Şərq sivilizasiyalarında, eləcə də Xristian-İslam sivilizasiyalarında pozitivdən daha çox neqativ hallar, dağıdıcı məqamlar, qarşıdurmalar, humanistlikdən daha çox antihumanistlik mövcuddur. Roma Papası II İohann Pavelin "Həyatın İncili" adlı XI ensiklikində (1995) qeyd etdiyi ifadələr olduqca düşündürücüdür: *"...Müasir Qərbdən gələn sivilizasiya "ölüm" mədəniyyətinin beşiyidir. Qərb dövlətləri öz demokratik prinsiplərinə zidd çıxaraq, totalitarizmə tərəf gedir, demokratiya ilə sadəcə rəvayətə və mənəviyyatsızlığın örtüyünə çevrilirlər..."* (11, s. 215).

Əgər mədəniyyətlərlə bağlı istər lokal, istərsə də qlobal miqyasda baş verə biləcək müharibələrə qarşı ən böyük təminat olan millətlərarası nizamın yaradılması qarşıya məqsəd qoyulubsa, dünyanın çoxsaylı dinlərinə etiqad edən insanlar arasında sülhün bərqərar olmasına yönəlmiş inandırıcı, təsirli və kompleks tədbirlər görülməlidir. Dinlər arasında sülh olmadan xalqlar arasında sülh mümkün olmadığı kimi, dinlər arasında təsirli və nizamlayıcı dialoqdan da söhbət gedə bilməz. Yoxsa "Yer" adlı yaşadığımız planet sağ-salamat qalmayacaq. Burada ümummilli lider Heydər Əliyevin müdrik sözləri yada düşür: *"...Qurani-Kərimin bizə verdiyi tərbiyə, dərs, göstərdiyi yollar insanları paklığa, düzlüyə, doğruluğa, sədaqətə, qəhrəmanlığa, cəsarətə, cəsurluğa dəvət edən tələblərdir, tövsiyələrdir..."* (11, s. 218).

Xüsusilə bir məsələni qeyd etməyi də vacib hesab edirik. Həqiqətən də dinlər dünyagörüşün fərqli formalarını təmsil edirlər. İnsanların Yaradıcıya və ilahi sonsuzluğa idrak baxışı müxtəlif olsa da, dini təlimlərin hər birində dünyadakı fəzilətlər, yəni sülh, insan sevgisi, mərhəmət, möhtaclara yardım və əxlaqi təmizlik demək olar ki, eynidir. Bu əmrlər Yaradıcı tərəfindən sadəcə müqəddəs kitablarda verilməmişdir. İnsanların ruhunda da bunlar mövcuddur. Bütpərəst və ateist cəmiyyətlərdə belə bu əmrlərə fərqində olmadan riayət edən insanlar "fəzilətli" və ya "yaxşı" olaraq adlanırdı. "Dinsizlik" keçmiş Sovetlər İttifaqının mövcud olduğu dövrlərdə müqəddəs kitablardan sirayət edən, ancaq Allah inancı kimi əsl mövzunun çıxarıldığı "kommunizmin əxlaq düsturu" elan edilmişdi. Amma bu bir həqiqətdir ki, sonsuzluğa əsaslanmayan əxlaq titrəməyə və çökməyə başlayır. Sovetlər İttifaqının müharibə olmadan qısa bir müddət içərisində öz mənəvi boşluğu ucbatından süqut etdiyini bütün dünya gördü. Artıq günümüzdə əxlaq düsturu "qlobalizm", "Qərb üslublu azadlıq və demokratiya" anlayışları üzərində qurulmağa çalışılır. Müəyyən təbəqələrə görə, qloballaşma iqtisadiyyatın bəzi ölkə hüdudlarını aşdığı, informasiyanın qlo-

bal miqyasda genişləndiyi dünyanın davam etdiyi bir xətdir. Bu mənada onlar üçün qloballaşma arxasında heç bir siyasi seçimin olmadığı, tamamilə öz-özlüyündən iqtisadi bir hadisədir. Halbuki dünyada əsdirilən "qloballaşma rüzgarı"na nəzər yetirilsə, bunun sadəcə prosesin gətirdiyi iqtisadi-texniki bir təzyiq olmayıb, əslində müəyyən nüfuzlu təbəqələrin siyasi seçimlərinin bir məhsulu olduğunu görmək mümkündür. İmperializm ötən əsrlərdə özünün iqtisadi alt strukturunu hazırladığı kimi, günümüzdə də "qlobalizm" maskası altında siyasi üst strukturunu tamamlamağa çalışır. Bu termin dünya ictimaiyyətinə belə bir şəkildə qəbul etdirilmişdir ki, qloballaşma dünya ölkələrinin bir-biriləriylə sıx inteqrasiyasıdır, eyni zamanda tarixi prosesin təbii nəticəsi olaraq ortaya çıxmış bir zərurətdir. Digər bir ifadə ilə, qloballaşma dünya miqyasında yoxsulluğun azaldılması və yardımlaşmadır. Kolumbiya Universitetinin professoru, vaxtilə ABŞ-ın keçmiş prezidenti Bill Klintonun iqtisadi məsələlər üzrə məsləhətçisi işləmiş Nobel mükafatı laureatı Cozef E.Stiqlitz *"Qloballaşma və onun doğurduğu narazılıqlar"* adlı kitabında göstərir ki, qloballaşmanı tənqid edənlər Qərb dövlətlərini çox vaxt riyakarlıqda günahlandırırlar və bu şəxslərin dedikləri tam həqiqətdir. Qərb dövlətləri kasıb ölkələri ticarət maneələrini ləğv etməyə təhrik edirlər, lakin özləri bu maneələri saxlamaqda davam edirlər (15, s. 7).

Müəllif başqa bir yerdə də yazır ki, yoxsulluğun azaldılmasına nail ola bilməyən qloballaşma sabitliyin təmin olunmasında uğur qazana bilməmişdir (15, s. 6). O, eyni zamanda mühafizəkar siyasətçi kimi tanınan Fransanın keçmiş prezidenti Jak Şirakın da fikirlərinə əsaslanaraq qeyd edir ki, qloballaşma vəd edilmiş müsbət dəyişikliklərə daha çox ehtiyac duyan insanların həyatını heç də yaxşılaşdırmamışdır (15, s. 4).

Əgər qloballaşma qarşılıqlı xoş niyyətli bir əməkdaşlıq, yardımlaşma, mədəni, elmi-texniki zənginləşmə və üstəlik, hər iki tərəfin mənfəətlərinə uyğun olaraq əlaqələrin inkişafıdırsa, belə bir

“qloballaşma” yalnız və yalnız alqışlana bilər. Əksinə, əgər qloballaşma hər yerdə “Qərb üslubu”nun mənimsədilməsi, “məcburi demokratiya”nın ixrac edilməsidirsə, o zaman dünya miqyasında onun nəticələri olduqca təhlükəli olacaq.

Əlindəki çubuqla öz şagirdinə *“yaxşı insan ol, təmiz qəlbli və humanist ol, insanları sev, hörmət bəslə!”*, – deyərək onu döyən müəllim şübhəsiz ki, əks bir nəticə ilə qarşılaşacaqdır. Belə bir bənzətməni Qərb sivilizasiyasına da şamil etmək mümkündür. Heç təsadüfi deyildir ki, dünyanın müxtəlif guşələrində *“demokrat olun, azad olun”* şüarları silah və bombalarla paralellik təşkil etməkdə, nəticədə sui-qəsdlər artmaqdadır. Məsələ burasındadır ki, məcburi demokratikləşmə daha çox müsəlman ölkələrini hədəf almışdır və nədənsə “xristianlıq” ilə “sivilizasiya” anlayışları eyniləşdirilməklə xristianlığa sitayiş edən xalqlar birliyi İslama sitayiş edən xalqlar birliyinə qarşı qoyulmağa çalışılır.

## İSLAM HƏMRƏYLİYİNƏ MANE OLAN AMİLLƏR VƏ DİNİ MÖVZULARDA DOĞRU BİLİNƏN YANLIŞLAR

Bəri başdan qeyd etməyi vacib bilirik ki, İslam həmrəyliyinə mane olan amillər və İslam dünyasının geri qalmasındakı əsas səbəblər müsəlmanların İslam dinini düzgün yaşamamaları, Qurani-Kərimi tam mənası ilə dərk etməmələri, ondan uzaqlaşmaları və çox sayda firqələrə bölünərək parçalanmalarıdır. Bu baxımdan məsələyə daha geniş şəkildə toxunmağı son dərəcə gərəkli hesab edirik. Lakin əvvəlcədən qeyd etmək istəyirik ki, bu əsərdə mövzu ilə bağlı məsələlərdə hər hansı bir qüsur və ya səhv nəzərə çarparsa, indidən üzrxahlığımızı bildiririk. Təbii ki, hər şeyin doğrusunu Allah bilir.

Biz müsəlmanlar Allaha, Onun peyğəmbərinə, kitabına inandığımızı iddia edərək, düz yolda addımladığımızı düşünürük. Halbuki məsələnin mahiyyətini heç bir şəkildə dərk etmək istəmir, dini mövzularda doğru bildiyimiz bəzi məsələlərin yanlış olduğunu anlamırıq. Daha dəqiq bir ifadə ilə, Qurandan qopduğumuzun fərqində deyilik. Hər birimiz evdə olarkən və ya işə gedərkən birinci növbədə işimiz kompüteri açıb internetə daxil olmaq, e-maillərimizə nəzər salmaq, birilərindən mesaj gəlib-gəlmədiyinə baxmaqdır. Eyni şəkildə harada olmağımızdan asılı olmayaraq, mobil telefonlarımızdan əl çəkmir, whatsApp, facebook, instagram, twitter və digər sosial şəbəkələrdən ayrıla bilmirik. Dərhal mesajları açıb oxuyur, tez reaksiya verərək ya sevinir, ya da kədərlənirik. Bu, bizim mesajlara olan marağımızdan qaynaqlanır. Çünki insan daim maraq içərisindədir. Ancaq bu maraq nədənsə ilahi mesaj olan Qurana yönəlməyib. Bir dəfə

də olsun böyük əksəriyyətimiz Allahdan bizə gələn ilahi mesaj kimi Qurani-Kərimi açıb oxuyuruqmu? *“Bu ilahi mesajın mahiyyəti nədir? Allah bu kitabla bizə nə çatdırmaq istəyir?”*, – deyə öz-özümüzə sual veririkmi?

Hər şeydən əvvəl bilinməlidir ki, Quranda buyurulan ilk əmr **“Oxu!”**dur **(Ələq surəsi, ayə: 1-4).** Qurani-Kərim bütün ayələrin oxunmasını əmr edir. Həm də anlayaraq, dərk edərək, diqqətli şəkildə. Bu barədə Quranda açıq şəkildə əmr olunur: *“Quranı düşünə-düşünə, diqqətlə oxu!”* **(Müzzəmmil surəsi, ayə: 4).**

Digər bir ayədə isə buyurulur ki, *“Biz mübarək bir kitab olan bu Quranı ona görə nazil etdik ki, hər kəs onun ayələri üzərində dərin-dərin düşünsün və bəsirət sahibləri dərs alsın”* **(Sad surəsi, ayə: 29).**

Qurana görə, insan və kainat hər biri ayrı-ayrılıqda bir kitabdır. **“Oxu!”** əmrinin içərisinə insanın, bütün varlığın və Kainatın oxunması daxildir. Lakin müsəlmanlar Quranla bərabərliklərini təəssüf ki, yalnız bir neçə rükətə sığdırmışlar. Namaz qılacaq qədər Quran ayələri əzbərləyən çox sayda müsəlman əsrlər boyu məhz bununla kifayətlənmiş, Qurani-Kərimin düşünərək oxunmasının əmr olunduğunu anlamamış, hətta namazda oxuduğu ayələrin mənasını belə başa düşməmişdir. Yüzillərdir Quranın oxunmaması üçün elə məhdudiyyətlər gətirilmişdir ki, dəstəmazsız bu kitaba yaxınlaşmaq günah sayılmışdır. Halbuki Quran insanlar oxusun deyə nazil edilmişdir. Bu kitabı açıb oxumaq yerinə, ona toxunmamaq, təmiz parçalar içərisində əlçatmaz yerlərdə saxlamaq üstün tutulmuşdur. Hətta bizə gələn ilahi mesajı açıb oxumadığımız halda Allah, kitab, din, peyğəmbər, imamlar barəsində mübahisələr edir, hədislər və rəvayətlər haqqında bol-bol danışır, doğru və ya yanlış, uydurma və ya səhih olduğunu bilmədən bəzi məsələlərin guya məhz Quranda olduğunu iddia edirik.

Bəzilərimiz də oxuyub heç nə anlamır və ya bunun bir ibadət olduğunu düşünüb yalnız ərəbcə oxumaqla kifayətlənirik. Hal-hazırda İslam dünyasının böyük əksəriyyəti mahiyyətini dərk etmədiyi böyük bir şirkin içərisindədir. Bu barədə Qurani-Kərimdə çox açıq şəkildə buyurulur: *"İnsanlar içərisində elələri var ki, heç bir məlumatı olmadan, doğru yol göstərən və aydınladan kitaba əsaslanmadan Allah barəsində mübahisə edərlər. Onlara: "Allahın endirdiyinə itaət edin", – deyildiyi zaman, "Yox! Biz atalarımızdan nə görmüşüksə, ona itaət edəcəyik" (biz əcdadımızın getdiyi yolu tutub gedəcəyik), – deyərlər"* **(Loğman surəsi, ayə: 20-21).**

Günümüzdə də vəziyyət belə demək mümkündürsə, əvvəlkindən heç də fərqli deyil. Etiraf etmək lazımdır ki, müsəlmanların əksəriyyəti **"endirilən din"**ə deyil, **"uydurulan din"**ə inanır, bu dinin qəbul etdiyi prinsiplərin əhatə dairəsindən çıxa bilmirlər. Məsələ ilə bağlı ən böyük problem ondan ibarətdir ki, əsrlərdir örf, adət və ənənələr çərçivəsində formalaşmış din anlayışları İslamın özü və əsası olaraq qəbul olunmuşdur. Günümüzdə xüsusilə gənclərin din ilə xurafatı bir-birindən ayırd etmədən ateizm və deizm kimi düşüncələrə meyil etmələrinin altındakı əsas səbəblərdən biri İslam ilə qətiyyən əlaqəsi olmayan inanc və ənənəvi düşüncələrin İslam adından insanlara təqdim olunub yayılması və müdafiə edilməsidir. Halbuki bəzi müsəlmanlara baxaraq İslamı mühakimə etmək və ya İslamı xurafatçı zümrələr üzərindən anlamağa çalışmaq doğru yanaşma deyil. Təəssüf ki, dinə vurulan ən ağır zərbə və zərərlər əsasən "dindar" olduqlarını zənn edən insanlardan gəlir. Və təəssüf ki, din insanların öz mənfəətlərinə görə istifadə edə biləcəkləri bir vasitəyə çevrilmişdir. Eyni zamanda ümidi, etimadı, şəfqəti, sülhü, ağlı, məntiqi, hikməti və elmi özündə ehtiva edən İslam xurafat, təzyiq və qorxu ilə anılan bir din halına gətirilmişdir.

Bu baxımdan müsəlmanların əksəriyyətinin **"uydurulmuş**

**din**"in qəbul etdiyi prinsiplərin əhatə dairəsindən çıxa bilməmələrinin əsas səbəbi əlbəttə ki, Qurani-Kərimdən qopmaları, ondan uzaqlaşmalarıdır. Halbuki İslamın elmi qaynağı məhz **"Həyat Kitabı"** Qurani-Kərimdir.

## “Həyat Kitabı” Qurani-Kərimin dərk edilməməsi, İslam dünyasının parçalanması və İslamda təfriqələr

Yuxarıda da qeyd olunduğu kimi, İslam həmrəyliyinə mane olan amillər və müsəlmanların geri qalmasındakı əsas səbəblər onların İslam dinini düzgün yaşamamaları, Qurani-Kərimi tam mənası ilə dərk etməmələri, ondan uzaqlaşmaları və firqələrə bölünərək parçalanmalarıdır. Halbuki Qurani-Kərimdə açıqca buyurulur ki, *“Hamınız birlikdə Allahın ipinə (kitabına, dininə) bərk sarılın. Parçalanıb ayrılmayın”* **(Ali-İmran surəsi, ayə: 103)**.

Məsələ ilə bağlı digər ayələrdə də bariz şəkildə xəbərdarlıq edilir: *“Allaha və onun elçisinə tabe olun, bir-birinizlə didişməyin. Yoxsa zəifləyib gücünüzü itirərsiniz (rüzgarınız kəsilər)”* **(Ənfal surəsi, ayə: 46)**;

*“(Ey peyğəmbər!) dinlərini paramparça edib müxtəlif qruplara ayrılanlara (firqələrə tərəfdar olanlara) gəlincə, sənin onlar üçün edə biləcəyin heç bir şey yoxdur. Onların işi yalnız Allaha qalmışdır. Sonunda Allah onlara etdiklərinin hesabını soruşacaq”* **(Ənam surəsi, ayə: 159)**;

*(Ey müsəlmanlar!) həqiqətin açıq dəlilləri gəldiyi halda, aranızda ixtilaf edib parçalananlardan olmayın. İxtilaf edənlər üzərində böyük bir əzab vardır”* **(Ali-İmran surəsi, ayə: 105)**.

Müsəlmanların üzləşdiyi ən ciddi və böyük problem onların təfriqəyə düşmələri, parçalanmaları, hətta məzhəb içərisində fərqli firqələrə ayrılmalarıdır. Burada diqqət çəkmək istədiyimiz vacib məqam budur ki, üzərində durduğumuz əsas problem məzhəb deyil, məzhəbçilikdir. Məzhəbçilik din içərisində dindir. Dinin məzhəb, məzhəbin də din olduğunu iddia edənlər istər-istəməz digər məzhəblərdən olanları rədd edir, onları dindən çıxmış sayırlar. Halbuki Fussilət surəsində çox açıq şəkildə qeyd olunur: *“Allaha*

*dəvət edən, dürüst, xeyir əməl sahibi olan və* ***“mən müsəlmanlardanam”*** *deyən şəxslərdən daha gözəl sözlü kim ola bilər?”* **(Fussilət surəsi, ayə: 33).**

Buna baxmayaraq, 14 əsrlik zaman müddətində firqələrə bölünənlərin hər biri öz izah və şərhlərini “dinin özü və əsası” olaraq tanıtmağa çalışmış, bir-birilərini ittiham edərək kafir, mürtəd adlandırmış, öz firqələrinin doğru olduğunu sanaraq onunla öyünmüşlər. Bu barədə Qurani-Kərimdə buyurulur: *“Bütün qəlbinizlə Allaha yönələnlərdən olun. Əsla şirkə sapanlardan olmayın, o şəxslərdən ki, dinlərini parçalayıb firqələr (bir-birinə qarşı tərəfdarlar) halına gəldilər. Artıq hər qrup (firqə) öz əlindəkilərlə öyünür”* **(Rum surəsi, ayə: 31-32)**.

Halbuki göstərilən bu kimi ayələrdə qəti şəkildə müsəlmanların ayrılmaması, parçalanmaması ilə bağlı ciddi xəbərdarlıqlar edilir. Tarix boyu müsəlmanlar bu parçalanmanın bədəlini çox ağır ödəmişlər və bu gün də ödəməkdədirlər. Qurani-Kərimdə bu parçalanmanın aradan qaldırılması, təfriqələrə son verilməsi üçün yalnız və yalnız Allahın yolunu izləmək, fərqli yollara sapmamaq əmr olunur: *“Mənim doğru yolum budur. Gərək bu yolla gedəsiniz. Başqa yollardan getməyin ki, bu yollar sizi Onun yolundan ayırıb firqələrə bölməsin. Hidayət yoluna tabe olasınız və qorunasınız deyə O, sizə bunu tövsiyə edir”* **(Ənam surəsi, ayə: 153)**.

Lakin bu əmrdən uzaqlaşan müsəlmanların fərqli məzhəblərə və firqələrə parçalanaraq ixtilaf içərisinə düşmələri günümüzdə İslam ölkələrini olduqca zəiflətmişdir. Məhz bunun nəticəsidir ki, Böyük Güclərin hədəfində olan müsəlman ölkələrində siyasi iğtişaşlar baş verir, sabitlik pozulur, insanlar terror və qətliama məruz qalır, imperialist planlar reallaşır. Hal-hazırda heç bir İslam ölkəsi və müsəlmanlar arasında hər hansı birlikdən söz etmək mümkün deyil.

## “Həyat Kitabı” Qurani-Kərimin “Ölülər kitabı”na çevrilməsi

Qurani-Kərimin başlıca əmri insanların bu kitabın hər bir ayəsini düşünə-düşünə, diqqətlə oxuması olsa da, əsrlərdir davam edən zehniyyət və anlayışla bu müqəddəs kitab hörmət əlaməti kimi sanılaraq təmiz parçalar içərisində əlçatmaz yerlərdə saxlanılmaqda və oxunmamaqdadır. Zərurət yarandıqda isə mahiyyəti və mənası dərk edilmədən dirilərə deyil, ölülərə oxunur. Bu fikir insanlar arasında o qədər geniş yayılmışdır ki, Quran oxumaq ölümün bir əlaməti olaraq qəbul edilir. Yoldan keçərkən bir evdən Quran oxunduğunu eşidən şəxsə elə gəlir ki, həmin evdə yas, matəm var. Belə bir vəziyyətdə anlamayan insan istər-istəməz qorxuya qapılır. Təəssüflər olsun ki, keçmişdən gələn yanlış ənənəyə uyğun olaraq Qurani-Kərim bir növ **“ölülər kitabı”**na çevrilmişdir. Halbuki Quranın hidayətə səsləyən, yol göstərən, daha dəqiq bir ifadə ilə, **“Həyat Kitabı”** olduğu, bəşəriyyətə bir mesaj, xəbərdarlıq olsun deyə göndərildiyi bariz şəkildə bildirilməkdədir. Bir məsələni xüsusilə qeyd etmək lazımdır ki, ənənəvi olaraq ölülər üçün **Yasin surəsi** oxunur. Bu vəziyyət əsrlərdir hər kəs tərəfindən artıq birmənalı olaraq qəbul edilmişdir. Halbuki Yasin surəsinin 5-6-cı ayələrində kitabın kimlər və nə üçün endirildiyi açıqca göstərilir: *“Bu kitab ataları xəbərdar edilməyən, qəflət içində qalmış (haqdan qafil olan) topluluq xəbərdar edilsin deyə qüdrət və mərhəmət sahibi olan Allah qatından endirilmişdir”* **(Yasin surəsi, ayə: 5-6)**.

Həmin surənin 69-70-ci ayələrində isə insanlara belə bildirilir: *“Biz ona (peyğəmbərə) şeir öyrətmədik. Bu ona heç lazım da deyil (heç yaraşmaz da). Ona vəhy edilən sadəcə öyüd-nəsihət (haqla batili ayırd edən) və açıq-aşkar Qurandır ki, bu sayədə diri olanlar (həyatda olanlar) xəbərdar edilsin və bunu təkidlə inkar edən-*

*lərə qarşı verilmiş söz gerçəkləşmiş olsun”* **(Yasin surəsi, ayə: 69-70)**.

Digər ayələrdə də aydın şəkildə göstərilir: *“Ölülərlə dirilər eyni ola bilməz. Sən ölülərə (istər maddi olsun, istərsə də mənəvi) heç bir şəkildə eşitdirə bilməzsən”* **(Nəml surəsi, ayə: 80; Rum surəsi, ayə: 52; Fatir surəsi, ayə: 22)**.

Lakin belə xəbərdarlıqlara baxmayaraq, bu müqəddəs kitaba yanaşma təəssüf ki, beyinlərə hopmuş yanlış ənənəvi düşüncə çərçivəsindən kənara çıxa bilmir. Məsələ burasındadır ki, müasir dövrdə din adına uydurulan, heç bir məntiqi əsası olmayan müxtəlif rəvayətlər və əfsanələr dirilərə, **“Həyat Kitabı”** Quran ayələri isə ölülərə oxunmaqdadır. Əsl fəlakət və bəla məhz buradadır.

Dolayısı ilə, Qurani-Kərim biz öldükdən sonra deyil, yaşayarkən işimizə yarayacaq hikmət dolu bir kitab, insanları zülmətdən aydınlığa çıxarmaq üçün bir həyat mənbəyidir: *“Sizi zülmətdən aydınlığa (nura) çıxarmaq üçün öz bəndəsinə (Məhəmmədə) açıq-aşkar ayələr nazil edən Odur. Şübhəsiz, Allah sizə qarşı çox şəfqətli və çox mərhəmətlidir”* **(Hədid surəsi, ayə: 9)**.

Zuhruf surəsində də bu “Həyat Kitabı”nın insanlara göndərildiyi, xatırladıcı bir nəsihət və mesaj olduğu, insanların bundan məsul tutulduğu və hesaba çəkiləcəyi açıq şəkildə bildirilir: *“Şübhəsiz, bu Quran sənin və qövmün üçün bir şərəf və etibar qaynağıdır (mesajdır). Zamanı gəlincə, hamınız bundan hesaba çəkiləcəksiniz”* **(Zuhruf surəsi, ayə: 44)**.

Bu kitabdakı mesajların diqqətli şəkildə oxunub mahiyyətinə varılması və dərs çıxarılması üçün insanların məsuliyyət daşıdığı, eyni zamanda onların hesaba çəkiləcəyi bildirildiyi halda, bu kitab hansı məntiqlə dirilərə yox, ölülərə oxunur? Bir növ məzarlıqda yatan ölülərə Quranın oxunması maşın qəzası nəticəsində ölən adamlara yol hərəkəti qaydalarını anlatmağa oxşayır.

Digər tərəfdən, kitab oxumadan və onun mahiyyətini dərk etmədən insanlar imtahandan keçə bilərlərmi? Necə ki, bir univer-

sitet tələbəsi müəllimin tövsiyə etdiyi kitabları oxumadan və hazırlaşmadan imtahandan keçə bilmirsə, insan da Qurani-Kərimi oxumadan və onun içərisində yazılanları dərindən düşünərək anlayıb doğru yola yönəlmədən bu fani dünyadan ayrılıb arzuladığı məkana ayaq basa bilməz, sinifdə qalar.

## Nüzul-i İsa və Mehdilik məsələsi

Əsrlərdir istər xristian dünyasında, istərsə də İslam dünyasında Hz. İsanın yer üzünə təkrar qayıdacağı **(nüzul-i İsa)** və ədaləti bərpa edəcəyinə dair yayğın iddialar mövcuddur. Yəhudilərdə də Məsihin gələcəyi və Tanrının krallığını quracağı ilə bağlı inamlar geniş vüsət almışdır. Qeyd etmək lazımdır ki, Məsih düşüncəsi dinlərdə ortaq bir fenomenə çevrilmişdir. Lakin Məsih məsələsinə baxış dinlərdə tamamilə fərqlidir. Məlum olduğu kimi, yəhudilikdə Məsih Hz. Davudun soyundan gələcək bir şəxs olaraq qəbul edilir. Hz. İsa yəhudilərin içindən çıxsa da, onun məsihliyi qəbul edilməmişdir. Yəhudi ənənəsində olduqca önəmli bir yer tutan Əhdi-Ətiqdə simvolik ifadələrlə xəbər verilən və Talmutda təfsilatlı olaraq bəhs edilən Məsih inancı zaman içində yəhudi dini əsasları içərisinə daxil olaraq bir doktrinaya çevrilmişdir. Tarixi ilə dini bütünləşmiş olan yəhudilərin tarixin müəyyən dövrlərində üzləşdikəri fəlakətlər onları bu sıxıntıdan qurtaracaq və arzu etdikləri hədəflərə çatdıracaq bir xilaskar fikrinə yönləndirmişdir. Digər tərəfdən, "gözlənən Məsih" inancının ortaya çıxmasında "üstün və seçilmiş millət" düşüncəsinin də böyük rolu olmuşdur. Yəhudiliyə görə, Məsihçilik məhz yəhudilərin rəhbərliyi altında Allahın krallığını qurmaqdır. Günümüzdə yəhudiliyə əsaslanan Məsih inancı daha müasir bir mahiyyət qazanmışdır. Məsələn, Sionizm "Məsihi ideologiya"nın dünyəvi bir versiyası olaraq xarakterizə oluna bilər. Heç təsadüfi deyildir ki, Sionizm və İsrail dövlətinin qurulması "Məsihi hərəkat" anlayışının dünyəviləşməsiylə ortaya çıxmışdır. Yəhudilikdən fərqli olaraq, xristianlıqdakı Məsih Hz. İsa olaraq gerçəkləşmiş və İlahi Krallıq onunla başlamışdır. Yəhudilər Məsih olaraq yeni bir qurtarıcının gəlməsini gözləyir, xristianlar isə Tanrının oğlu olaraq qəbul etdikləri, ölüb üç gündən sonra dirilərək Allahın

qatına qalxan və müəyyən bir zamanda təkrar səmadan yer üzünə qayıdacağına inandıqları Məsihin yolunu gözləyirlər. Xristianlara görə, insanların bütün günahlarına kəffarə olmaq üçün özünü fəda edərək çarmıxa çəkilən İsa **"Ata"**nın yanına qalxaraq onun sağ tərəfində oturmuşdur. Vəd olunan vaxt gerçəkləşəndə İsa təkrar yer üzünə qayıdacaqdır. Dünyanı sülh və ədalətə qərq edib ona inanmayanları cəzalandıracaq, intiqam alacaq və səltənəti davam edəcəkdir. Bu inanca görə, İsa-Məsihin ikinci dəfə gəlişinin əsas məqsədi yer üzündə Tanrının hakimiyyətini yenidən təsis etməkdir (bu barədə ətraflı bax: 52, s. 360; 71, s. 297; 102). Göründüyü kimi, yəhudilik və xristianlıqda Tanrının krallığının bərpası ilə bağlı inanclar eyni olsa da, şəxslər fərqlidir.

İslamın Məsih anlayışı isə digər iki dindən fərqlənir. Çünki Quranda Məsih Allahın peyğəmbəri olan Hz. İsadır. Qeyd edək ki, digər dinlərdə Hz. İsa peyğəmbər olaraq qəbul edilmir. Nüzul-i İsa məsələsi Qurani-Kərimdə yer almasa da, bəzi ayələrdən müxtəlif mənalar çıxaran və bəzi hədislərdən yola çıxaraq bu iddialara bəraət qazandırmaq istəyən müsəlmanların böyük əksəriyyəti Hz. İsanın bir gün nüzul edib, yəni geri qayıdıb Şamda onu gözləyən bəyaz bir ata minərək dünyanı xilas edəcəyi, xaçı qıracağı, donuzları öldürəcəyi, Dəccalla mübarizə aparacağı, nəhayət, onu məğlub edəcəyi, yer üzündəki bütün zülmü ortadan qaldıraraq ədaləti gerçəkləşdirəcəyinə inanır, bununla yanaşı, Mehdinin də zühur edəcəyini iddia edirlər. Bu iddialar mütləq şəkildə inanılması vacib olan bir məsələ olsaydı, açıq şəkildə Quranda bəhs olunardı.

Quranın iki ayəsində, yəni **Ali-İmran surəsi**nin **55-ci**, **Maidə surəsi**nin isə **117-ci** ayələrində Hz. İsanın vəfat etdiyi və Allahın dərgahına qaldırıldığı qeyd olunur. Heç şübhə yoxdur ki, Tanrı hər ruhu öz qatına, öz dərgahına çəkir. Dolayısı ilə, Hz. İsa da Allah qatına çəkilmişdir. Hz. İsa **"Tanrının oğludur və ya Tanrıdır"** deyənlərə cavab olaraq, Qurani-Kərimdə bildirilir ki, İsa peyğəmbər də insandır, hər insan kimi ölümlüdür, hər ruh kimi o da Allah

qatına çəkilmişdir. Qeyd etmək lazımdır ki, dinlərindən asılı olmayaraq, insanların böyük əksəriyyəti Hz. İsanın təkrar yer üzünə qayıdacağı məsələsində həmfikirdirlər. Hz. İsanın aqibəti, Qiyamət günündən öncə yer üzünə qayıdacağı **(nüzul-i İsa)** və dünyanı xilas edəcəyi kimi iddialar İslam dünyasında da müzakirə olunan ən mübahisəli məsələlərdəndir.

Bununla yanaşı, müsəlmanlar arasında Mehdinin də zühur edəcəyi iddiası dərin kök salmışdır. Əlbəttə ki, tarixin müəyyən dövrlərində göndərilmiş olan elçilər və ya peyğəmbərlər ayrı-ayrılıqda bir Mehdi ***(yəni hidayət olunmuş, doğru yol göstərən – E.Ş.)*** idilər. Bununla bağlı Quranda göstərilir: *"Hər toplumun bir hidayətçisi (doğru yol göstərən bir rəhbəri) vardır"* **(Rəd surəsi, ayə: 7).**

*"Heç bir ümmət yoxdur ki, içlərindən xəbərdarlıq edən / mesaj gətirən elçi çıxmamış olsun"* **(Fatir (Məlaikə) surəsi, ayə: 24).**

Digər ayələrdə də hər ümmətə elçilərin / peyğəmbərlərin göndərilmiş olduğu bildirilir **(Yunis surəsi, ayə: 47; İbrahim surəsi, ayə: 4; Nəhl surəsi, ayə: 36; İsra surəsi, ayə: 15).**

Onların əsas missiyası isə insanları hidayətə səsləmək, doğru yolda onlara rəhbərlik etmək olmuşdur. Hal-hazırda isə doğru yolu göstərən məhz hidayət kitabı Qurani-Kərimdir: *"Biz sənə bu kitabı hər şeyi açıqlayan bir hidayət (yol göstərici), bir rəhmət və müsəlmanlara bir müjdə olaraq endirdik"* **(Nəhl surəsi, ayə: 89).**

Yuxarıda da qeyd olunduğu kimi, Ali-İmran surəsinin 55-ci və Maidə surəsinin 117-ci ayələri Hz. İsanın yer üzünə təkrar gələcəyi ilə bağlı iddiaları təkzib edir. Eyni zamanda Ənbiya surəsinin 8-ci ayəsində də açıq şəkildə göstərilir: *"Biz onları (peyğəmbərləri) yeməyə belə ehtiyac duymayan varlıqlar olaraq göndərmədik. Üstəlik, onlar ölümsüz də deyillər"* **(Ənbiya surəsi, ayə: 8).**

Həmin məsələ ilə bağlı yenə eyni surənin 34-cü ayəsində buyurulur: *"(Ey peyğəmbər!) Biz səndən öncə yaşamış heç bir insana*

*ölümsüzlük bəxş etmədik. Sən öləcəksən, onlar əbədimi qalacaqlar?”* **(Ənbiya surəsi, ayə: 34).**

Quranın digər bir ayəsində isə belə göstərilir: *“(Ey möminlər!) Məhəmməd Allahın rəsulu və peyğəmbərlərin sonuncusudur”* **(Əhzab surəsi, ayə: 40).**

Hz. İsanın ölümsüz olması ilə bağlı iddialar İslama, Qurani-Kərimə ziddir və məhz bilərəkdən onun tanrılaşdırılmasına yönəlik addım kimi xarakterizə olunmalıdır. Xristianların bu şəkildə inanmaları onları maraqlandıran bir məsələdir və kilsənin belə bir anlayış içərisində olması da onların daxili işidir. Lakin müsəlmanların məsələyə eyni məntiqlə yanaşmaları olduqca düşündürücüdür. Həqiqət budur ki, Məsih-İsa öz missiyasını yerinə yetirmiş və musəviliyə yeni bir müstəvidən yanaşmışdır. Müqəddəs kitab Qurani-Kərimdə bu məsələlər açıq şəkildə göstərildiyi halda, Hz. İsanın və Mehdinin yer üzünə qayıdacağı ilə bağlı inamlar hansı məntiqə sığar? Deyək ki, onlar qayıtdılar, bəs yaxşı, Quranda buyurulanlardan və Hz. Məhəmmədin söylədiklərindən fərqli nə deyəcəklər? Digər bir tərəfdən, Əhzab surəsinin 40-cı ayəsində də göstərildiyi kimi, madam Hz. Məhəmməd peyğəmbərlərin sonuncusudur, onda Hz. İsa hansı dərəcə ilə, hansı ünvanla yer üzünə qayıdacaq? Hər bir müsəlman Hz. İsanın peyğəmbərliyini təsdiq etmişdir. Sonuncu peyğəmbər də Hz. Məhəmməd olduğuna görə, din tamamlanmışdır. Hz. İsa və Mehdi gəlsələr belə Qurana yeni ayələr əlavə etməyəcəklər və edə də bilməzlər. Belə bir vəziyyətdə, hər bir müsəlmanın əsas amalı Hz. İsanın nüzulunu və Mehdinin də zühurunu gözləmək deyil, Allah qarşısında məsuliyyətini dərk etməli və öhdəsinə düşəni layiqincə yerinə yetirmək olmalıdır.

Qeyd olunduğu kimi, əsl xilaskar doğru yolu göstərən hidayət kitabı Qurani-Kərimdir. Heç təsadüfi deyildir ki, elmin qapısı sayılan Hz. Əli öz xütbələrindən birində belə buyurmuşdur: *“Quranı özünüzə imam və rəhbər seçin”* (3, s. 19).

Hər bir müsəlman məhz bu İlahi Kitabın rəhbərliyində öz qur-

tuluşunu özü tapa bilər. Əgər müsəlmanlar bu kitabın onlar üçün müəyyən etdiyi təlimin içərisində yer almazlarsa və öz məsuliyyətlərini unudarlarsa, hər hansı bir dövrdə ortaya çıxacağı iddia edilən Məsih və Mehdinin onlara heç bir faydası toxunmayacaqdır. Bu səbəbdən müsəlmanlar əsrlərdir səbirsizliklə Məsih və Mehdini gözləmək yerinə, öz həyatlarını Allaha və onun müəyyən etdiyi proqrama həsr edərək düzgün şəkildə çalışsalar, ağıl və məntiqlə "Həyat Kitabı" olan Quranın göstərdiyi yoldan getsələr və maariflənsələr, qurtuluşu tapmış olarlar.

Burada hidayət məsələsi ortaya çıxır ki, bu da müsəlmanlar arasında ciddi mübahisəyə səbəb olmuşdur. Müsəlmanlar arasında yayğın olan fikir budur ki, Allah yalnız öz dilədiyini hidayət edər. Sanki seçim və ixtiyar insanın əlində deyil, yalnız Allahın əlindədir. O, kimi istəyərsə onu hidayətə çatdırar. Halbuki Quranda bu barədə açıq mesajlar vardır: *"Diləyən hər bir şəxs Rəbbinə yol tapa bilər"* **(Nəbə surəsi, ayə: 39).**

*"Bu, mesaj dolu bir nəsihətdir. Diləyən təqva edərək Rəbbinə yol tapa bilər"* **(Müzzəmmil surəsi, ayə: 19).**

*"Bütün bunlar nəsihət və xəbərdarlıqdır. O halda diləyən Rəbbinə varan bir yol tapsın"* **(İnsan surəsi, ayə: 29).**

*"(Ey peyğəmbər!) de ki: Allah diləyən şəxslərin sapmasını dilər (yəni insanlar öz tərcihlərini edib özləri yoldan sapırlar), Ona yönələn insanları isə doğru yola yönləndirər, onları hidayət edər"* **(Rəd surəsi, ayə: 27).**

Digər bir ayədə isə göstərilir ki: *"Əgər nankorluq etsəniz, unutmayın ki, Allah sizə əsla möhtac deyil. O, öz bəndəsinin nankorluğundan razı olmaz, lakin şükür etsəniz O, sizin bu hərəkətinizdən razı qalar..."* **(Zümər surəsi, ayə: 7).**

Göründüyü kimi, Allah insanların doğru yolda olmasını diləyir, əsla yanlış yolda olmasına razı deyil. Lakin iradə insanın öz əlindədir, doğru və yanlış yolu yalnız insan özü seçir: *"Kim Allahın (haqq) yolundan gedərsə, o, hidayət tapar"* **(Əraf surə-**

**si, ayə: 178).**

*“(Ey peyğəmbər!) şübhəsiz ki, sən sevdiyin hər kəsi doğru yola yönəldə bilməzsən, lakin Allah (istəyən hər kəsin) doğru yola yönəlməsini (hidayətə çatmasını) diləyir”* **(Qəsəs surəsi, ayə: 56).**

Demək ki, kim diləyərsə və istəyərsə, Allah ona hidayət edər. Bəzi tərcümələrdə bu ayələr yanlış tərcümə edilərək, guya **“Allah sırf öz dilədiyini hidayətə çatdırır”** şəklində göstərilir. Bu cür tərcümələrdən yola çıxsaq, o zaman insanların günahsız olduğu anlaşılar. Halbuki bu dünya yalnız bir imtahandan ibarətdir. İmtahandan keçmək istəyən öz yolunu özü seçməlidir. Əgər bir insanın seçimi və iradəsi hesaba alınmadan hidayətə çatmaq sırf Allahın diləyinə tabe olsaydı, o zaman imtahana nə ehtiyac qalardı? Yunis surəsinin 25-ci ayəsində buyurulur: *“Allah insanları sülhə, əmin-amanlıq yurduna çağırır və kim diləyərsə, Allah onu düz yola hidayət edər”* **(Yunis surəsi, ayə: 25).**

Göründüyü kimi, seçim və ixtiyar sırf insana aiddir. İnsan öz yolunu özü müəyyənləşdirir. Bəzi ayələrdə insanların küfr (inkar) və imanı seçməkdə azad olduğu, yəni diləyənin iman, diləyənin də inkar edə biləcəyi göstərilir. Çünki Allah tərəfindən insanlara məcburiyyət yox, iradə verilmişdir: *“De ki: Haqq Allahdandır. Diləyən iman etsin, diləyən inkar etsin, ixtiyar sizindir”* **(Kəhf surəsi, ayə: 29).**

*“Biz istəsəydik, hər kəsi doğru yola yönəldərdik, lakin bunu istəmədik ki, yaxşılar pislərdən seçilsin”* **(Səcdə surəsi, ayə: 13).**

*“Allah diləsəydi, bütün insanları hidayət edərdi”* **(Ənam surəsi, ayə: 35).**

*“Şübhəsiz ki, biz insana doğru yolu göstərdik, lakin iman edən və ya inkar edən biri olmağı onun öz ixtiyarına buraxdıq”* **(İnsan surəsi, ayə: 3).**

Qurandakı ayələr işığında burada diqqəti çəkən əsas cəhət Allahın diləməsi məsələsidir. Amma Allah diləmədi, çünki qeyd olunduğu kimi, insan küfrü və ya imanı seçməkdə azaddır. İnsanın seçimi və iradəsi insanın öz taleyi, öz qismətidir. Yox, əgər insan öz seçimini edib yanlış yolda addımlayırsa, o, qətiyyən hidayətə çatmaz.

Bu da bir həqiqətdir ki, **Şura surəsinin 13**-cü ayəsində də buyurulduğu kimi, Allah bəzi məqamlarda dilədiyini özü seçər, lakin bu məsələ sırf peyğəmbərlərə aiddir. Çünki peyğəmbərlər öz istəkləri ilə elçi olmayıb, sırf Allah dilədiyi üçün seçilmişlər.

## Şirk – müşrik məsələsi, onun mahiyyəti və mövcud vəziyyət

Şirk Allaha ortaq, şərik qoşmaq deməkdir. Şirkə yoluxana isə müşrik deyilir. Dini göndərən Yaradanın hədəfində olan yalnız şirkdir. Quranda nə ateizmdən söz edilir, nə də dinsizlikdən. İslamın yozlaşdırılmasındakı başlıca cəhət şirkin nə olduğunun bilinməməsi, həqiqətin idrak edilməməsidir. Şirkin mənası ortaq olsa da, mahiyyətini tam olaraq açmır. Məhz bu amil müsəlmanlar üçün böyük bir fəlakətdir. Günümüzdə nəinki qeyri-müsəlmanlar, hətta İslam dünyası da şirkin pəncəsindədir. Belə demək mümkündürsə, İslam dünyası şirkin yüzlərlə çeşidləri içərisində qıvranır. Şirk Allahı qəbul etməmək deyil, bu yanlış anlaşılmamalıdır. Şirk içərisində olanlar, yəni müşriklər də Allahın varlığını qəbul edirdilər. Sadəcə olaraq Allah onların səsini eşitsin deyə başqalarının vasitəçiliyi ilə dualar edir, kömək istəyirdilər. Bu məsələ ilə bağlı Qurani-Kərimdə bildirilir: *"Allahdan başqasını özünə dost və məbud seçib, onlara ibadət edənlər bəhanə gətirib: "Biz onlara bizi Allaha yaxınlaşdırsınlar deyə ibadət edirik", – deyirlər"* **(Zümər surəsi, ayə: 3).**

Günümüzdə də vəziyyət eyni olaraq qalmaqda, Allah ilə insan arasına "vasitəçilər" qoyulmaqdadır. Müşriklərin Allaha olan inancı ilə bağlı Quranda aşağıdakı ayələrdə göstərilir: *"(Ey Məhəmməd!) əgər onlardan (Məkkə əhlindən, Məkkə müşriklərindən) soruşsan ki, səmaları və yeri yaradan kimdir? Günəşi və ayı kim ram etmişdir? Əlbəttə, deyəcəklər ki, Allahdır"* **(Ənkəbut surəsi, ayə: 61).**

*"Əgər (bu müşriklərdən) soruşsan ki, səmadan suyu endirən və onunla ölü torpağa can verən kimdir? Heç şübhən olmasın "əlbəttə, Allahdır", – deyəcəklər"* **(Ənkəbut surəsi, ayə:**

**63).**

*“De ki, əgər bilirsinizsə, bu yer və onda olan məxluqat kimindir?*

*“Allahdır”, – deyəcəklər.*

*De ki, bəs niyə ibrət alıb düşünmürsünüz?*

*De ki, həm yeddi göyün və böyük ərşin yeganə rəbbi kimdir?*

*“Allahdır”, – deyəcəklər. De ki, bəs, Allahdan qorxmayıb (yenə Ona şərik qoşursunuz?)*

*De ki, hər bir şeyin hakimiyyətini əlində tutan kimdir? İstəsə hər kəsi (bəladan) qoruyar, heç kim də onun əzabından bir başqasını qoruya bilməz. Əgər bilirsinizsə, (deyin o, kimdir?)*

*“Allahdır”, – deyəcəklər. De ki, o zaman niyə aldanıb Ona şərik qoşursunuz?”* **(Muminun surəsi, ayə: 84-89).**

*“(Ey peyğəmbər!) de ki, səmanın və yerin məhsulları ilə sizə ruzi verən kimdir? Bəs yaxşı, eşitmə və görmə duyğularınız üzərində kim mütləq söz sahibidir? Kimdir ölüdən dirini çıxaran? Və diridən ölünü çıxaran kimdir? Cəmi aləmləri tədbirlə idarə edən kimdir? Dərhal deyəcəklər ki, Allahdır”* **(Yunis surəsi, ayə: 31).**

Göründüyü kimi, müşriklərdə Allah inancı var olmuşdur. Sadəcə olaraq müşriklər Allah ilə öz aralarına vasitəçilər qoyaraq, bu vasitə ilə Ona yaxın olmaq istəyirdilər. Qurani-Kərimin göndərilməsi ilə məhz bu sistem ortadan qaldırılmaq istənilmişdir. Bütün bu dəyərləndirmələrdən sonra bizdə belə bir təəssürat yaranır ki, Quran müşriklərə göndərilmişdir, lakin İslamın yayılmasından sonra müsəlmanların həqiqətin fərqinə varmasıyla guya şirk ortadan qalxmışdır. Halbuki müsəlmanlar da eyni yolu gedərək, nədənsə yanlış sapmalar içərisində olduğunu hələ də dərk etmirlər. Bunun ən başlıca səbəbini Qurani-Kərimi doğru anlamamaqda görmək mümkündür. Bizlər çətin bir vəziyyətə düşəndə yardım üçün Allah ilə aramıza biriləri qoyaraq, baş-

qalarından kömək umur, digərlərinin şəfaətinə ümid bəsləyirik. Halbuki Qurani-Kərimin 1-ci surəsi və xülasəsi olan Fatihə surəsində buyurulanı dərk etmək istəmirik: *"Yalnız Sənə qulluq edir, yalnız Səndən yardım istəyirik"* **(Fatihə surəsi, ayə: 5).**

Lakin bizlər ilahi mesajı anlamamış, ümid yerini başqalarında axtarmış və ya araya vasitəçilər qoyaraq, onların üzü suyu hörmətinə Allaha yönəlmişik. Qəbirlərdə, türbələrdə, pirlərdə, ocaqlarda şamlar yandırır, qurbanlar kəsir, birilərindən kömək diləyir, xəstələri şəfa tapsın deyə pirlərdə və ocaqlarda yatırır, ümid yerini bu məkanlarda axtarır, oradakı sulardan içirir, bunun dinin bir kəraməti və əlaməti olduğunu önə sürərək ehtiyaclarımızı bu şəkildə qarşılayırıq. Dünyasını dəyişmiş bəzi müqəddəslərdən yardım umur, ərmiş hesab etdiyimiz hacıların və hocaların şəfaətini diləyir, yeganə ibadətə layiq olan Allahı ikinci planda tuturuq. Halbuki Quranın insanlığa təlqin etmək istədiyi prinsip məhz araya başqalarının qoyulmamasıdır. Məsələni bir az daha açaq;

Yola çıxanda və ya bir işə başlayanda Allahla yanaşı, müqəddəs qəbul etdiyimiz şəxslərin də adlarını çəkir, fərqində olmadan onları köməyə çağırırıq. Yaxud Allaha yalvaranda işlərimizin daha yaxşı və tez alınması üçün *"(müqəddəslərin) üzü suyu hörmətinə, sən kömək ol!"*, – deyə dualar edirik. Bunlar tamamilə şirkdir və mədət umulan insanları şəfaətçi və vasitəçi kimi Allahla aramıza qoymaqla həm onları hörmətsizləşdirir, həm də belə dualarla Fatihə surəsində buyurulan ***"Yalnız Sənə qulluq edir, yalnız Səndən yardım istəyirik"*** ayəsini inkar edərək özümüzü şirkə bulaşdırırıq.

Şirk Quranın ən böyük düşmənidir. Loğman surəsinin 13-cü ayəsində də buyurulduğu kimi, şirk ən böyük zülmdür. İslamın yozlaşdırılmasındakı əsas məsələ tövhidin deyil, şirkin nə olduğunun bilinməməsidir. Şirkin ibtidai və intellektual olaraq təkmilləşdirilmiş növləri vardır. Onun ibtidai forması cansız

varlıqların, əşyaların, təbiətüstü güclərin ikinci dərəcəli ilah halına gətirilməsidir. Bu şirk ilk baxışda hər kəsin rahat bir şəkildə görə biləcəyi və tanıyacağı bir şirkdir, yəni bütpərəstlikdir. Buna açıq şirk deyilir.

İntellektual və ya təkmilləşdirilmiş şirk isə ilk baxışda fərqinə varılmaz və gizli-maskalı şəkildə təzahür edər. Şirkin bu növü həmişə fərqində olmadan insanların ilahlaşdırılması, onların bir-birilərini bütləşdirməsi, yəni alt-ilah ilə ortaya çıxır. Bunlar bütləşdirilmiş təriqət və məzhəb liderləri, ilahlaşdırılmış məşhur şəxslər, eyni zamanda nəfslərdir (71, s. 427-428).

Bu fəlakət və bəla günümüzdə elmə, ağla, idraka, xoşbəxtliyə, şərəfə, hürriyyətə və həqiqətə gedən yolu bağlamaqdadır. İslam dünyası şirkin bu ikinci növünü dərk etmədiyi müddətcə sürünməyə davam edəcək.

Qurani-Kərimdə qoyulan problemlə bağlı çox sayda nümunələr vardır: *"Allahdan başqasına ilahlıq yaraşdırma! Çünki hər cür ilahlıq yaraşdırmaq həqiqətən də qorxulu bir zülmdür"* **(Loğman surəsi, ayə: 13).**

Allaha aid xüsusiyyətlərin görünən və ya görünməyən varlıqlara, eləcə də müqəddəs şəxslərə şamil edilməsi (yaraşdırılması) şirkin bir növüdür (bu barədə bax: **Zümər surəsi, ayə: 65-66).**

Bu kimi insanları Qurani-Kərim çox açıq şəkildə tanıdır: *"Küfrə saplanmış (şirkə bulaşmış) olanlar özlərinə mövqe və nüfuz qazanmaq üçün Allahdan başqalarını ilahlaşdırırlar"* **(Məryəm surəsi, ayə: 81).**

Halbuki Quranın demək olar ki, bütün surələrində insanlara xəbərdarlıq edilir: *"(Ey insan!) Əgər Allaha aid xüsusiyyətləri başqalarına yaraşdırsan, qəti şəkildə bütün əməllərin boşa gedəcək. Üstəlik, tamamilə ziyan çəkənlərdən olacaqsan. Əsla belə etmə. Yalnız Allaha ibadət et və şükür edənlərdən ol"* **(Zümər surəsi, ayə: 65-66).**

*“...İnkara saplananları gözünüzdə böyüdüb sayqınlaşdırmayın! Yalnız Mənə təzim edin...”* **(Maidə surəsi, ayə: 3).**

*“...Gözünüzdə böyütdüyünüz insanlardan qorxmayın. Məndən qorxun. Ayələrimi az bir mənfəət qarşılığında (ucuza) satmayın...”* **(Maidə surəsi, ayə: 44).**

Qurani-Kərim ***“Allaha ibadətdə və yalvarmada hər hansı birinin ortaq qoşulmamasını, vasitəçinin istənilmədiyini”*** açıq şəkildə bildirir: *“...Allahdan başqasına yalvarmayın (dua və ibadət etməyin)”* **(Cin surəsi, ayə: 18).**

*“(Ey insan!) Allahdan başqa bir məbuda ibadət etmə. Yoxsa qınanmış (rəzil) və tənha qalarsan. Sənin Rəbbin başqasına deyil, yalnız ona ibadət etməyinizi əmr edir...”* **(İsra surəsi, ayə: 22-23).**

*“Allahdan başqa özlərinə dost (hami) qəbul edənlərin (Allahdan başqasına sığınanların) vəziyyəti özünə yuva qurmuş dişi hörümçəyin vəziyyətinə bənzəyir. Evlərin ən zəifi isə şübhəsiz ki, hörümçək yuvasıdır. Kaş bunu dərk edə bilsəydilər”* **(Ənkəbut surəsi, ayə: 41).**

*“Gerçək dua yalnız Ona olmalıdır. Ondan başqa yalvarıb-yaxardıqları heç bir şəkildə istəklərinə cavab verməzlər. Onların vəziyyəti eyni əllərini suya doğru açıb suyun ağzına tökülməsini gözləyən şəxslər kimidir. Bu vəziyyətdə o, əsla suya qovuşa bilməyəcək”* **(Rəd surəsi, ayə: 14).**

*“Allah mütləq həqiqətin tam özüdür. Ondan başqasına yalvarılanlar batildir...”* **(Həcc surəsi, ayə: 62).**

*“O kimsə ki, Allahı buraxıb özünə nə zərər, nə də xeyir verən varlıqlara yalvarır. İnsanı haqq yoldan uzaqlaşdıran ən qorxulu sapıqlıq da budur. Bəzi zamanlarda da zərəri xeyrindən daha çox olan insanlara yalvarır. O, nə bərbad bir köməkçi, necə də pis yoldaşdır”* **(Həcc surəsi, ayə: 12-13).**

Şirkin **“insanı Allaha yaxınlaşdıran vasitəçiləri vacib hesab edən anlayış”**a qarşı Quranın cavabı çox açıqdır: *“Allah in-*

*sana şah damarından daha yaxındır”* **(Qaf surəsi, ayə: 16).**

Quranda Allahın insana şah damarından daha da yaxın olduğu göstərilməklə nəinki vasitəçiyə, hətta məsafəyə belə ehtiyac olmadığı bildirilmiş, bununla şirkin təməl bazası yıxılmışdır. Bəqərə surəsinin 186-cı ayəsində bildirilir: *“(Ey peyğəmbər!), əgər qullarım sənə mənim barəmdə soruşarlarsa, yaxşı bilsinlər ki, mən onlara çox yaxınam. Mənə dua edənin çağırışına, duasına cavab verərəm. Elə isə mənim dəvətimə uysunlar və mənə tam güvənsinlər ki, haqq yoluna yönəlsinlər”* **(Bəqərə surəsi, ayə: 186).**

Əraf surəsində isə buyurulur ki: *“Allaha səmimi şəkildə yalvararaq və gizlin şəkildə dua edib, hər bir ehtiyacınızı Ondan istəyin. Duada ədəbə riayət edin. Fəryad edərək çığırıb-bağırmayın. O, həddi aşanları sevməz”* **(Əraf surəsi, ayə: 55).**

Dua ilə bağlı təlqinlər digər ayələrdə də yer almaqdadır: *“Həqiqəti inkar edənlər xoşlanmasa da, siz dini yalnız Ona xas sayaraq saf və səmimi bir inancla sadəcə Allaha yalvarın (dua edin)”* **(Mömin (Ğafir) surəsi, ayə: 14).**

*“Sonsuz yaşam qaynağı Odur. Ondan başqa ilah yoxdur. Səmimi və saf bir inancla sadəcə Ona yalvarın (dua edin)!”* **(Mömin (Ğafir) surəsi, ayə: 65).**

Mömin (Ğafir) surəsində Allah *“Mənə dua edin ki, mən də qəbul edim”*, – deyə buyurur **(Mömin (Ğafir) surəsi, ayə: 60).**

Dua insanın Allah qarşısındakı əsas duruşudur. Furqan surəsinin 77-ci ayəsində duanın insanın varlıq, mövcud olma səbəbi olduğu bildirilir: *“Möminlərə de ki: “Əgər dualarınız olmasaydı, Rəbbim sizə nə üçün dəyər verərdi?”* **(Furqan surəsi, ayə: 77).**

Yəni istisnalar xaric, bəzi insanlar onlardan bir şey istəyəndə üzləri düşür, qaşqabaq asırlar, Allah isə Ondan bir şey istəyəndə xoşhal olur. Bu baxımdan dua edən qəlb birbaşa Allahla dialoq halındadır.

Qeyd etmək lazımdır ki, Quran inkara saplananları həqiqətə dəvətdə və təbliğ məsələsində ədəb qaydalarına xüsusilə əməl etməyi ciddi şəkildə təlqin edir: *"Allahdan başqasına yalvarıb-yaxaranları söyməyin ki, onlar da cəhalətin verdiyi nifrətlə Allahı söyməsinlər"* **(Ənam surəsi, ayə: 108).**

## Şəfaət məsələsi

Əvvəl də qeyd etdiyimiz kimi, müşriklər dinsiz deyildilər. Onlar tövhid dini xaricində başqa bir dini mənimsəyən dindar insanlar idi. Şirk dininin peyğəmbərlərin təbliğ etdiyi dindən fərqi Allahın yan-yörəsinə şəfaətçilər, vasitəçilər qoyması, Allaha qulluğu bu vasitəçi-şəfaətçilərin öhdəsinə ötürmələri idi. Şirk dininə görə, bu vasitəçi-şəfaətçilərin razılığı olmadan cənnətə getmək mümkün deyil. Halbuki Quranda şəfaətin yalnız Allaha məxsus olduğu bildirilir: *"Yoxsa onlar Allahı bir tərəfə qoyub, başqa şəfaətçilərmi tapdılar? ... Onlara de ki, bütün şəfaət tamamilə Allaha məxsusdur"* **(Zümər surəsi, ayə: 43-44).**

Şəfaətlə bağlı digər ayələrdə isə aşağıdakı kimi buyurulur: *"Hesab günü sizi Ondan qoruyacaq nə bir dost, nə də şəfaət edən birini tapa bilməyəcəksiniz"* **(Səcdə surəsi, ayə: 4).**

*"Qorxun o günün əzabından ki, heç kim başqasının əvəzindən heç nə ödəyə bilməz, kimsədən şəfaət qəbul edilməz, ondan heç bir şeyin əvəzi qəbul olunmaz və günahkar olan şəxslərə qiyamət günündə kömək edilməz"* **(Bəqərə surəsi, ayə: 48).**

*"Hər insanın aqibəti öz qazandıqlarından asılıdır. Yaxşılar istisna olmaqla... (günahkarlara) heç bir şəfaətçinin şəfaəti fayda verməyəcək"* **(Müddəssir surəsi, ayə: 38, 39, 48).**

*"...Onlar Allahın məmnun və razı olmadığı heç kimə şəfaət edə bilməzlər"* **(Ənbiya surəsi, ayə: 28).**

*"Onun nəzdində öz lehinə icazə verildikləri xaricində kimsə üçün şəfaət fayda verməz"* **(Səba surəsi, ayə: 23).**

*"Göylərdə və yerdə hər şey Onundur. Allahın izni olmadan kim Onun qatında şəfaət edə bilər?"* **(Bəqərə surəsi, ayə: 255).**

Ümumilikdə şəfaətlə bağlı bütün ayələr **"Allahın məmnun və razı olmadığı şəxslərə heç kim şəfaət edə bilməz"**, **"şəfaət**

**səlahiyyəti tamamilə Allaha məxsusdur"** mesajı çərçivəsində anlaşılmalıdır. Bu da şəfaətin Allaha məxsus bir səlahiyyətin insana həvalə edilməsi deyil, Allahın təqdir etdiyi mükafatın öz sahibinə verildiyini göstərir. Göründüyü kimi, mükafatı verən Allahdır. Mükafatı təqdim etmə izni verilən şəxs də bu şəkildə şərəfləndirilir. Yəni Allah birinə mükafat verərək, digərinə də verdirərək hər ikisini də şərəfləndirməkdədir. Dolayısı ilə, aşağıdakı ayədə də görəcəyimiz kimi, Allah dostları olsa belə bəzi insanlar tərəfindən müqəddəsləşdirilən və Allaha aid xüsusiyyətlərin yaraşdırıldığı şəxslərin Onun nəzdində vasitəçilik edəcəyinə və ya imtiyaza sahib olacağına dair bütün təsəvvürlər rədd edilir:

*"Allahdan başqa ilahi gücə sahib olduğunu düşündükləriniz varlıqları nə qədər istəyirsinizsə çağırın. Onlar göylərdə və yerdə zərrə qədər də olsun heç bir gücə sahib deyillər. Aralarında heç bir ortaqlıq olmadığı kimi, Allah onların arasından özünə yardımçı da təyin etməmişdir"* **(Səba surəsi, ayə: 22).**

Müqəddəsləşdirilən və ya şəfaət vermə imtiyazına sahib olduğu düşünülən peyğəmbərlərin (Hz. Nuh, Hz. İbrahim və s.) belə öz yaxınları barədə duaları nəinki qəbul edilməmiş, hətta bu barədə onlara xəbərdarlıq edilmişdir **(bu barədə bax: Hud surəsi, ayə: 37, 45-46; 75-76; Tövbə surəsi: 114; Muminun surəsi, ayə: 27; Mumtəhinə surəsi, ayə: 4).**

Bu barədə Yunis surəsinin 49-cu ayəsində qəti və konkret şəkildə bildirilir: *"De ki, Allah diləmədikcə mən özüm üçün belə olsa, nə fayda verəcək, nə də zərəri aradan qaldıracaq bir gücə sahibəm"* **(Yunis surəsi, ayə: 49).**

Mumtəhinə surəsində də Hz. İbrahimin öz atası ilə dialoqunda ibrətamiz nümunələr yer almaqdadır: *"Sənin üçün mütləq Allahdan əfv diləyəcəyəm. Lakin sənin lehinə Allahdan bir şey əldə etmək səlahiyyətinə sahib deyiləm"* **(Mumtəhinə surəsi, ayə: 4).**

Qeyd etmək lazımdır ki, insanlar Allahın adı zikr olunduğu zaman nə qədər dəyərli olursa olsun, önəmsəməzlər, lakin ilah halına gətirdikləri və ya şəfaətçi olaraq qəbul etdikləri şəxslərdən bir-iki cümlə deyildiyi zaman üzləri gülər və müjdələnmiş kimi olarlar. Bu barədə Qurani-Kərimdə belə buyurulur: *"Nə zaman Allah tək başına zikr olunsa, axirətə inanmayanların qəlbləri sıxılıb diksinərlər. Ondan başqa varlıqların adları zikr olunsa, müjdələnmiş kimi şadlıq edib sevinərlər"* **(Zümər surəsi, ayə: 45).**

Bunun da səbəbi aydındır, çünki bu kimi insanlar Quran oxumayıb, sadəcə ata-babadan öyrəndiklərinə inanırlar. Şirk dininin Quranda buyurulan dindən fərqi ondan ibarətdir ki, bu dində onların cənnət qəbzlərinin altında Allahın imzasından başqa, vasitəçilərin, şəfaətçilərin imzasının olmasına inanılır. Halbuki Quran və İslam dini bu qəbzlərin altında Allahdan başqa heç bir varlığın imzasını qəbul etmir.

Unutduğumuz bir şey var: *Allah bizə yetməzmi?* Həqiqətən də yalnız və yalnız O, bizə yetməzmi ki, digərlərini şəfaətçi qəbul edir, başqalarından yardım umuruq. Quranda açıq şəkildə buyurulur: *"Sizə dost lazımdırsa, dost olaraq Allah yetər, yardım lazımdırsa yenə Allah yetər"* **(Nisa surəsi, ayə: 45)**.

Qısacası, Allahdan başqa şəfaətçi axtarmaq Allahdan istəməyə üzü olmamaqdır.

## Allahı şəxsləşdirmək və Ona “kişi” imicinin verilməsi

Müsəlmanların əksəriyyəti Allahı şəxsləşdirərək, Onun kişi simasında olduğunu düşünürlər. Məsələn, söhbət edəndə, ***“o kişi hər şeyi görür, hər şeyi bilir və ya o kişi bilən məsləhətdir”*** deyə ifadələr işlədirik. Bu da tamamilə yanlış bir düşüncə olub, qədim xalqların mifologiyalarında yer alan əfsanələrlə bağlıdır. Məsələn, qədim Yunanıstanda Zevs, qədim Romada Apollon, qədim Misirdə Amon-Ra və s. tanrılar kişi olaraq təsəvvür edilirdi. Lakin unutmamaq lazımdır ki, Allah əsla cism deyil və heç bir cinsə məxsusluğu yoxdur. Nə kişidir, nə də qadın. Övlad sahibi deyil. Doğulmayıb, əsla tayı-bərabəri və bənzəri ola bilməz, təkdir.

Allahı “kişi” olaraq qəbul etmək bir növ onu “Ata” imicinə büründürür ki, bu da xristian inancından qaynaqlanan bir məsələdir. Məlum olduğu kimi, xristianlıqda İsa-Məsih Allahın oğlu kimi qəbul edilir. Oğul varsa, xanımın kimliyi məsələsi də istər-istəməz mübahisə yaradır. Belə məsələlər şirkin bir növü olduğu kimi, Ona kişilik imicinin verilməsi də şirkdən başqa bir şey deyil.

Qeyd etmək lazımdır ki, bu inanc İslamiyyət öncəsi dövrlərdə də mövcud idi. Müşriklərdə də Allaha kişi obrazı ilə baxılırdı. Məlum olduğu kimi, müşriklər Əl-Uzza, Əl-Lat və Əl-Mənat kimi bütlərə sitayiş edirdilər və Allahın qızları olaraq qəbul etdikləri bütlərə sitayişdə əsas məqsəd məhz onların sayəsində Yaradana yaxınlaşmaq idi. Bu barədə Zümər surəsinin 3-cü ayəsində göstərilir: *“Allahdan başqasını özünə dost və məbud seçib, onlara ibadət edənlər bəhanə gətirib: “Biz onlara bizi Allaha yaxınlaşdırıb, bizdən ötrü şəfaət etmələri üçün ibadət edirik”, – deyirlər”* **(Zümər surəsi, ayə: 3).**

Göründüyü kimi, bu bütlər müşriklərin nəzərində şəfaətçi simasına bürünsələr də, onların düşüncəsində Allahın qızları kimi fərqli bir inanc formalaşmışdı. Eyni zamanda müşriklər bütün mələkləri Allahın qızları olaraq qəbul edirdilər. Halbuki bu məsələ ilə bağlı Quranda göstərilir: *"Onlardan soruş: Qızlar Rəbbinin, oğlanlar da onlarınmı? Yoxsa biz mələkləri dişi olaraq yaratdıq, onlar da bunun şahidimi oldular? Diqqət edin, onlar öz uydurmalarına uyğun olaraq "Allah uşaq sahibi oldu", – deyirlər. Əlbəttə, yalan danışırlar"* **(Saffat surəsi, ayə: 149-153)**.

Digər ayələrdə isə göstərilir: *"Yoxsa O, yaratdıqları içərisindən qızları özü üçün götürdü, oğlanları sizəmi verdi?... Onlar mələkləri Rəhmanın qulları olan o varlıqları dişi olaraq təsəvvür etdilər. Yoxsa onların yaradılışına şahidmi oldular? Onların bu (yalançı) şahidlikləri qeyd olunacaq və bu səbəbdən hesaba çəkiləcəklər"* **(Zuhruf surəsi, ayə: 16; 19)**.

*"Heç düşündünmü, Lat, Uzza və üçüncüsü olan Mənatı (niyə onlara dişi adlarını verdiyinizi)? Demək, oğlanlar sizin, qızlar da Allahın, eləmi?* **(Nəcm surəsi, ayə: 19-21).**

Quranda bu kimi inanclara qarşı qəti hökm vardır: *"Allah onların bütün təsəvvürlərindən münəzzəhdir"* **(Saffat surəsi, ayə: 159)**.

Ən bariz hökm isə İxlas surəsidir: *"De ki, Allah təkdir. Bütün varlıqlar Ona möhtacdır, lakin O, heç bir şeyə möhtac deyil. O, nə doğmuş, nə də doğulmuşdur. Onun tayı-bərabəri və bənzəri də yoxdur"* **(İxlas surəsi, ayə: 1-4)**.

## Tarixdə Qurban ibadətləri və Qurban bayramının mahiyyəti

İslami termin olaraq **“Qurban”** – ərəbcə **“Udhiyə, yəni hədiyyə”** *“əmr buyurulan heyvanların Allahın razılığını qazanmaq və İlahi hüzura qovuşmaq məqsədiylə kəsilməsi”* şəklində ifadə olunur. Daha dəqiq bir ifadə ilə, qurban Allaha yaxın olmaq, Ona yaxınlaşmaq, İlahi hüzura qovuşmaqdır. Qurani-Kərimdə qurban kəsmək sadəcə həcc ibadəti yerinə yetirilərkən fərz qılınmışdır (bu barədə bax: 44, s. 16; 53, s. 3; 71, s. 272). Yəni qurban həccə gedən hacılar tərəfindən kəsilir. Qurban kəsməyi Allaha olan təslimiyyətin bir simvolu olaraq anlamaq lazımdır. Əlbəttə, qurban ilə verilən mesaj Allahın insana yaxınlaşması deyil, insanın Allaha yaxınlaşmasıdır. Amma bir məsələni xüsusilə dərindən dərk etmək lazımdır: Allah öz quluna, öz bəndəsinə onsuz da yaxındır. Bu barədə Qurani-Kərimdə açıqca buyurulur: *“Allah insana şah damarından daha yaxındır”* **(Qaf surəsi, ayə: 16).**

Allah insana şah damarından daha yaxın olsa da, əsas problem insanın Allaha nə qədər yaxın olmasıdır. İnsan birinci növbədə özünü dərk etməli, sonra Allaha yaxınlaşmalıdır. Verilən mesaj çox açıqdır: *Allahın insana bəxş etdiyi dünya malının insan ilə Rəbbi arasına girməsinə mane olmaq.*

Bu baxımdan qurban ibadəti insanın Allah tərəfindən ona bəxş edilən dünyəvi nemətlərdən Rəbbindən uzaqlaşmaq üçün deyil, Ona yaxınlaşmaq üçün istifadə etməsidir. Qurban sadəcə heyvanın kəsilməsi deyil, sahib olduğu sərvətin ehtiyac sahiblərinə paylanmasıdır. Sədəqə və yardım da bir qurbandır. Namaz, oruc, zəkat da qurbanın bir növü olub, ömrünü Allah rızası üçün Ona həsr etməkdir. Vətən yolunda şəhid olmaq da canın qurban edilməsidir. Öz qələmi ilə insanlığa işıq tutacaq əsərlərin yazılması, cəmiyyətin

maarifləndirilməsi də alimin bu yolda qurban olmasıdır.

Beləliklə, qurban bütün ibadətlərin ortaq adıdır. Əsas məsələ insanın dünya malının, maddiyyatın əsirinə çevrilməməsi, dünyəviləşməməsidir. İbadətləri ibadət edən insanın niyyətidir. İbadətlərin hikməti onun məna və mahiyyətini kəşf etmək, yaradılış qayəsini dərk etməkdir. Muminun surəsində də göstərildiyi kimi, *"Yoxsa Bizim sizi əbəs yerə yaratdığımızı və (dirilib) hüzurumuza qayıtmayacağınızımı fikirləşirsiniz?"* **(Muminun surəsi, ayə: 115).**

Niyyət insanın məsuliyyət şüurudur. Bu niyyət qurban ibadətinə də aiddir. Bu ibadətin hikməti qurbanın kəsilməsindəki məqsəd və niyyəti açıqlayan Həcc surəsinin 36 və 37-ci ayələrində bariz şəkildə bildirilir: *"Biz qurbanları (böyükbaş heyvanlar, dəvələr) sizin üçün özündə necə xeyirlər ehtiva edən Allahın nişanələrindən biri olaraq (ibadət) qıldıq. Sıra-sıra diz çökdürülən heyvanları qurban edərkən Allahın adını zikr edin. Onların böyrü yerə gəlincə, özünüz də ondan yeyin, ehtiyacını bəlli edən və ya etməyən hər kəsə də verin. Biz onları sizin əmrinizə amadə etdik ki, şükür edəsiniz. Onların (qurbanların) nə ətləri, nə də qanları Allaha çatmaz. Ona çatan yalnız sizin təqvanızdır"* **(Həcc surəsi, ayə: 36-37).**

Göründüyü kimi, bu ayələr qurbanın hikmətini onun əti və qanı kimi maddi ünsürlərdə deyil, mənəvi ünsürlərdə görüb dəyərləndirməyimizi təlqin edir.

Qurban bir çox ibadətlər kimi Hz. Məhəmməd dövründə ortaya çıxmış bir ibadət deyil. Qurani-Kərimdəki ayələr işığında əvvəlki ümmətlərdə də qurban ibadətinin olduğunu görmək mümkündür: *"Biz hər ümmət üçün qurban kəsməyi bir ibadət qıldıq"* **(Həcc surəsi, ayə: 34).**

Hz. Adəmin iki oğlu arasında cərəyan edən hadisələrlə bağlı Maidə surəsinin 27-ci ayəsində qurban haqqında məlumat verilir. Qurani-Kərimdə adları qeyd olunmasa da, Habil və Qabil olaraq bilinən Adəmin övladları Allaha qurban təqdim etmişdilər. Töv-

ratda qeyd olunduğuna görə, heyvandarlıqla məşğul olan Habilin qurbanı qəbul olunmuş, əkinçiliklə məşğul olan Qabilin qurbanı isə qəbul olunmamışdı. Burada diqqət edilməsi vacib olan məsələ Qabilin verdiyi qurbanın əkinçilik məhsulu olduğundan deyil, məhsulun ən pisini verməsiydi. Qabilin qardaş qatili olmasıyla nəticələnən bu prosesi başladan duyğusal sapmanın adına qısqanclıq və xəsislik deyilə bilər, lakin bunun əsl adı dünya sevgisi idi (53, s. 4-5).

Əsas məsələ Allaha yaxın olmaq üçün təslimiyyətə hazır olmaqdır. Bu təslimiyyət Hz. İbrahim ilə Hz. İsmayılın timsalında görülə bilər. Burada qurban olan əslində qoç deyil, Hz. İbrahim və Hz. İsmayıldır. Quranda da qeyd olunduğu kimi, Hz. İbrahim yuxusunda öz oğlunu (İsmayılı) qurban edərkən görür. Həqiqətdə də bunu gerçəkləşdirmək istəyir, lakin oğluna bədəl olaraq müqabilində ona möhtəşəm bir qurban verilir **(Saffat surəsi, ayə: 102-107).**

Ayədən də anlaşıldığı kimi, Hz. İbrahim dünyada ən çox sevdiyi yeganə oğlunu Allah üçün qurban edə biləcəyini və beləliklə, öz təslimiyyətini isbat etmişdir. Burada vermək istənilən mesajın mahiyyətini dərindən dərk etmək lazımdır. Ümumiyyətlə, qurban ibadəti ilə ilahi mesajın mahiyyəti nədir? Məsələnin mahiyyətinin dərindən anlaşıla bilməsi üçün qurban ibadətinin tarixçəsinə nəzər salmağı vacib hesab edirik.

Qurban ibadəti bəşər tarixi qədər qədimdir. Hələ qədim dövrlərdə insanlar bəzi heyvanları müqəddəsləşdirib onların adına qurbanlar kəsərdilər. Qədim Misirdə, qədim Yunanıstanda, qədim Romada, qədim İranda, Hindistanda, Avropada, hətta qədim türklərdə öküzlər, inəklər, boğalar, pişiklər, aslanlar, ilanlar, timsahlar, canavarlar müqəddəsləşdirilmiş, onlara sitayiş edilmişdir. Biz burada hər bir ölkəyə və xalqa aid olan dini inamlar barəsində ayrı-ayrı məlumat vermək niyyətində deyilik. Qısa şəkildə bəzilərinə yer verməyi məqsədəuyğun hesab edirik. Məsələn, qədim Misirdə Apis öküzü ilahi gücü təmsil edirdi. Bu öküz Tanrı Ptah ilə Osiri-

sin ruhunu daşıyırdı. Başqa bir ifadə ilə, Apis Ptah və Osirisin bədənləşmiş forması idi. İnək təsvirli Hathor və ya Nut da Səma tanrıçası idi (89; 92; 94; 97).

Qurani-Kərimdə də Hz. Musa dövründə İsrailoğullarının buzova *(danaya)* sitayişindən söz edilir **(Əraf surəsi, ayə: 148; Taha surəsi, ayə: 85-98).** Məsələ burasındadır ki, insanlar o dövrdə heyvana ibadət edərkən bir növ onların quluna çevrilirdilər. Günümüzdə də bəzi ölkələrdə yayğın olan bu ənənə əvvəlkindən heç də fərqli deyil. Elə ölkələr var ki, hələ də heyvanlara müqəddəs və ya Tanrı gözüylə baxılır, ətləri də yeyilməz. Heç təsadüfi deyildir ki, Hindistanın bəzi bölgələrində inək müqəddəs qəbul edilib, toxunulmaz sayılır. Bu ölkədə camiyə girən inəkləri qovan müsəlmanlar toxunulmaz Tanrının rahatlığını pozdu deyə və ya bir müsəlman ət ehtiyacını qarşılamaq üçün inək, dana kəsdi deyə aralarında ölümlə nəticələnən münaqişələr yaşanır. Hindistanda bir inək və ya inəklər yola çıxdıqları zaman, şütüyən maşınların hərəkəti alt-üst olur. İnəklər qatar yolunda yatanda, insanlar onların özgür iradəsinə müdaxilə etməyərək müqəddəs hesab etdikləri bu heyvanların kefləri nə zaman istərsə o zaman qalxarlar deyə düşünürlər. Halbuki qatarın aşması ilə içindəki insanların hansı vəziyyətlə üzləşəcəkləri, onların aqibəti insanları maraqlandırmır. İnsanlıq şərəfini unudub heyvanlara sitayiş edən, dolayısı ilə özlərini müqəddəsləşdirdiyi heyvanlardan daha aşağı görən insanların günümüzdə də mövcud olması Quranın universal, bütün zamanlara müraciət edən bir kitab olduğunu sübut edir.

Quranın ən uzun surəsi olan **Bəqərə *(İnək)* surəsi**nə məhz bu adın verilməsinə səbəb olan inəklərə, öküzlərə ibadət edilməsinin tarixi, müasir və dünyəvi mahiyyəti dəyərləndirilərsə, bu surə məsələyə sırf qədim Misir və Hz. Musa dövrünə aid tarixi məlumat kimi deyil, eyni zamanda hər dövrdə hər bir coğrafiyaya, hər bir əraziyə şamil olan bir problemin ortaya qoyulması kimi yanaşır.

Göründüyü kimi, müasir dövrdə də heyvanlara ibadət edən və

onların quluna çevrilən insanlar mövcuddur. Bu baxımdan Həcc surəsinin 36-37-ci ayələrini diqqətlə təhlil etmək lazım gəlir. Yuxarıda da qeyd edildiyi kimi, bu ayələr insana qurbanın hikmətini onun əti və qanı kimi maddi ünsürlərdə deyil, mənəvi ünsürlərdə görüb dəyərləndirməyi təlqin edir. Burada düşündürücü amil **"Biz onları sizin əmrinizə amadə qıldıq"** ifadəsidir. Qurana görə, Allah çayları, ulduzları, Günəşi və Ayı, gecəni və gündüzü, dənizləri, yerdə və göydə olan hər şeyi insanın əmrinə vermişdir.

*"Ey insanlar, siz görmürsünüz ki, Allah göylərdə və yerdə olan hər şeyi sizin əmrinizə amadə qılmışdır? Allah zahiri və batini nemətləri sizə ehsan etmişdir"* **(Loğman surəsi, ayə: 20).**

*"İnsanlar üçün qüdrətimizin bir nişanəsi olaraq evcil heyvanlar yaratdığımızı və bu sayədə onlara sahib ola bildiklərini görmürlər? O heyvanları insan üçün yaratdıq ki, bir qismini minsinlər, bir qismini də yesinlər. İnsan üçün o heyvanların cildlərində, boyunlarında, ətlərində mənfəət və içmək üçün dadlı süd vardır"* **(Yasin surəsi, ayə: 71-73).**

*"Allah səmaları və yeri yaratdı. Səmadan su göndərdi, sizin üçün ruzi olaraq meyvələri yetişdirdi. Gəmiləri sizə tabe etdi ki, dənizdə üzəsiniz və çayları sizə tabe etdi. Seyr edən Günəşi və Ayı sizə tabe etdi, gecəni və gündüzü sizə tabe etdi. İstədiyiniz şeylərin hamısını sizə bəxş etdi"* **(İbrahim surəsi, ayə: 32-34).**

*"Allah öz kamil qüdrəti ilə dənizi sizə tabe etdi ki, onun əmri ilə dənizdə gəmilər üzüb sizi arzunuza çatdırsınlar. Dənizdə gəmilərin səbəbi ilə səfər edib, Allahın lütf və rəhmətini istəyib, ruzi əldə edəsiniz və əlbəttə, gərək Allahın bu nemətlərinə şükür edəsiniz. Allah öz kamil qüdrəti ilə göylərdə və yerdə olan nə varsa öz lütfü olaraq sizin əmrinizə amadə qılmışdır"* **(Casiyə surəsi, ayə: 12-13).**

*"Yer üzünü sizin üçün əmrə amadə qılan Odur. Artıq onun hər tərəfini gəzin və Onun ruzisindən faydalanın, amma Ona döndürüləcəyinizi əsla unutmayın"* **(Mülk surəsi, ayə: 15).**

Bu ayələrdən ortaya çıxan məqam budur ki, Allah göyləri, yeri, ulduzları, Günəşi, Ayı, gecəni, gündüzü, heyvanları və s. insanın əmrinə amadə qılarkən kimin kim üçün yaradıldığı anlaşılsın deyə varlıq iyerarxiyasını **(məratibu'l-vücud)** ortaya qoymuşdur (53, s. 6).

Qurban ibadətində də mesaj olduqca açıqdır: **İnsanlar heyvanlara tabe deyil, heyvanlar insanlara tabedir.**

Məhz varlıq iyerarxiyası öz nizamını qorusun deyə qurban ibadəti vacib qılınmışdır. Bu baxımdan Qurban bir varlıq iyerarxiyasıdır. Şirk məhz insanın ilahi yaradılış iyerarxiyasındakı yerini unutması nəticəsində gerçəkləşir. Quranda varlıq iyerarxiyasının ortaya qoyulmasında əsas məqsəd dolaylı olaraq şirkin ortadan qaldırılması, insanın öz dəyərini anlaması və varlıq mərtəbələrinin mahiyyətinin dərk edilməsidir.

Varlıq iyerarxiyasının ortaya qoyulmasında digər əsas məqsədlərdən biri də insan qurbanının qarşısının alınmasıdır. Məlum olduğu kimi, əvvəlki dövrlərdə ən qiymətli hədiyyə kimi Tanrıya insanlar qurban edilirdi. Xüsusilə, bəzi qövmlərdə uşaqların, bakirə qızların, günahkar və kölələrin, əsirlərin, ilk doğulan uşaqların qurban edilməsi adəti geniş yayılmışdı. Qədim Misirdə hər il Nil çayına bakirə qız qurban edirdilər (53, s. 7; 88; 89).

Friqyalılarda insanların başının kəsilməsi ilə qurban adətlərinə dair məlumatlar mövcuddur (89).

Finikiyalılarda müharibəyə gedərkən qələbə qazanmaq üçün çox sayda uşaq tanrılara qurban edilirdi. Qədim Romada da insan qurbanları ayinlərinə dair faktlar var (91).

Maya, Aztek və İnkalarda insanların qurban edilməsi başlıca ayinlərdən idi. Xüsusilə azteklər ildə təxminən 50.000 insanı qurban edirdilər. Amerika qitəsində Günəş Tanrısının şəfqətini qazanmaq, onun mərhəmətinə nail olmaq üçün insanların ürəyini yeyən və qanının içilməsinə inanan xalq dini ayinlərdə qurban olaraq daha çox məhkumları və əsirləri seçirdilər. Yağış tanrısı Tlalok üçün

4-7 yaşları arasındakı uşaqların başları kəsilərək qurban ayinləri gerçəkləşdirilirdi. 1487-ci ildə Mayor məbədinin açılışında 20 min insan qurban edilmiş və bu mərasim 4 gün 4 gecə davam etmişdi (89, 90).

İslamiyyət öncəsi cahiliyyə ərəblərində də oğlanların, qızların və əsirlərin qurban edildiyinə dair məlumatlar mövcuddur. Bununla yanaşı, qurban üçün adaqlar da verilirdi. Qeyd etmək lazımdır ki, Məhəmməd peyğəmbərin atası Abdulla da Əbdülmütəllibin 10 övladı içərisindən seçilmiş bir adaq idi. Lakin 100 dəvə qarşılığında Abdulla xilas olmuşdu (38, s. 145-146; 104).

Yəhudilərdə də ilk doğulan uşaqların Tanrıya aid olduğu düşünüldüyündən bu ayin tərəddüdsüz yerinə yetirilirdi. Hz. İbrahimin öz yuxusuna əsasən ilk övladını qurban vermək istəməsiylə bağlı qissə də həmin qəbildəndir (89).

Burada bir məsələyə xüsusilə diqqət yetirmək lazımdır. Allah Hz. İbrahim vasitəsilə bəşəriyyətə önəmli bir mesaj göndərmişdir ki, bunun da əsas mahiyyəti insanların qurban edilməsinin qarşısının alınması və buna son verilməsi idi. Belə demək mümkündürsə, Hz. İbrahim bu hadisə ilə bəşər tarixində bir inqilab gerçəkləşdirdi və varlıq iyerarxiyasını öz yoluna qoymuş oldu.

Bu baxımdan varlıq iyerarxiyasının dərk edilməsi insanlar üçün olduqca vacib bir məsələdir. Qurban ibadəti bu iyerarxiyanın önəmini vurğulayan simvolik bir ibadətdir. Bu mənada kəsilən heyvanlara **"qurban"** adının verilməsi məcazidir. Qurbanın mahiyyətinin açıqlandığı Həcc surəsinin 36 və 37-ci ayələri varlıq iyerarxiyasından başqa bir şey deyil. Qurban **"Allahım, sənin varlıq üçün qoyduğun iyerarxiyanı pozmayacağam"** mənasında verilən bir söz, gerçəkləşdirilən bir ibadətdir. Bu iyerarxiya pozularsa, insanlara nemət olaraq göndərilənlər, yəni heyvanlar insanların tanrısına çevrilərlər.

Qurban bayramına gəlincə, bu bayram **"heyvanların kəsilməsi bayramı"** kimi bilinir və tətbiq olunur. Günümüzdə bu iba-

dətin mahiyyəti kifayət qədər dərk olunmur. Bir növ qurban ibadəti Allaha təslimiyyətdən və ilahi mesajdan uzaqlaşaraq **"ət bayramı"**na çevrilmişdir. Halbuki əvvəl də qeyd edildiyi kimi, qurban bütün ibadətlərin ortaq adıdır. Allaha yaxınlaşmaq üçün edilən hər bir ibadət, ehtiyacı olan insanlara göstərilən yardım qurbandır. Qurban bayramının İslama uyğun adı **"yoxsula, imkansıza, yetimə yardım bayramı"** olmalıdır.

Bir məsələni də xüsusilə nəzərə çatdırmaq lazımdır ki, qurbanlıq heyvan kəsmək İslamda vacib olmayıb, sadəcə həcc ibadəti yerinə yetirilərkən fərz qılınmışdır. Əsas məqsəd həcc günlərində Məkkə və ətrafında bir araya gələn böyük insan kütləsinin rahatlıqla qidalanması, yemək-içmək ehtiyacının qarşılanmasıdır. Məsələyə diqqətlə yanaşılarsa, qurban kəsməklə bağlı ayələr əsas olaraq Həcc surəsində yer alır. Lakin bu, o demək deyildir ki, həccə getməyən insanların qurban kəsməsi qadağandır. Xeyr! Sadəcə olaraq fərz deyil.

Uzun illərdir ki, qurban kəsmənin əsas islami məqsədi olan "yoxsula və imkansıza yardım" bayramı unutdurulmuş, bundan milyonlarla məbləğlər qazanan bəzi ticarət sektorları Qurban bayramını İslamın ən böyük fərz ibadətinə çevirmişdir (71, s. 273). Əlbəttə ki, diləyən hər bir müsəlman qurban kəsə bilər, amma bu ibadətin sadəcə heyvan kəsməkdən ibarət olmadığını anlamalı, heyvanın kəsilməsi yerinə ehtiyac sahiblərinə başqa yollarla da yardım edə biləcəyini dərk etməlidir. Arzu edən hər bir müsəlman qurbanlıq heyvan kəsmək yerinə, o heyvanın dəyəri qədər olan pul miqdarını yoxsula və ya xeyir qurumlarına verə bilər. Lakin bu yardım yoxsulun, imkansızın qüruru və ya şəxsiyyəti zədələnmədən edilməlidir. Hətta cəsarətlə söyləmək mümkündür ki, bu əməl heyvan kəsməkdən daha məqbuldur. Məsələnin mahiyyəti Həcc surəsinin 36-37-ci ayələrində öz əksini tapmışdır: *"Onların (qurbanların) nə ətləri, nə də qanları Allaha çatmaz. Ona çatan yalnız sizin təqvanızdır"* **(Həcc surəsi, ayə: 36-37).**

Bu ayədən anlaşıldığı kimi, əsas ibadət ət və ya qan axıtmaq deyil, kəsilən heyvandan yoxsulun əldə etdiyi yarardır. Burada xeyir əmələ, saf niyyətə, insanın daxili-mənəvi dünyasındakı yaxşılığa, paylaşmağa, daha dəqiq bir ifadə ilə desək, təqvaya diqqət çəkilir. Belə bir vəziyyətdə çox rahatlıqla söyləmək mümkündür ki, yetimin, yoxsulun və ya imkansızın ehtiyacı ət yerinə, başqa bir şeylə də təmin oluna bilər. Məsələn, əməliyyat olmaq istəyən imkansız xəstələrə ət yerinə pul vermək və ya lazımi dərmanları təmin etmək həyat kitabı olan Quranın ruhuna daha uyğundur. Bu daha məqbul bir qurbandır, çünki bu qurbanın bədəli bir can qurtara bilər. Quranda da buyurulduğu kimi, *"kim bir həyat qurtararsa, bütün bəşəriyyəti xilas etmiş olar"* **(Maidə surəsi, ayə: 32)**.

Beləliklə, Qurban bayramı heyvan kəsmək bayramı deyil, yetimlərin, yoxsulların və imkansızların imkanı olan şəxslərdən pay aldığı bir bayramdır. Qeyd etmək lazımdır ki, bu yardımlaşma, Allah rızası üçün edilən köməklik sadəcə Qurban və Ramazan bayramları ilə məhdud qalmamalıdır. Qurani-Kərim sosial həyatın vacibatı sayılan yardımlaşmaların davamlı olmasını, yaxşılıq və yardım məsələsində insanların daim bir-biriləri ilə yarışmalarını təlqin etməkdədir (bu barədə bax: **Bəqərə surəsi, ayə: 148; Maidə surəsi: 2, 48**).

Allah insanı öz malının qulu deyil, sahibi olmağa çağırır ki, bunun da mənası paylaşmaq, əl tutmaq, imkansızlara yardım etmək, acları doyurmaqdır **(Bu cür yaxşı əməlləri təlqin edən ayələr üçün bax: Zuha surəsi, ayə: 9-10; Leyl surəsi, ayə: 5-7, 17-21; İnsan surəsi, ayə: 7-12).**

Öz məsuliyyətinin fərqində olan insan bunu bilməlidir ki, Allah öz bəndəsindən əsla almaq üçün istəməz, əksinə, ona daha çoxunu vermək üçün istər: *"De ki, həqiqətən, istəyən bəndələrinə ruzi verməyi də, məhdudlaşdırmağı da diləyən Rəbbimdir. Amma siz onun yolunda nə qədər xərcləsəniz, Allah onun yerini doldurar. O, ruzi verənlərin ən xeyirlisidir"* **(Səba surəsi, ayə:**

**39).**

Digər ayələrdə də göstərilir ki: *"...Sizə verdiyimiz ruzilərdən gizli və açıq şəkildə Allah yolunda xərcləyənlər əsla kasad olmayacaq bir qazanc əldə etməyi uma bilərlər. Nəticədə Allah onlara qarşılığını tam olaraq ödəyəcək. Üstəlik, öz lütfündən və kərəmindən də artıracaq"* **(Fatir surəsi, ayə: 29-30).**

*"Kim Allaha qarşı məsuliyyətinin fərqində olsa, onun üçün qapı açılar və Allah heç gözləmədiyi yerdən ona ruzi verər. Kim Ona təvəkkül etsə (güvənsə), Allah ona yetər"* **(Talaq surəsi, ayə: 2-3).**

Adi riyazi hesablamayla 40-dan 1-ni çıxsaq, 39 qalar. İman riyaziyyatında isə 40-dan 1 çıxılsa, 39 deyil, 400 qalar. Bunun adı **"bərəkət"**dir. Bunu anlamaq üçün məntiq deyil, iman lazımdır.[2]

Həqiqətən də Allaha iman edib Onun yolunda xərcləməmək, malını sərf etməmək Allaha inanıb Ona güvənməmək kimidir. Əgər insan üzünü sərvətə dönərsə, arxasını Allaha dönmüş olar. Belə bir vəziyyətdə insan sərvətin sahibi deyil, köləsinə çevrilər. Bu barədə Quranda ibrətamiz nümunələr yer almaqdadır: *"Unutmayın ki, Qarun da Musa qövmünə mənsub biri idi. Lakin onların çiyinlərində yüksələrək həddini aşdı. Biz ona sadəcə açarlarını bir dəstə güclü adamın zorla daşıya biləcəyi xəzinələr vermişdik. Bir gün qövmü belə dedi: "Malınla qürrələnmə! Allah qürrələnənləri əsla sevməz. Gəl, Allahın sənə verdiklərini doğru yolda sərf edərək axirətini qazan. Dünyadakı nəsibini də unutma. Allah sənə sərvət verməklə yaxşılıq etdiyi kimi, sən də başqalarına yaxşılıq et və yer üzündə həddini aşaraq fitnə-fəsad törətməyə can atma. Çünki həqiqətən, Allah fitnə-fəsad törədənləri sevməz". Qarun dedi: "Hər kəs yaxşı bilsin ki, mən öz elmim (biliyim) və bacarığım sayəsində bu var-dövlətə sahib oldum". Məgər o, bilmirdimi ki, Allah ondan əvvəlki nəsillər içərisindən özündən daha qüvvətli və daha varlı*

---

[2]Bu təhlil Türkiyənin məşhur ilahiyyatçı alimi Mustafa İslamoğluna məxsusdur.

*olan neçə kəsləri həlak etmişdir? Artıq boğazına qədər günaha saplananlar öz günahlarından dolayı sorğu-sual olunmazlar. Bir gün (Qarun) faxir libas geyinib ehtişam içində öz qövmünün qarşısına çıxdı. Dünyaya həris olanlar dedilər: "Kaş Qaruna verilən var-dövlət qədər bizə də veriləydi! O, həqiqətən də xoşbəxt qismət sahibir!" Lakin elm sahibi və elmin qayəsini idrak edən şəxslər dedilər: "Vay halınıza! İman gətirib yaxşı əməl edən kimsələr üçün Allahın mükafatı daha xeyirlidir. Bu nemətə səbir edənlərdən başqası qovuşa bilməzlər. Nəhayət, Qarunu da, onun sarayını da yerin dibinə gömdük. Allahdan başqa heç kim ona yardım edə bilməzdi (amma ona Allah da yardım etmədi). Çünki o, yardıma layiq deyildi. Dünən onun yerində olmaq istəyənlər ertəsi gün belə deyirdilər: Vay, biz heç bilməmişik. Sən demə, diləyənin ruzisini artırmağı, diləyəninkini də məhdudlaşdırmağı diləyən Allah imiş. Əgər Allah bizə lütf etməsəydi, yəqin ki, bizi də yerə gömərdi. Sən demə, nankorlar əsla düzəlməzlər (islah olmazlar)"* **(Qəsəs surəsi, ayə: 76-82).**

Bu ayələrdə bəhsi keçən Qarun sərvətə sahib olmanın deyil, ona aid olmanın prototipidir. O, sərvəti imtahan vasitəsi olan bir əmanət kimi deyil, mütləq bir mülkiyyət olaraq gördü. Sərvətin sadəcə "alınan" deyil, "verilən" bir şey olduğunu anlamadı. İşin mahiyyəti bundan ibarətdir ki, Qarun mütləq mənada sərvətə sahib olduğunu hesab edirdi, amma sərvətin köləsinə çevrildi. Qeyd etmək lazımdır ki, yuxarıda verilən Qarun nümunəsi bu ayələrlə tarixi olmaqdan çıxıb bütün zamanlara xas olan bir ibrət vəsiqəsinə çevrilmişdir.

Zümər surəsində də buna bənzər bir nümunə yer alır: *"Nə zaman insanın başına bir zərər (sıxıntı) gəlsə, Bizə yalvarar. Daha sonra dərgahımızdan ona bir nemət əta etdikdə: "Bu sərvətə mən sadəcə və sadəcə öz biliyim və bacarığım sayəsində nail oldum", – deyər. Amma xeyr, əksinə, bu bir imtahandır. Lakin onların əksəriyyəti bunu cahilliyi üzündən anlamazlar"*

**(Zümər surəsi, ayə: 49).**

Bu baxımdan insan var-dövləti, malı, sərvəti mütləq bir mülkiyyət olaraq deyil, imtahan vasitəsi olan bir əmanət kimi görməlidir. Halbuki Allah üçün vermək, onun yolunda sərf etmək əslində itirmək deyil, əksinə, qazanmaqdır.

*"Allah yolunda var-dövlətini sərf edənləri böyük bir mükafat gözləyir... (Ey insanlar!) Göylərin və yerin mirasının (bütün mülkün, sərvətin) sadəcə Allaha aid olduğunu bildiyiniz halda, nəyə görə Allah yolunda var-dövlətinizi xərcləmirsiniz?... Kim Allaha könül xoşluğu ilə borc vermək və qarşılığında əvəzinin qat-qat artmasını istər? Həmin kəsləri qiymətli bir mükafat gözləyir"* **(Hədid surəsi, ayə: 7, 10).**

Allah yolunda heç bir qarşılıq gözləmədən xərcləmək Ona borc vermiş kimidir. Allaha borc vermək (Allah yolunda xərcləmək) əsl ərdəmlikdir. Ərdəmlik isə istər dar zamanlarda, istərsə də firavan vaxtlarda öz yaxınlarına, yetimlərə, yoxsullara, yolda qalanlara, möhtaclara könül xoşluğu ilə yardım etmək, öz malından sərf etməkdir **(bax: Bəqərə surəsi, ayə: 177).**

Allaha borc vermək Ona güvənmək, etimad etməkdir. Etimad imanın əxlaqi qarşılığıdır. Bunun üçün borc verən insan içindən gələrək bunu etməli, verdiyini hiss etdirməməli, verib minnət qoymamalı və qarşılıq gözləməməlidir: *"Allah yolunda mallarını sərf edənlər, heç bir kəsə minnət qoymadan yardım edənlər öz mükafatlarını Allahın qatında tapacaqlar"* **(Bəqərə surəsi, ayə: 262).**

Minnət qoyulan və könlü incidilərək göstərilən yardım Allah üçün deyil, göstəriş üçün edilən yardımdır. Allahın gördüyünə bütün qəlbi ilə inanan bir insanın sırf başqaları görsün deyə yaxşılıq etməsi o yaxşılığın əsaslandığı əxlaqi dəyərləri tamamilə pozar. Bu isə insanın özünü aldatmasından başqa bir işə yaramaz. Bu barədə Qurani-Kərimdə insanlara açıq şəkildə xəbərdarlıq edilir: *"Siz ey iman edənlər! İnsanlara göstəriş üçün riyakarlıqla malını xərcləyən, Allaha və axirət gününə inanmayan şəxs kimi, minnət qo-*

*yaraq və könül incidərək yardımlarınızın nəticəsini puç etməyin. Belə şəxslərin vəziyyəti üzərində bir az torpaq olan qayaya bənzər ki, şiddətli bir yağış o torpağı yuyub aparar və qayanı çılpaq bir daş halına salar. Bu kimi şəxslər etdikləri işlərdən heç bir savab qazanmazlar*" **(Bəqərə surəsi, ayə: 262).**

İçindən gələrək könül xoşluğu ilə edilən yaxşılıqların və göstərilən yardımların qarşılığının artıqlaması ilə qaytarılacağı barədə Quranın digər ayələrində çoxlu nümunələr vardır: *"...Allaha gözəl borc verənlərə gəlincə, (verdikləri) artıqlaması ilə geri qaytarılacaq və mükafatlandırılacaqlar"* **(Hədid surəsi, ayə: 18).**

*"Allaha gözəl borc verin . Öz adınıza nə qədər xeyir işləsəniz, Allah qatında onun daha qiymətli və daha böyük mükafat olduğunu görəcəksiniz"* **(Muzzəmmil surəsi, ayə: 20).**

*"Əgər Allaha könül xoşluğu ilə gözəl borc versəniz, Allah onu qat-qat artıraraq sizə qaytaracaq və sizi bağışlayacaqdır"* **(Təğabun surəsi, ayə: 17).**

*"Əgər sən özün ümid qapısı olan Rəbbinin dərgahından gələcək bir rəhmətə möhtac (imkansız vəziyyətdə) olduğun halda, kömək göstərilməsi lazım olan şəxslərə (ehtiyac içində olanlara, möhtaclara) yardım etmək istəsən, amma imkanın olmadığı üçün bunu bacarmasan, ən azından onlara xoş söz de"* **(İsra surəsi, ayə: 28).**

Heç təsadüfi deyildir ki, Quranda insanın daxilini rahatladan xoş sözün minnət vurularaq edilən yardımdan daha xeyirli olduğu bildirilir **(Bəqərə surəsi, ayə: 263).**

Ümumiyyətlə, Qurani-Kərimdə yuxarıda da qeyd edildiyi kimi, xeyir əmələ, saf niyyətə, insanın daxili-mənəvi dünyasındakı yaxşılığa, paylaşmağa, daha dəqiq bir ifadə ilə desək, təqvaya dönə-dönə və xüsusi olaraq diqqət çəkilir ki, bu məsələyə aydınlıq gətirməyi son dərəcə vacib hesab edirik.

Qurani-Kərimin əksər surələrində **təqva** ilə bağlı ayələrə yer verilsə də, insanların əksəriyyəti mahiyyətini anlamadan bu

məsələyə fərqli nöqteyi-nəzərdən və prizmalardan yanaşırlar. İnsanlar arasında yayğın olan düşüncəyə görə, bütün gününü məscidlərdə keçirmək, tez-tez həccə və ya ümrəyə getmək, dəstəmazsız gəzməmək, müəyyən dini ibadətləri yerinə yetirmək təqva hesab olunur. Qeyd etmək lazımdır ki, bütün bunlar sadəcə dini rituallardır. Müxtəlif təfsirçilər tərəfindən təqvaya dair fərqli təriflər verilir, amma Türkiyənin məşhur ilahiyyatçı alimi Mustafa İslamoğlu və yapon alimi Toşihiko İzutsunun yanaşmaları olduqca düşündürücü və maraqlıdır. Bu iki alim təqvanı **"vicdanın saleh əməli"**, **"məsuliyyət şüuru"** olaraq xarakterizə edirlər (114).

Həqiqətən də təqvanı **"saleh əməl, Allah qarşısında məsuliyyətinin fərqində olmaq, məsuliyyət hissini dərk etmək, eyni zamanda bəşər qarşısında məsuliyyətini anlamaq"** şəklində dəyərləndirmək olduqca düzgün yanaşmadır. Məsuliyyətinin fərqində olan, məsuliyyət daşıyan şəxs müttəqi, yəni təqvalı insan, saleh əməl sahibi adlanır. İnsanı təqvaya, yəni məsuliyyət şüuruna çatdırmayan hər hansı bir ibadət məqsədinə çatmış sayılmaz. Məqsədinə çatmayan ibadətlər isə Mustafa İslamoğlunun təbirincə desək, məktubu olmayan zərfə bənzərlər (114).

Təqva sevginin ən yüksək zirvəsidir, insanın Allah qarşısında məsuliyyətini dərk etməsidir. Heç təsadüfi deyildir ki, Allah öz qatında ən xeyirli və ən dəyərli libasın təqva libası olduğunu bildirir **(Əraf surəsi, ayə: 26).**

Digər ayələrdə də təqva, yəni məsuliyyət şüuru ilə bağlı insanlara belə xitab olunur: *"Allaha çatacaq olan yalnız sizin təqvanızdır"* **(Həcc surəsi, ayə: 37).** *"Gücünüz çatdığı qədər Allaha qarşı təqvalı olun!"* **(Təğabun surəsi, ayə: 16).** *"Şübhəsiz, Allah qatında sizin ən üstün və hörmətli olanınız, Ona qarşı təqvalı olanınızdır"* **(Hücurat surəsi, ayə: 13).**

Əlbəttə ki, Allah qarşısında məsuliyyətini dərk edən insan bütün cəmiyyət, fərd, öz kollektivi, valideynləri, ailəsi və övlad-

ları qarşısında, hətta təbiət qarşısında məsuliyyət daşıyır. Qurana görə, təqva paylaşılan bir şeydir. Paylaşılan hər bir xeyir əməl, hər bir yaxşılıq kimi təqva da paylaşıldıqca artar. Qurani-Kərimdə Allah insanlara yaxşılıq etməkdə, xeyir işlərdə, ərdəmlikdə, dürüstlükdə və təqvada bir-biriləriylə yardımlaşmağı, həmrəy olmağı, yaxşılıq və yardım məsələsində daim bir-biriləri ilə yarışmalarını təlqin etməkdə, insanları günah işlərdən və düşmənçilik etməkdə bir-birilərinə köməklik göstərməkdən çəkindirməkdədir **(**bu barədə ətraflı bax: **Bəqərə surəsi, ayə: 148; Maidə surəsi: 2, 48**).

"Təqvada yardımlaşmaq və həmrəy olmaq, yaxşılıq və yardım məsələsində daim bir-biriləri ilə yarışmaq" demək, "insanın insana qarşı təqvalı olması" deməkdir. Heç bir təqvalı, saleh əməl sahibi olan insan **"mənə nə?! mənə dəxli yoxdur, vecimə deyil, məndən keçsin, kimə dəyir-dəysin"** deməməlidir. "Mənə nə?!" deyən insan müttəqi, yəni təqva sahibi ola bilməz. Şübhəsiz ki, hər birimiz imtahan olunuruq. Məsələn, çalışdığı müəssisədən asılı olmayaraq bütün rəhbərlər, idarəçilər, alimlər, müəllimlər, həkimlər, iqtisadçılar, mühəndislər və adlarını sadalamadığımız daha neçə yüzlərlə mövqe və ixtisas sahibləri, habelə sürücülər, fəhlələr və çobanlar belə öz vəzifə və peşələrinə görə sınağa çəkilirlər. Əgər bu və ya digər mövqe və ixtisas sahibləri daşıdığı vəzifənin öhdəsindən gələ bilmirsə, ondan sui-istifadə edirsə, belə bir vəziyyətdə heç bir təqvadan, məsuliyyət şüurundan söhbət gedə bilməz.

## Merac məsələsi

Müxtəlif mifologiyalardan İslama sirayət etdirilən Merac hekayəsi Qurandan kənar məsələləri özündə ehtiva edir. Yəhudi, xristian, hind, İran və s. xalqların inanc sistemlərində müqəddəs şəxslərin meraca yüksəldiyinə dair rəvayətlər vardır. Məsələn, yəhudi rəvayətlərində İdris, İbrahim, Musa, İşaya kimi peyğəmbərlərin yer üzündən ilahi aləmə yüksəlmələri qeyd olunur və bu rəvayətlərə inanılır. Xristianların inancına görə, İsa-Məsih çarmıxa çəkildikdən sonra məzarından çıxıb ilahi aləmə yüksəlmişdir **(Matta, 28/1-7; Markos, 16/19).** İsadan sonra Pavlosun da Qüdsə gedərkən mələklə birlikdə səmanın yeddinci qatına qalxması rəvayət olunur.

Zərdüşt inancında da merac rəvayətlərinə rast gəlmək mümkündür. Həmin inanca görə, Zərdüşt Vohumenah (Bəhmən) adlı mələklə səmaya yüksəlmiş, cənnəti gəzmiş, sonra tanrı Ahuramazdanın hüzuruna çıxmışdır. Ahuramazda ona ulduzların və planetlərin hərəkətindən xəbər vermiş, cənnət və cəhənnəmi göstərmiş, hər şeyin elmini öyrətmişdir. Bundan sonra mələklər Zərdüştün sinəsini yarmış, içindəkiləri çıxarıb təmizləmiş və yerinə qoymuşlar. İnsanları "Xeyir dini"nə dəvət etməklə vəzifələndirilən Zərdüşt əlində Avesta ilə meracdan maddi aləmə qayıtmış və bu dini təbliğ etməyə başlamışdır (77, s. 119).

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Zərdüştün sinəsinin yarılaraq içinin təmizlənməsi ilə bağlı rəvayətlər İslama da sirayət etmişdir. İslami rəvayətlərə görə, Hz. Məhəmmədin də sinəsi mələklər tərəfindən yarılmış, qəlbi çıxarılaraq zəmzəm suyu ilə yuyulmuş və təkrar yerinə qoyulmuşdur.

Zərdüştlükdə kahin Arda Virafın da Ahuramazdanın yanına qalxması ilə bağlı inamlar vardır. Həmin inanca görə, Böyük İs-

gəndərin İrana hücumundan sonra Zərdüşt mənbələrinin böyük əksəriyyəti məhv edilmiş, xalqın dini inancında zəiflik meydana gəlmişdi. Belə bir vəziyyətdə yüksək rütbəli din xadimi Arda Viraf yuxuya dalaraq 7 gün, 7 gecə davam edən merac səyahətinə çıxmış, yanındakı mələklə cənnəti və cəhənnəmi görmüş, sonra Tanrı Ahuramazdanın hüzuruna təşrif buyurmuşdur. Orada gördüklərini və öyrəndiklərini qayıtdıqdan sonra katiblərə yazdırmış və beləliklə, **"Arda Virafnamə"** adlı bir əsər ərsəyə gətirilmişdir (Ətraflı məlumat üçün bax: 112; 113).

Göründüyü kimi, çox sayda uydurma rəvayətlər kimi, merac hekayəsi də müxtəlif mifologiyalardan İslama sirayət etmişdir. Əlbəttə ki, Qurani-Kərimdə **"İsra"** hadisəsi vardır. Eyni adla keçən surənin ilk ayəsində də göstərildiyi kimi, isra **"gecə yürüşü"** deməkdir. Ayənin bəyanına görə, gecə vaxtı Məscid-i Haramdan Məscid-i Əqsaya bir gediş olmuşdur **(İsra surəsi, ayə: 1)**. Amma bu gedişin ruhən, yoxsa bədən olaraq gerçəkləşdiyinə dair ayədə açıq ifadələr yoxdur. Hz. Peyğəmbərin Məscid-i Əqsadan səmaya yüksəldiyinə dair heç bir bəyana da rast gəlinmir. Quranın heç bir ayəsində peyğəmbərin Allahın qatına yüksələrək dini əmrlər barəsində Onunla müzakirələr apardığına dair ifadə və əlamətlər yoxdur. Ümumiyyətlə, Hz. Məhəmmədin səmaya qaldırılması, Allah ilə görüşüb danışması, Allahın ona iltifat etməsi *(məs., sən olmasaydın, Kainatı və heç bir məxluqatı yaratmazdım)*, namazın uzun danışıqlar və müzakirələr nəticəsində fərz qılınması ilə bağlı rəvayətlər, digər bir ifadə ilə insanlar arasında əfsanələşdirilən Merac hekayəsi tamamilə İslam dininə ziddir və Qurandan uzaq iddialardır.

Rəvayətə görə, Məhəmməd peyğəmbər Cəbrayılla səmaya yüksələrkən hər bir mərtəbədə peyğəmbərlərlə görüşmüş, sonra Sidrətül-Müntəhadan təkbaşına yüksələrək Allahın hüzuruna qəbul edilmişdir. Burada namaz 50 vaxt (170 rükət) olaraq fərz olunmuş, peyğəmbər qayıdarkən yolda Hz. Musa ilə söhbətləşmiş və məsə-

lədən hali olan Musa peyğəmbər *“sən ümmətinin necə olduğunu yaxşı bilmirsən. Rəbbinin yanına qayıt, bu namazın azaldılmasını xahiş et, yoxsa sənin ümmətin buna dözə bilməz”,* – demiş, Hz. Məhəmməd də təkrar Allahın yanına qayıtmış, uzun danışıqlar və müzakirələr nəticəsində rükətlərin sayını bir qədər azaltmış, aşağı enərkən Hz. Musa ilə yenidən qarşılaşmış, hər şeyi danışmış, o da *“geri dön, bu da çoxdur, bir az da azalt”,* – demiş, peyğəmbər təkrar Allahın yanına qayıtmışdır. Musa peyğəmbərin tövsiyəsi ilə bu gediş-gəliş bir neçə dəfə təkrarlanmış, nəhayət, namaz 5 vaxta (17 rükətə) endirilmiş, Musa peyğəmbər *“bu da çoxdur”,* – deyincə, Hz. Məhəmməd *“yox, daha bəsdir, utanıram”,* – demiş və beləliklə, 5 vaxtda qərar qılınmışdır (bu barədə bax: 71, s. 328).

Müsəlmanların əksəriyyətinin inandığı rəvayət budur, ancaq düşünmədikləri bir məqam var: Allahla hər hansı bir məsələ barəsində müzakirə aparıla bilərmi? Bu, Allahın şəninə sığarmı? Hansı insan özündə belə bir cəsarəti hiss edə bilər? Əvvəla, səmaya yüksəlmək, Allahın hüzuruna qəbul olunmaq məsələsi Qurana ziddir, çünki bu rəvayətdə Allahın məkanı göyün sonuncu qatı olaraq göstərilir. Halbuki Allahın məkanı yoxdur. O, laməkandır və hər şeydən münəzzəhdir.

Digər tərəfdən, namaz Meracda fərz qılınmamışdır. Namaz İslamiyyətdən əvvəl digər peyğəmbərlərə və qövmlərə də fərz qılınmışdır ki, bu barədə Quranın bir çox ayəsində açıq şəkildə bildirilir **(bu barədə bax: Bəqərə surəsi, ayə: 40-43, 83; Ali-İmran surəsi, ayə: 43; Maidə surəsi, ayə: 12; Yunis surəsi, ayə: 87; Hud surəsi, ayə: 87; İbrahim surəsi, ayə: 37-40; Məryəm surəsi, ayə: 30-31; 55; Ənbiya surəsi, ayə: 73; Loğman surəsi, ayə: 17 və s.).**

Peyğəmbərin səmaya yüksələrək Allahla görüşməsi, Onunla peyğəmbər arasında namazla bağlı aparılan belə bir müzakirəyə inanmaq həqiqətən də cəhalətin ən bariz nümunəsidir və Qurana tamamilə ziddir.

## Səmavi dinlər məsələsi: yəhudiliyə və xristianlığa baxış

Allah tərəfindən peyğəmbərlər vasitəsilə bəşəriyyətə göndərilən dinlərə **"İlahi din"** deyilir. Lakin fərqinə varmadan "ilahi din" yerinə "səmavi din" ifadəsini işlədirik. "Səmavi" kəlməsi adından da göründüyü kimi, səma ilə əlaqəli bir məna daşıyır. Qeyd etmək lazımdır ki, "səmavi" kəlməsi "ilahi" kəlməsinin tam qarşılığı deyil, bir məkanı özündə ehtiva edir. Halbuki Allah məkandan münəzzəhdir. Dolayısı ilə, din hər hansı bir məkana deyil, üluhiyyətə nisbət edilməlidir. Bu terminin səmanı Allahın məkanı olaraq görən dinlər üçün doğru bir ifadə olmadığı qeyd edilməlidir. Eyni zamanda bu dinlərin ayrı-ayrılıqda Allah tərəfindən bir-birindən fərqli dinlər olaraq bəşəriyyətə göndərildiyini düşünür və bunları səmavi dinlər olaraq xarakterizə edirik. Halbuki Allah tərəfindən yeganə bir din göndərilmişdir ki, bu da Təkallahlığı özündə bütünləşdirən dindir. Zaman keçdikcə təktanrıçılıq təhrifə məruz qalmış, məğzi və əsası dəyişdirilmişdir.

Yəhudilik ilahi dinlərin ən qədimi, lakin mənsubu az olanıdır. Yəhudilikdə din ilə millət anlayışı iç-içə girmişdir. "Yəhudi" adı Yaqub peyğəmbərin 12 oğlundan 4-cüsü olan Yəhudadan gəlir. Yəhudi inancına görə, yəhudilik milli bir din, Yehova isə milli Tanrı olaraq qəbul edilmişdir. Onlara görə, İsrailoğulları seçilmiş bir qövmdür. Bu ad sonradan ümumiyyətlə, bütün yəhudiləri ehtiva edəcək şəkildə istifadə edilmişdir. Bu ad Tövratda **"Tanrı ilə güləşən"** şəklində göstərilir (geniş məlumat üçün bax: 77, s. 204-206). Göründüyü kimi, yəhudilikdə Tanrıya insani keyfiyyətlər verilmişdir ki, bunun da İslamda heç bir yeri yoxdur.

Bugünkü xristianlıq isə yəhudiliyin inanc, ibadət və ənənələriylə Yunan-Roma dünyasının kultlarını özündə birləşdirən bir dindir. Xristian **"Məsihə bağlı"** deməkdir. Yunanca "xristos" olan bu kəlmənin ibranicəsi "Maşiah"dır, "yağlanmış" mənasına gəlir. O dövrdə krallar öz vəzifələrinə başlamazdan əvvəl müqəddəs yağla yağlandıqlarına görə, yəhudilər gələcəkdəki xilaskarlarını belə adlandırırdılar. İsa da **"Məsih"** olduğunu açıqlamışdı. Lakin yəhudilər ona inanmadılar. Çünki onlar Məsihin Davudun soyundan gələcəyinə, Kral olacağına, sadəcə yəhudiləri xilas edəcəyinə və onları dünyaya hakim qılacağına inanırdılar. Halbuki İsa bütün insanları haqq yoluna çağırırdı. Onun üçün əsas məsələ dünyəvi mənfəətlər deyil, əxlaqi, mənəvi məsələlər ön planda idi. Dünyəvi mənfəətlərinə üstünlük verən yəhudilər beləliklə, çarmıx hadisəsinə səbəb oldular. Onlar *"əsl Məsih çarmıxda ölə bilməz"*, – deyərək İsanın "**Məsih-xilaskar"** olmadığına qənaət gətirdilər və onu peyğəmbər kimi qəbul etmədilər (8, s. 23; 73, s. 9-10; 77, s. 261-262). Yəhudilər İsanı üsyankar və günahkar olaraq görərkən, xristianlar onu tanrılaşdırdılar. İslam isə yəhudilik və xristianlıqdan fərqli olaraq, İsanın peyğəmbər olduğunu açıqladı (bu barədə ətraflı bax: **Məryəm surəsi, ayə: 30; Nisa surəsi, ayə: 171**).

Qurani-Kərim Hz. İsanın yəhudilər tərəfindən öldürülməsi, eyni zamanda çarmıxa çəkilməsi ilə bağlı iddiaları rədd edir. Kitabda peyğəmbərin çarmıxda öldürülmədiyi, lakin anlaşmazlıq içərisinə düşdüklərinə görə, onlara elə göründüyü qeyd olunur **(Nisa surəsi, ayə: 157).**

Qeyd etmək lazımdır ki, Hz. İsa günümüzdə xristianlığın banisi hesab edilsə də, onun xristian olması məsələsi belə mübahisəlidir. Çünki o, öz söhbətlərində yeni bir dindən söz etməmiş, əksinə, "Xilaskar-Məsih" adı altında musəviləri doğru yola çağırmışdır. Həqiqət budur ki, müasir xristianlıq dininin əsasını Hz. İsa deyil, özünü onun həvarisi kimi qələmə verən Pavlos qoymuş və sonradan rəsmi din olaraq Roma imperatoru Konstantin tərəfindən

elan edilmişdir. Bu cür incə və həssas nüanslar mövcud dinlər arasındakı teoloji fərqi ortaya qoyur.

İsa-Məsih həqiqətən də dünyaya gəlmiş ən sirli və təlqin qabiliyyəti yüksək olan peyğəmbərlərdəndir. Vəhy alan bir peyğəmbər olaraq Hz. İsa minlərlə insanı arxasından apara bilmiş və yeni fəlsəfələr ortaya qoymuşdur. Onun həyatı ardıcılları tərəfindən qələmə alınmışdır. Bu da bir həqiqətdir ki, Allahın kitabı olan həqiqi İncildən başqa, yüzlərlə İncil yazılmış, lakin bunlardan bir neçəsi qəbul edilmişdir: **Matta, Mark, Luka və İohanna** ***(və ya Yuhanna).***

Bu İncillər əsasən Hz. İsanın həyat hekayəsi mahiyyətindədir və bu kitablarda Allah ilə bağlı açıqlamalar Hz. İsaya nəzərən az saydadır. **"Ata, Oğul, Müqəddəs Ruh"** üçlüyü ilk dəfə öz zəmanəsinin ən böyük ilahiyyatçısı adlandırılan və bugünkü xristianlığın qurucusu olaraq bilinən Pavlos *(bu ad mənbələrdə müxtəlif variantlarda keçir: Bolyus, Paylyus, Bulis, Pavel, Paul, Saul – E.Ş.)* tərəfindən ortaya atılmışdır.

Tədqiqatçılara görə, müasir xristianlığın teoloji əsasları Pavlosun izahlarından ibarətdir (36, s. 201-204; 49, s. 15-16). Onun təlqinləri Allah üzərində deyil, daha çox İsa-Məsih üzərində qurulmuşdur. Pavlos İsanın doğulması, həyatı, təlqin və fəaliyyətləri ilə maraqlanmırdı. Onun üzərində durduğu əsas məsələ İsanın Tanrı olması, çarmıxa çəkilməsi və təkrar dirilməsi idi. Pavlosa görə, insan İsanın ölümü və yenidən dirilişiylə özünü bütünləşdirəcək olan vəftiz *(günahlardan tövbə əlaməti olaraq xaç suyuna salınma mərasimi – E.Ş.)* yoluyla xilas ola bilər. O, günahın qaynağını bəşəriyyətin atası Hz. Adəmin itaətsizliyinə qədər aparırdı **(İncil, Müqəddəs həvari Pavelin Romalılara məktubu. V: 18-21).** Ona görə də bütün insanlar günahkardır və bu günahlar insanın təbiətindən irəli gəlir. Həmin inanca görə, İsa insanların təbiətindəki bu günaha çarə tapmışdı. Guya Məsihin ölümü bütün bəşəriyyətin günahı üçün kəffarə olmaq üzrə özünü qurban verməsidir. İsanın ye-

nidən dirilişi də bu kəffarənin günah üzərindəki zəfərinin dəlilidir.

Hz. Adəm və Hz. İsa bəşəriyyətin iki nümayəndəsidir. Xristianlıq inancına görə, bu iki müqəddəs insandan biri bəşəriyyətə günahı gətirmiş, digəri isə günahları aradan qaldıracaq yolu göstərmişdir ki, bu da vəftizdir **(İncil, Müqəddəs həvari Pavelin Romalılara məktubu. V: 18-21; Müqəddəs həvari Pavelin Qalatiyalılara məktubu. II: 3-15).**

İsanın kimliyi və yenidən dirilməsi barəsində Pavlosun düşüncələri bir çox mübahisələrə səbəb olmuşdur. Bu mübahisələr İsanın tanrılaşdırılması, günahkar olaraq doğulan bütün insanların İsanın ölümü və yenidən dirilişiylə sorğuya çəkilməyəcəyi və digər məsələlərdən ibarətdir (77, s. 263). Xristianlığa üçlük **(təslis)** anlayışı məhz onun sayəsində daxil olmuşdur ki, bu da özündə "Ata, Oğul, Müqəddəs Ruh"u birləşdirən ilahi bir sistemdir. Özünü Hz. İsanın ardıcılı və isəviliyin carçısı kimi təqdim edən Pavlos çoxallahlıq sistemindən kənara çıxmamışdır (10, s. 61).

Bu cəhətlər xristianlıqda saysız düşüncə axınlarına, məzhəb və təriqətlərin ortaya çıxmasına yol açmışdır. Qeyd edildiyi kimi, İncillər daha çox Hz. İsanın həyat hekayəsi mahiyyətindədir. Luka İncilində yer alan aşağıdakı cümlələr deyilənlərə açıqlıq gətirir: *"Aramızda vaqe olmuş hadisələrin hekayətini başlanğıcdan gözləri ilə görənlərin və kəlamı yaymaq vəzifəsi tapşırılanların bizlərə nəql etdiklərinə görə, tərtibləməyə bir çox kimsələr girişdiyindən, mən də əvvəldən bəri baş verən əhvalatların hamısını diqqətlə araşdırıb tədqiq etdikdən sonra, ey möhtərəm Teofilos, hər şeyi olduğu kimi sıra ilə sənə yazmağı münasib gördüm"* **(İncil, Luka 1: 1-3).**

Diqqəti çəkən bir cəhət də Lukanın Pavlosun tələbəsi olmasıdır. Bu səbəbdən "müqəddəs" adlandırılan mətnlər, ilk kilsə, ilk xristian inancları, qısacası xristianlıq Pavlosun əsəridir. Bu da bir həqiqətdir ki, İncillər Hz. İsadan sonra yazılmışdır. Onların bir neçə variantı var idi. Müqəddəs kitaba onu yazanların şəxsi fikirlə-

ri əlavə edilmiş, münasib görülməyən yerlər isə silinmişdir.

İndiki şəkliylə mövcud olan xristianlığın yayılmasında Roma imperatoru I Konstantinin də böyük rolu olmuşdur. Konstantin hakimiyyətdə olduğu illərdə isəviliyi qəbul etsə də, əslində paqan (bütpərəst) idi (38, s. 155; 74, s. 189). Onun dövründə Romanın rəsmi dini **"Günəş"**ə etiqad idi. Romada yeni bir dinin yayılması Konstantin üçün əlverişli deyildi. "İsanın çarmıxa çəkilməsi" hadisəsindən təxminən 300 il sonra İsanın ardıcıllarının sayı getdikcə artmışdı. İsəvilərlə bütpərəstlər arasında hardasa müharibə başlanmışdı və anlaşmazlıq o dərəcəyə gəlib çatmışdı ki, Roma iki yerə bölünmək təhlükəsi ilə qarşı-qarşıyaydı. Belə bir vəziyyətdə Konstantin Romanı vahid bir din, yəni **"xristianlıq"** adı altında birləşdirməyə qərar verdi. Bunun da bəzi səbəbləri vardı:

Əvvəla, Konstantin isəviliyin yüksəlişə keçdiyini görə bilmişdi, buna görə də o, özünü şahmat taxtasının içində hiss etdi və öz "piyadalar"ını oynadı. Konstantin paqanizmə aid gizli simvol və ayinləri yeni dinin içərisinə yerləşdirərək, hər iki tərəfin də qəbul edə biləcəyi qurama bir din yaratdı (32, s. 259).

Xristian simvollarında paqanizmin izləri inkar edilə bilməz. Xristianlığa qədim Misir, hind, yunan və digər qədim ezoterikalar böyük ölçüdə təsir etmişdir. Tanrının üçlü təzahürünə bir çox qədim mədəniyyətlərin mifologiyalarında, din və rəvayətlərində rast gəlmək mümkündür.

Bu üçlü sistem Misir mifologiyasında **Osiris-İsida-Qor**, Babil mifologiyasında **Anu-Ki-Enlil**, Hind mifologiyasında **Puruşa-Pakriti-Avarata**, **Aqni-Vaya-Surya**, **Brahma-Vişna-Şiva**, İran mifologiyasında **Zərvan-Ahuramazda-Mitra,** Yunan mifologiyasında **Zevs-Persefon-Dionisi, Zevs-Latone-Apollon** şəklində təsvir olunmuşdur. Belə üçlü sistem xristianlığa da sirayət etmişdir: **Ata, Oğul, Müqəddəs Ruh.**

Xristianlıqdakı Məryəm-Betül inancının kökü "İsida dini"nə gedib çıxır (76, s. 66). İlahə İsidanın oğlu Qoru (və ya Qorosu)

əmizdirdiyini təsvir edən rəsm və heykəllər günümüzdə Hz. Məryəmin balaca İsanı əmizdirdiyi müasir səhnələrə çevrilmişdir (82, s. 40).





Bakirə Məryəmin Allahın inayəti ilə hamilə qalması məsələsiylə əlaqədar olaraq müqəddəs kitab Qurani-Kərimdə belə buyurulur: *“Məryəm: Ey Rəbbim! Mənə indiyədək bir insan əli belə toxunmadığı halda, necə uşağım ola bilər? – dedikdə, buyuruldu: Bəli, elədir, lakin Allah istədiyini yaradır. O, bir işin əmələ gəlməsini qərara aldıqda, ona ancaq “Ol” – deyər, o da olar”* **(Ali-İmran surəsi, ayə: 47).**

Qurani-Kərimə əsaslansaq, bunlar həqiqətdir, amma məsələ burasındadır ki, qucağında İsa olan Məryəmin rəsmi və ya heykəli mahiyyət baxımından günümüzdə etiqad xarakteri daşıyır. Katolik ayinindəki bütün ünsürlər – yepiskopluq tacı, ilahi mahnılar və moizələr gizli ezoterik dinlərdən götürülmüşdür. Müasir xristianlıqdakı təsvirlərin və “qəbul edilən gerçəklər”in əslində həqiqətdən uzaq olmaları, bu simvol və təsvirlərin qədim Misir, İran, hind, yunan və digər ezoterikalardan qaynaqlandığı bəzi elm adamları tərə-

findən qeyd edilmişdir (xristianlığa daxil olan bu ezoterik izlər və simvollar haqqında ətraflı məlumat üçün bax: 81, s. 194-196; 83, s. 128).

Xristianlıq öncəsi **Tanrı Mitra** – *Tanrının Oğlu, Dünya İşığı, Məğlubedilməz Günəş deyə bilinir* – **25 dekabr**da doğulmuşdur. Ölümündən sonra daş məzara dəfn edilmiş və 3 gündən sonra təkrar dirilmişdir. Xristianlıq inancına görə, İsa da **25 dekabr**da doğulmuş, öz missiyasını yerinə yetirdikdən sonra çarmıxa çəkilmiş və 3 gündən sonra dirilmişdir. **25 dekabr** eyni zamanda qədim Misir və yunan allahlarından Osirisin, Adonisin və Dionisin təvəllüd tarixidir (ətraflı bax: 32, s. 260; 74, s. 185; 75, s. 49-50; 82, s. 40; 83, s. 128). Xristianlığın bu müqəddəs günü paqan (bütpərəst) ənənələrindən götürülmüşdür.

Xristianlıqda müqəddəs hesab edilən digər günlərdən biri də **"bazar günü"**dür. Günümüzdə kilsə camaatının əksəriyyəti Günəş Tanrısı **RA**-nın doğulduğu gün olduğunu bilmədən bazar günü – **Sunday**, yəni **Günəş Günü** – ayinlərinə gedirlər.

Konstantin yeni xristian ənənəsini daha da sağlamlaşdırmaq üçün "Nikeya Şurası" adı ilə bilinən yığıncaq təşkil etmiş və bu yığıncaqda xristianlığa aid müxtəlif məsələlər – pasxa tarixi, yepiskopların mövqeyi, müqəddəs mərasimlər, onların idarə olunması və ən önəmlisi İsanın tanrılaşdırılması və s. müzakirə edilmişdir: Tarixin o anına qədər Məsih, yəni Hz. İsa həvariləri *(apostolları)* və ardıcılları tərəfindən ölümlü bir peyğəmbər olaraq qəbul edilirdi. Böyük və güclü bir adam olsa da, nəticədə insan idi. Yəni ölümlü! 325-ci il tarixində Nikeya Şurasında İsanın **"Tanrının Oğlu"** olması təklifləri irəli sürülmüş və səs çoxluğu ilə qəbul edilmişdir. Bu məclis Tanrının və İsa-Məsihin təbiətlərinin eyniliyi haqqında məşhur Nikeya müddəasını qəbul edərək, bəşəriyyətin dini gələcəyini müəyyən etmişdi (41, s. 74). İsanı tanrılaşdırmaq Roma imperiyası ilə Vatikanı birləşdirməkdə əsas rol oynamışdı. Konstantin Məsihi rəsmən "Tanrının oğlu" qəbul etməklə İsanı in-

san dünyasının digər aləmində var olan bir Tanrıya çevirmişdi. Bu siyasət bütpərəstlərin xristianlığa daha çox qarşı çıxmalarına mane olmaqla birlikdə artıq İsaya inananların özlərini yalnız müqəddəs bir kanal vasitəsilə bağışlanmalarına da şərait yaratmışdı. Hər şey güclə əlaqəliydi. İsanın Tanrının oğlu olaraq qəbul edilməsi kilsə ilə dövlətin birlikdə fəaliyyət göstərməsi baxımından zəruri idi. Mənbələrdə kilsənin İsanın insanlığa verdiyi mesajları gizlətdiyi, onun anlaşılmaz bir allahlıq pərdəsinə bürünüldüyü və kilsənin öz gücünü yaymaq üçün bu vasitədən istifadə etdiyi qeyd olunur (32, s. 261).

Konstantinin əl altından yeritdiyi siyasi manevrlər İsanın həyatının ehtişamına kölgə salmırdı. O, İsanın saxtakar olduğunu demirdi, ya da dünyanı öz təsiri altına alıb insanlara daha gözəl həyat təqdim etdiyini də inkar etmirdi. Konstantin sadəcə olaraq onun nüfuzundan yararlanırdı və bundan istifadə edərək xristianlığı bugünkü şəklinə salmışdır.

Hz. İsanın həyatını ölümlü bir insan olaraq göstərən minlərlə tarixi mənbə mövcud olmuşdur. Lakin Konstantin tarix kitablarını yenidən yazmaq üçün təkrar manevr etmiş, İsanın insani keyfiyyətlərindən bəhs edən müqəddəs kitabları lənətləmiş və onu Tanrı kimi göstərən İncil yazılmasını əmr etmişdi. Konstantinin dövründə əski İncillər qadağan olunmuş, Markın, Mattanın, Lukanın və İohannanın İncilləri istisna olmaqla, digərləri topladılaraq yandırılmışdır (64, s. 80).

Markos, Matta, Luka və İohanna İncillərindən ilk üçü arasında oxşarlıq olduğuna görə, bunlara Sinoptik İncillər deyilir. Sinoptik İncillərin eramızın 60-85-ci illəri arasında yazıldığı ehtimal edilir. Dördüncü İncil olan İohanna isə eramızın 100-cü ilindən sonra yazılmış olub, ilk üç İncilin şərhlərini özündə ehtiva edir. Hz. İsanın doğulması, 30 yaşında öz vəzifəsinə başlaması və 33 yaşında guya "çarmıxa çəkilməsi" nəzərə alınarsa, ən qədim İncilin ondan ən az 30 il sonra yazıldığı ortaya çıxar (77, s. 287).

Hz. İsanın şagirdləri arasında oxuma-yazma bilənlər yox deyiləcək qədər az idi. İncillərdə verilən məlumatlar ağızdan-ağıza nəql edilən rəvayətlərdən ibarətdir. İncillərin yazıya köçürülməsi məsələsi mübahisələr doğurmaqdadır. Bu İncillərdə Hz. İsanın onları yazdırdığını müəyyən edən ifadələrə rast gəlmək çətindir. Bəzi xristian qaynaqlarında İncildəki mətnlərin üç və dörd dəfə dəyişdirildiyi də açıqlanır. Bu dəyişikliklərə əsaslı səbəb ilk xristianlar arasındakı fikir ayrılıqlarıdır. Onlar öz düşüncə və iddialarını dəstəkləmək və ya inanmayanları inandırmaq üçün belə bir yola baş vurmuşdular. Bu baxımdan əksər şəxslərə məxsus təxminən yüz civarında İncillər yazılmışdır. Dörd İncil, yəni Markos, Matta, Luka və İohanna İncilləri sözü keçən yüzə yaxın İncillər arasından bir-birilərinə yaxın olmaları səbəbiylə seçilmiş və "Müqəddəs Ruh"un himayəsi altında yazıldığı qəbul edilmişdir. Kilsə Pavlos, Petros, İohanna, Yaqub və Yəhudanın məktublarını, Rəsulların işləri və vəhy kitablarını səhih hesab edərək, hamısını Əhdi-Cədidə daxil etmişdir.

Kilsənin səhih olaraq qəbul etmədikləri İncillər və yazılar arasında Ebionitlərin İncili və Barnaba İncili məşhurdur (77, s. 288). Ebionitlər yəhudi mənşəli ilk xristian icmanın üzvləridir. İbranicə "yoxsul, kasıb" mənasındadır (75, s. 47). Onlar Hz. İsanın tanrılığını rədd edirlər. Ebionitlərin və Barnabanın İncillərində Allahın birliyi, Hz. İsanın Allahın qulu və peyğəmbəri olduğu, çarmıxa çəkilənin o olmadığı və Hz. İsadan sonra bir peyğəmbərin gələcəyi bildirilir (77, s. 314).

Bunlarda verilən məlumatlarla Quranda verilən məlumatlar arasında uyğunluq görünür. Kilsə sözü keçən Dörd İncillə birlikdə bəzi məktubları və kitabları Əhdi-Cədid adı altında toplayaraq, müəyyən əksiklikləri ortadan qaldırmağa çalışmışdır. Ancaq bunlar Hz. İsanın söyləyib yazdırdığı sözlər deyildi. Çünki o, aramicə danışırdı. Halbuki Əhdi-Cədid mətnləri yunancadır (77, s. 288-289).

Qeyd edək ki, Dörd İncil arasında müəyyən fərqliliklər mövcuddur. Məsələn, Lukaya görə, Məryəmin əri Yusif Helinin, Mattaya görə isə Yaqubun oğludur **(İncil, Luka III: 23, Matta I: 16)**. İlk üç İncilə görə, İsanın əsl vətəni Cəlilə (Galile), İohannaya görə isə Yəhudiyyədir **(İncil, Matta XIII: 54-58, Markos: VI: 4, Luka IV: 29, İohanna IV: 3, 43-45)**. Hətta Matta və Luka İncillərinin müəyyən yerlərində İsanın Bethlehemdə doğulduğu qeyd olunur **(İncil, Matta II: 1, Luka IV: 4, 15)**.

İncillərdə İsa gah Allahın oğlu, gah Yusif oğlu, gah Davud oğlu, gah da Adəm oğlu şəklində keçir (77, s. 277). Ən qüvvətli İncil hesab edilən Luka İncilinin müəllifi Pavlosun tələbəsidir və həvarilərdən deyildir. Luka öz İncilini Pavlosun ideyaları əsasında yazmışdır. O, digər İncilləri tədqiq edərək öz İncilini yazdığını kitabının əvvəlində qeyd etmişdir (77, s. 264). Qadağan olunmuş İncilləri mənimsəyənlər ağır şəkildə cəzalandırılmışdır (32, s. 260-262).

Məhv edilən İncillər arasında Barnab (və ya Barnaba) adlı həvarinin Hz. İsadan eşitdiyi və yazdığı həqiqi İncil də var idi. Çox qəribə olsa da, Barnaba İncilinin bir neçə nüsxəsi günümüzə qədər gəlib çatmışdır. Onlardan biri uzun müddətdən sonra Vyana İmperator Kitabxanasına gəlib düşmüş və orada ingilis dilinə tərcümə edilmişdir. Başqa bir nüsxə sonralar Britaniya muzeyində, üçüncüsü isə Amerika Konqresinin kitabxanasında tapılmışdır. Lakin Barnaba İncilinin bu nüsxələri xalqdan gizli, məxfi saxlanılırdı. ABŞ-da hərbi komissar işləyən Pakistan mənşəli general Əbdürrəhim bu sirri açmış, gizli surətdə dərc etdirmişdir (10, s. 61).

Barnaba İncilində Hz. İsanın Tanrının oğlu olması, həmçinin çarmıxa çəkilməsi haqqında heç nə deyilmir (10, s. 64). Bu İncilin 44-cü fəslində İsanın dilindən özündən sonra peyğəmbər gələcəyi qeyd olunur: *"Sizə deyirəm: Allahın peyğəmbəri bütün məxluqlara qarşı rəhmli, müdrik və qüdrətlidir. Onun qəlbi Allah məhəbbəti ilə doludur. O, həssas və mülayimdir. Onun əməlləri şəfqət və*

*rəhmdillik, ədalət və mərhəmət, dözümlülük və nəvaziş ruhu ilə doludur. Uca Allah ona bütün canlılardan üç dəfə artıq verib. Onun gəldiyi zamanədə firavanlıq dövrü olacaq. Buna inanın. Mən onu Tanrının vəhyi və gözü ilə gördüm. Və görən kimi qəlbim sakitləşdi. Ey (Allahın Rəsulu) Əhməd, Allah səninlə olsun, qoy O, sənin qədəmlərinin altında bağ olmaq şərəfini mənə nəsib etsin. Və əgər mənə verilərsə, onda Allahın ən xoşbəxt qulu və Onun ən böyük peyğəmbərlərindən olaram. Bunu deyib, İsa Allahı tərif etdi"* ***(96/8)*** (10, s. 63).

Barnaba İncilində adı çəkilən Əhməd məhz Hz. Məhəmmədin özüdür. Bu adların hər ikisinin kökü "təriflənən, şükür edilən" mənasına gələn ərəbcə **"HMD"**, yəni həmddir. Yunan dilində yazılmış İncillərdə isə **"təriflənən"** sözü **"periklytos"**dur. Sonrakı İncillərdə bu söz təhrif olunaraq, səslənməsinə görə oxşar olan "parakletos" sözü ilə əvəz edilmişdir ki, mənası "təsəlli verən" deməkdir. Qeyd etmək lazımdır ki, Hz. Məhəmmədə qədər ərəblərdə uşaqlara bu adı vermək adəti yox idi (10, s. 63).

Ortadan qaldırılmağa çalışılan İncillərdən bəzilərinin günümüzə qədər gəlib çatması alimlər üçün böyük fürsətdir. 1947-ci ildə Qüdsdən 10 mil aralı, Qurman adlanan yerin mağaralarının birində təxminən 2000 illik bir tarixə sahib olan lülə halında bükülmüş kağızlar tapılmışdır. Bu, İncilin əl ilə yazılmış səhifələri idi ki, ya Hz. İsa, ya da həvariləri tərəfindən kağıza köçürülmüşdü. Kağızların böyük hissəsinin dərc olunmaması elm adamları arasında narazılıq doğurmuşdu. Oksford Universitetinin professoru Q.Verməş bunu akademik qalmaqal adlandırmışdır (10, s. 61).

Tədqiqatçı M.Qəhrəmanov İncilin əl ilə yazılmış səhifələri barədə *"İlahi möcüzələr, elm və faktlar təsdiq edir"* adlı əsərində "US and World Report" jurnalında yayınlanan məlumatlara istinad edərək yazır: *"...bu yazılar qədim yunan və yəhudi dillərindədir. Bunun tərcüməsinə müəyyən vaxt tələb olunur, amma belə uzun müddət yox. Bu kağızların dərc olunduğu halda rəsmi kilsəyə na-*

*razılığın və hiddətin artacağı barədə şayiələr çoxalmış və buna görə də Kilsələr Şurası istənilən açıqlamaya müqavimət göstərmişdi. Güman olunur ki, Qüdsün kənarında tapılan İsanın və ya onun həvarilərindən kiminsə yazdığı İncildə Barnaba İncilindəki kimi, Məhəmmədin sonuncu peyğəmbər olacağı barədə xəbərlər verilmişdir"* (10, s. 61).

Quranda belə buyurulur: *"Xatırla ki, bir vaxt Məryəm oğlu İsa belə demişdi: "Ey İsrailoğulları! Həqiqətən, mən özümdən əvvəl nazil olmuş Tövratı təsdiq edən və məndən sonra gələcək Əhməd adlı bir peyğəmbərlə sizə müjdə verən Allahın elçisiyəm!..."* **(Səff surəsi, ayə: 6)**.

*"Da Vinçi şifrəsi"*, *"Mələklər və Şeytanlar"*, *"İtmiş simvol"* və digər məşhur əsərlərin müəllifi Den Braun yazır ki, yanlış məlumatlandırma ənənəsini davam etdirən Vatikan əsl həqiqətlərin aşkara çıxmasının qarşısını almaq üçün əlindən gələni etmişdir. İsa-Məsih tanrılaşdırılaraq, onun nüfuzundan öz iqtidarlarını sağlamlaşdırmaq üçün istifadə olunmuşdur. Paqan (bütpərəst) xarakterli kilsə bütün dünyanı əsl həqiqətdə İsanın Allahın oğlu olduğuna inandırmışdır. Buna görə də Məsihin dünyəvi xüsusiyyətlərini təsvir edən fəsillər İncildən çıxarılmışdır (32, s. 262).

Hz. İsanı Tanrı olaraq qələmə verən İncillərdə göstərilir: *Mübarək ümidimizin həyata keçməsini, ulu Tanrı və xilaskar olan İsa-Məsihin gəlməsini gözləyirik* **(İncil, Titus 2/13, İohanna 1/1, İbranilər 1/8, Romalılar 9/5, 1. İohanna 5/20).** *Məsih öz tələbələrinə "Sizcə Mən kiməm?", – deyə soruşduqda, Petros belə cavab verdi: "Sən yaşayan Tanrının Oğlu Məsihsən"* **(İncil, Matta 16/16).**

Eyni zamanda İncillər Hz. İsaya yalnız Tanrıya verilə biləcək sifətlər də verir: *hər yerdə olan* **(İncil, Matta 18/22 – 27, İohanna 4/16, 6/64),** *hər şeyə gücü çatan* **(İncil, Matta 8/26 – 27, Luka 4/39 – 44, 7/24),** *əbədi həyata sahib olan* **(İncil, İohanna 1/4, 1. İohanna 5/11, 12, 20)** və s.

Xristianlıq inancına görə, başlanğıcda insan təbiətüstü bir həyata sahib olmaq üçün yaradılmışdır. Buna baxmayaraq, insan Ona arxasını çevirmişdir. Yəni Allah insanı tanrılaşdırmaq istəmiş, insan isə Tanrının ona verdiyi bu imkanı rədd etmişdir. Belə bir vəziyyətdə Tanrı "sevgi" mənasına gəldiyi üçün O, insanı cəzalandırmaq əvəzinə, sevgisini isbat etmək istəmiş və belə buyurmuşdur: *İnsan yüksəlmək istəmirsə, mən onun yanına enərəm, mən onun kimi olaram!*

Katolik doktrinasına görə, *"Mən insanı Tanrı etmək istəyirdim, amma o, bu istəyimi rədd etdi. Belə vəziyyətdə mən yoxsul, acı çəkən bir insan olub, sevgidən başqa bir şey demək olmadığımı ona göstərməliyəm. Bəlkə o zaman insan Məni sevər, dünyəvi və əbədi xoşbəxtliyi ancaq Məndə tapa biləcəyini başa düşər"* (67, s. 62).

Qısacası, guya insan Tanrı olsun deyə, Tanrı insan oldu.

Qurani-Kərimdə buyurulur: *"Həqiqətən Məryəm oğlu İsa əl-Məsih ancaq Allahın peyğəmbəri, Məryəmə çatdırdığı bir sözdür"* **(Nisa surəsi, ayə: 171);** *"Onun adı Məryəm oğlu İsa əl-Məsihdir"* **(Ali-İmran surəsi, ayə: 45)**.

Digər bir ayədə də belə buyurulur: *"Allahın dərgahında İsanın vəziyyəti, torpaqdan yaradıb sonra "ol" deməsiylə olmuş olan Adəmin vəziyyəti kimidir"* **(Ali-İmran surəsi, ayə: 59)**.

Bu ayədə iki peyğəmbər arasındakı bəzi oxşarlıqlara diqqət çəkilməsi təsadüfi deyil. Dini mənbələrə əsaslansaq, həm Hz. Adəmin, həm də Hz. İsanın atası olmamışdır.

Daha çox mübahisələrə səbəb olan digər bir məsələ isə İsanın evli olması ilə bağlı iddialardır. İddiaların əsas mənbəyi ondan qaynaqlanır ki, o dövrlərdə yəhudi ənənəsinə görə evlənməmək ayıb sayılırdı. Yəni evlilik o dövrün yəhudi icmasında təşviq edilən bir məcburiyyət idi (19, s. 67-68). Bəs yaxşı, İsanın iddia edilən həyat yoldaşı kim idi? Bu qadının soylu bir ailəyə mənsub olan Cəliləli (Galilee) Məryəm Maqdalena olduğu üzərində daha çox

dayanılır. Rəvayətə görə, İsa-Məsih Məryəm Maqdalenaya kilsəni və onun təlimlərini davam etdirməsinə dair təlimatlar vermişdi. Yəni kilsə Məryəmə əmanət edilmişdi (ətraflı məlumat üçün bax: 19, s. 68; 32, s. 272-278).

İddiaya görə, Maqdalena İsanın çarmıxa çəkilməsindən sonra müəyyən səbəblər üzündən bətnində Məsihin qanını daşıyan uşaqla Fransanın Marsel şəhərinə köçmək məcburiyyətində qalmışdır. Bəzi təriqətlərin, icmaların və hətta günümüzdəki nüfuzlu dini, siyasi cəmiyyətlərin inancına görə, Maqdalenanın bətnindəki bu uşaq İsanın soyundan olan "yəhudilərin həqiqi kralı"dır (19, s. 69). Bu inanc müəyyən dini, siyasi məqsədlərə xidmət etmiş və etməkdədir.

Burada belə bir haşiyə çıxmaq məqsədəuyğundur. Mənbələrə görə, Fransada daha əvvəllər İsrailin qeyb olmuş 12-ci qəbiləsi olaraq bilinən Bünyamin (və ya Benjamin) sülaləsi məskunlaşmışdı. Bu qəbilə İsrailin digər 11 qəbiləsi ilə münaqişə içərisindəydi, eyni zamanda bir-birinə qız verib, qız almaları da lənətlənmişdi. Hətta bu qəbilə özünü digər 11 qəbilədən üstün görür, Tanrı tərəfindən "seçilmiş" olduğuna inanırdı. Hal-hazırda Fransada çox sayda böyük ailənin fransız adı daşımasına baxmayaraq, yəhudi mənşəli olduğu həqiqətdir. Olduqca maraq doğuran məsələ budur ki, Fransanın cənubuna köçən qərbli yəhudilərin şərqdəkilərə nəzərən daha **"saf qan"** olduqları da önə sürülən iddialar arasındadır (19, s. 69). Maqdalenanın da Bünyamin soyundan olduğuna inanılır. Belə bir vəziyyətdə **"Müqəddəs Qan"** və **"Müqəddəs Kasə"** əfsanələri dəyər qazanmış olur. Kasə əslində məcazi mənadadır, yəni qadın simvoludur, amma hər hansı bir qadının deyil, sadəcə Maqdalenanın simvoludur. "Müqəddəs Qan" və "Müqəddəs Kasə" əfsanələri "saf qan"ı özündə ehtiva edir. Kasə ilə bağlı rəvayətlərdə bəhs edilən İsanın qanı ilə dolu olan qədəh inanca görə, Maqdalenanın, yəni Məsihin soylu nəslini daşıyan qadın bətninin simvoludur. Yəni **"Müqəddəs Qan"** İsa-Məsihin soyu və onun nəsli, **"Müqəddəs**

**Kasə”** isə Məryəm Maqdalenanın bətni, eyni zamanda Merovinq soyunun davamıdır.

İnanca görə, Məryəm Maqdalena bətnində daşıdığı “Davudun və eyni zamanda İsanın soyu”nu Fransaya gətirmişdir. Bu soy frankların krallıq soyu ilə evliliklər yoluyla qarışaraq Merovinq xanədanlığını qurmuşdur. O dövrlərdə uzunsaçlı krallar olaraq bilinən Merovinqlər yarı mistik, yarı təbiətüstü güclərə sahib olan döyüşçü krallar kimi qəbul edilirdi (19, s. 64).

Kilsə mənsubu amerikalı tədqiqatçı J.R.Çörç *“Guardians of the Grail”* (Kasənin mühafizəçiləri) adlı kitabında dünyanın ən qaranlıq ailələrindən biri kimi göstərilən Habsburq xanədanlığının da Merovinqlərin soyundan gəldiyini, onların Maqdalenanın **“Müqəddəs Kasə”** övladları olaraq məşhurlaşdıqlarını qeyd edir (86, s. 91).

Məqsədimiz Hz. İsanın evliliyi məsələsini araşdırmaq və ya isbat etmək deyil: evlənmişdir ya da evlənməmişdir, bunu araşdırmaq şübhəsiz ki, ilahiyyatçı alimlərin üzərinə düşür. Məsələ burasındadır ki, belə iddialar qarışıq və müəmmalı görünsə də, ortada müəyyən məqsədlərin var olduğunu düşünmək mümkündür. Məqsəd **“teoloji dövlət yaratma layihəsi”**dir. Bu qan bağına görə, demokratiya və sosializm davam edə bilməz.

Məsələni açaq; İddialara görə, İsa-Məsih və ailəsi Hz. Davudun qanını daşıyır. Bu qanın Merovinq xanədanlığı üzərində davam etdiyi və əsl həqiqətlərin “Sangreal” sənədlərində gizli tutulduğu önə sürülür. Fransızca bir kəlmə olan “Sangreal” müxtəlif variantlarda izah edilir: **Sang Real** – ***Saf (Həqiqi) Qan***, **San Greal** – ***Müqəddəs Kasə*** (32, s. 278).

Qan bağının günümüzdə də davam etdiyi iddialar arasındadır. Məqsəd “Yeni Dünya Nizamı”dır və bu sistem yeni bir dinə ehtiyac hiss etmişdir ki, bu dinin ipucları artıq günümüzdə mövcuddur. Bunun da gerçəkləşməsi üçün yeni dini mərkəzin müəyyənləşdirilməsi vacib idi. Planlanan yeni dini mərkəz sivilizasiyalararası mü-

naqişələrin tam ortası olan Qüdsdür. İnanca görə, guya İsanın soyundan olan rahib-kral mövcuddur, amma onun kim olduğu bilinmir. Daha doğrusu, çox "gizli" azlıqlar tərəfindən bilindiyi güman edilir. İnanca görə, bir kral vardır, amma taxtı və tacı yoxdur. Bu kralın da ortaya çıxması üçün ona həm ruhani, həm də dünyəvi həyatı özündə birləşdirən "hakimiyyət mərkəzi" tapılmalıdır. Dini baxımdan bu coğrafi mərkəz məhz Qüdsdür. Kralın ölkəsi ancaq "müqəddəs torpaqlar"da olmalıdır. Sion Birliyinin proqramına görə, iqtidara məhz müəyyən səbəblər ucbatından öz kökündən ayrılan və Fransanın cənubunda məskunlaşan Merovinq soyu gətirilməlidir. Həm də elə bir coğrafi ərazidə ki, oradan bütün dünyaya hökm edə bilsin (19, s. 70).

Mənbələrdə siyasi baxımdan bu coğrafi ərazinin məhz Avropa olması fikri daha çox üstünlük təşkil edir (19, s. 70-71; 28, s. 412). Tədqiqatçılar bu məsələnin heç də adi olmadığını, keçmiş və gələcəkdəki bir çox hadisəyə istiqamət verdiyini qeyd edirlər: *"...Biz Merovinq soyunun bu qədər önəmli olduğunu nəzərə almamışdıq. Bu soyun dünya hakimiyyətini ələ keçirməsindəki və əsrlərdir nüfuzlu şəxslərin özündən asılılığını təmin edərək, onlara əmr verməsindəki məqsədlərini anlamamışdıq..."* (28, s. 269).

Planlanan dövlət elə bir qurumdur ki, İsa-Məsihin qanını müqəddəslik səbəbiylə təməl əsaslara dayandırır. Öz növbəsində bu dövlət elə bir soylu xanədanlığa həvalə edilir ki, o da özünü əsrlərlə xristian kimi göstərmiş, amma əslində yəhudiliyin əsaslarını qoruyan Merovinq soyunun davamçılarıdır. Bu soyu iqtidara gətirəcək gizli partiyanın adı da Sion Birliyidir (19, s. 71).

İrəli sürülən iddialar hal-hazırda yaşadığımız dünya və Avropa şərtlərində inanılmaz görünür. Amma dünənə qədər Avropa İttifaqı deyilən bir birliyin olmadığı göz önünə alınarsa, təxəyyül edilən bu dövlətin heç də uzaq olmadığı ortaya çıxar. Belə bir vəziyyətdə Avropa İttifaqı demokratik deyil, teokratik olacaqdır (19, s. 71). Məqsəd teokratik Avropa Birləşmiş Dövlətlərini yaratmaqdır.

Plana görə, bu dövlət guya İsa-Məsihin soyundan gələn xanədanlıq tərəfindən idarə olunmalıdır (28, s. 412).

Qeyd etmək lazımdır ki, planlanan dövlət sadəcə Avropa ilə məhdud qalmır, ümumiyyətlə, bütün dünyanı əhatə edir. ABŞ-ın Xarici Əlaqələr Şurası *(CFR – Council on Foreign Relations)* üzvlərindən Ceyms Uarburqun (James Warburg) 17 fevral 1959-cu ildə Xarici Əlaqələr Komitəsindəki çıxışı bunun əyani sübutudur: *"Bir dünya dövləti istər-istəməz qurulacaq. Əsas məsələ bu nəticəyə xoşluqlamı, yoxsa zorla varılmasıdır"* (19, s. 95).

Dünya hakimiyyətini hədəfləyən böyük güclər uzun illərdir ki, din faktorundan istifadə edərək, sivilizasiyaların toqquşmasına şərait yaradırlar.

# NƏTİCƏ

Qərb-Şərq ziddiyyətləri və qarşıdurmalarının minilliklərlə davam edən tarixi keçmişi vardır. Lakin bu qarşıdurmalar sivilizasiyaların toqquşması şəklində deyil, mənfəətlərin toqquşması şəklində təzahür edirdi. Xristianlıq və İslam dinləri meydana çıxdıqdan, eyni zamanda dünya dinlərinə çevrildikdən sonra bu qarşıdurmalar həmin dinlərin daşıyıcıları arasında davam etdirildi. Bir məsələni qeyd etmək lazımdır ki, mənfəətlər tarixiliyindən asılı olmayaraq, həmişə toqquşmuşdur, lakin sonrakı dövrlərdə Qərb-Şərq sivilizasiyaları arasındakı münasibətlər özünü Xristian-İslam kontekstində göstərməyə başladı. XX əsrin əvvəllərindən sonlarına qədər sivilizasiyaların deyil, geosiyasi maraqların toqquşmasının şahidi oluruq. Çünki Birinci Dünya müharibəsinin sonunda İslam sivilizasiyasının hakim daşıyıcısı kimi Osmanlı dövlətinin tarix səhnəsindən silinməsindən sonra bu dinin yayıldığı ərazilərin əks sivilizasiyaların hakim daşıyıcılarının nəzarəti altına keçməsiylə Xristian-İslam toqquşması özünü unutdurdu, lakin SSRİ-nin çökməsiylə yenidən alovlandı. Xüsusilə də unudulmuş mövzunu məşhur əsəriylə yenidən gündəmə gətirən Samuel Hantinqton özünün "sivilizasiyaların toqquşması" şüarı ilə Qərb-Şərq, Xristian-İslam arasındakı ziddiyyətli proses və münasibətləri yada salaraq, problemi dövrün daha aktual məsələsinə çevirdi.

Hal-hazırda hər iki sivilizasiya arasındakı münasibətlər ən gərgin dövrünü yaşayır. Heç təsadüfi deyildir ki, Qərb sivilizasiyasının daşıyıcıları olan ölkələrdə İslama münasibət nəinki xoş deyil, əksinə, nifrət və qorxu psixologiyası hakimdir. Xüsusilə 11 sentyabr hadisələrindən etibarən dünya ictimaiyyətinin şüuraltında islamçı terror anlayışlarının yaradılması ilə İslam bütün dünyaya

cəhalət və şər daşıyıcısı bir din olaraq təqdim edilməyə başlandı. ABŞ-ın sabiq prezidenti Corc Buşun rəsmi səviyyədə səsləndirdiyi "xaçlı səfərləri" çağırışı, eyni zamanda Papa XVI Benediktin Hz. Məhəmmədin ünvanına nalayiq ifadələr işlətməsi, İslamın ağıl və məntiqlə uzlaşmayan bir din olduğunu ifadə etməsi, nəticədə Qərb dünyasında İslama qarşı genişlənən hər cür kampaniyalar və yaradılan antipatiya fərqli adlar altında müasir səlib yürüşlərini başlatdı.

Günümüzdə sülh dini olan İslam bütün dünyaya şər daşıyıcısı, cəhalət ünvanı, müharibə tərəfdarı, terrorizmə qucaq açan, onu bəsləyən, qanlı qətllərə rəvac verən bir din kimi aşılansa da, dünya müharibələrini çıxaranlar və milyonlarla insanın ölümünə səbəb olanlar İslam deyil, məhz Qərb sivilizasiyasının hakim daşıyıcılarıdır.

Kütləvi qırğın silahlarını istehsal edib Şərqin zəif inkişaf etmiş ölkələrinə ixrac edənlər, dinçi terrorist təşkilatlar ərsəyə gətirənlər, onları maliyyələşdirənlər və silahlandıranlar, tarixi təcavüzkarlıq müharibəsi aparanlar, dövlətlər, xalqlar, dinlər və sivilizasiyalar arasında ziddiyyət və toqquşmalar yaradanlar da yenə məhz Qərb sivilizasiyasının hakim daşıyıcılarıdır.

Burada diqqət edilərsə, məqsədimiz Qərb sivilizasiyasının daşıyıcıları olan xalqları eyni qəlib içərisində dəyərləndirmək deyil, qanlı aksiyalara imza atmış hakim dövlətlərin niyyət və məramlarını ortaya qoymaqdır.

Tədqiqat işində bu kimi məsələlərə yanaşma tərzi tamamilə subyektiv olub, istənilən müzakirəyə açıqdır. Aparılan təhlillərin yanlış və ya doğruluğuna təbii ki, oxucu özü qərar verəcəkdir. Lakin bunu qeyd etməyi vacib bilirik ki, ədalətin öz yerini tapması üçün İslam həmrəyliyi artıq tarixi zərurətə çevrilib. Bunu reallaşdırmaq isə İslam dünyasının öz əlindədir. Ya parçalanmış halda Qərb sivilizasiyası qarşısında zəif olaraq öz varlığını davam etdirəcək, ya da bu parçalanmadan bütöv olaraq çıxacaqdır.

# ƏDƏBİYYAT


**Azərbaycan dilində**

1. **ABDULLAYEV** Əbdüləli, **KƏRİMOV** Şöhlət, **ZAHİDOV** Bəhrəm. Beynəlxalq terrorizm: onunla cinayət-hüquqi və kriminoloji mübarizənin aktual problemləri. Bakı: Qanun, 2006, 403 s.
2. **AVNERİ** Uri. Papa yanılır, xristianlar və yəhudilər İslama minnətdar olmalıdırlar. “Zaman” qəzeti, 2006, 30 sentyabr – 2 oktyabr.
3. **BAKUVİ** Hacı Mirməhəmməd Kərim. Kəşfül-Həqayiq (Bakuvi Quran təfsiri). 3 cilddə, I cild, Bakı, 2014, 552 s.
4. **FREYZER** Ceneviv Kora. Parçala və hökm et”in yeni hədəfi İran və Türkiyədirmi? “Zaman” qəzeti, 2006, 9-10 noyabr.
5. **HACI** Siracəddin. Fatihə surəsinin anlamı. Bakı, 2018, 152 s.
6. **HƏBİBBƏYLİ** Ərəstü. Sivilizasiyaların kəsişməsində türk dünyası. Bakı: Elm və təhsil, 2011, 256 s.
7. **HÜSEYNOV** Həsən, **BƏHƏRÇİ** Tofiq. Qərb-Şərq münasibətləri Xristian-İslam təfəkkürü baxımından. Bakı: Təknur, 2005, 442 s.
8. **ƏSGƏROV** E.M., **RƏHİMOV** N.Ə. İslamın əsasları: fəlsəfə, tarix və əxlaq baxımından. Bakı: Dini Araşdırmalar Mərkəzi, 2002, 319 s.
9. **KİTABİ-DƏDƏ QORQUD.** Bakı: Yazıçı, 1998, 264 s.
10. **QƏHRƏMANOV** M. İlahi möcüzələr, elm və faktlar təsdiq edir. Bakı, 2001, 90 s.
11. **QURBANOV** Elman. Siyasət, din və diplomatiya // Dirçəliş – XXI əsr, 2006, №104-105, s. 211-219.
12. **MİRİ** Elşad. Planlı provokasiyanın plansız etirazları. “Ekspress” qəzeti, Bakı, 2006, 18-20 fevral.
13. **NEHRU** Cəvahirləl. Ümumdünya tarixinə nəzər. Bakı: Gənclik, 1986, 364 s.
14. **NƏSİROV** Elman. ABŞ və dünya 11 sentyabrdan sonra. Bakı: Bakı Universiteti, 2003, 262 s.
15. **STİQLİTZ** Cozef E. Qloballaşma və onun doğurduğu narazılıqlar. Bakı: İqtisadi İslahatlar Mərkəzi, Xəzri ekspress, 2004, 317 s.

16. **ŞIXƏLİYEV** Emin. İngiltərənin geosiyasi maraqlarında "erməni məsələsi"nin yeri və Azərbaycana təsiri (1917-1920). Naxçıvan: Əcəmi, 2016, 144 s.
17. **ULUSEL** Rahid S. Qloballaşma və Türk sivilizasiyası. Bakı: Çaşıoğlu, 2005, 152 s.

**Türk dilində**

18. **ACER** Yücel. Terörizm kavramı açısından ermeni terörü ve genel nitelikleri // Ermeni Araştırmaları Dergisi, 2003, sayı:8, s. 114-136.
19. **AKAR** Atilla. Derin dünya devleti: gizli doktrinin küresel efendileri. İstanbul: Timaş yayınları, 2003, 302 s.
20. **AKGÜN** Mustafa. Yahudinin tahta kılıcı. İstanbul: RA yayıncılık, 2006, 512 s.
21. **ARI** Tayyar. Geçmişten günümüze Ortadoğu: Siyaset, savaş ve diplomasi. İstanbul: Alfa yayınları, 2004, 3-cü baskı, 880 s.
22. **ARMAOĞLU** Fahir. Filistin meselesi ve Arap-İsrail savaşları (1948-1988). Ankara: Türkiye İş Bankası Kültür yayınları, 1991, 591 s.
23. **ARMAOĞLU** Fahir. 19. yüzyıl siyasi tarihi (1789-1914). Ankara: Türk Tarih Kurumu, 1997, 821 s.
24. **ARMAOĞLU** Fahir. 20. yüzyıl siyasi tarihi (1914-1980): 2 ciltte, I c., Ankara: Türkiye İş Bankası Kültür yayınları, 1991, 884 s.
25. **AVCI** Halil Ersin. İngiliz-ermeni ittifakı. İstanbul: Paraf yayınları, 2010, 448 s.
26. **AYAN** Ergin. Ermeni-haçlı işbirlikleri // Ermeni Araştırmaları Dergisi, 2007, sayı:26, s. 49-73.
27. **AYDOĞAN** Metin. Bitmeyen oyun: Türkiye'yi bekleyen tehlikeler. İstanbul: Kumsaati yayınları, 2003, 422 s.
28. **BAIGENT** Michail, **LEIGH** Richard, **LINCOLN** Henry. Kutsal Kan – Kutsal Kase: savaşçı keşişler tarikatı-tapınak şövalyeleri. İstanbul: Nokta yayınları, 2004, 560 s.
29. **BİLBİLİK** Erol. Amerikan kuşatması. İstanbul: Otopsi yayınları, 2003, 419 s.
30. **BLUM** William. Haydut devlet: dünyanın tek super gücü için bir

rehber. İstanbul: Yenihayat yayınları, 2003, 352 s.
31. **BRZEZINSKI** Zbigniew. Büyük satranç tahtası: Amerika'nın önceliği ve bunun jeostratejik gerekleri. İstanbul: Sabah kitapları, 1998, 192 s.
32. **BROWN** Dan. Da Vinci şifresi. İstanbul: Altın kitaplar, 2005, 495 s.
33. **BULAÇ** Ali. Cihadı neden yanlış anlıyoruz? // DA-Diyalog Avrasya Dergisi, 2002, sayı:6, s. 23-31.
34. **BUSH** George W. Bu bir savaştır // Düşmanını arayan savaş. Derleyenler: Metin Sever, Ebru Kılıç. İstanbul: Everest yayınları, 2001, s. 117-119.
35. **CANAN** İbrahim. Hadis ansiklopedisi, kütüb-i sitte: 17 ciltte, cilt:15, İstanbul: Akçağ yayınları, 560 s.
36. **CANDAN** Ergun. Bilinmeyen yönleri ve sırlarıyla son üç peygamber. İstanbul: Sınır ötesi yayınları, 2002, 336 s.
37. **CERRAHOĞLU** Nilgün. Kilise Türkiye'nin AB adaylığına karşı. "Milliyet" gazetesi, 2000, 10 Ocak.
38. **ÇAĞATAY** Neşet. Başlangıçtan Abbasilere kadar (dini-içtimai-iktisadi-siyasi açıdan) İslam tarihi. Ankara: Türk Tarih Kurumu, 1993, 586 s.
39. **ÇEBİ** Hakan Yılmaz. İsrail'in şifresi. İstanbul: Pegasus yayınları, 2009, 360 s.
40. **ÇİMEN** Ali, **GÖĞEBAKAN** Göknur. Tarihi değiştiren savaşlar. İstanbul: Timaş yayınları, 2009, 432 s.
41. **ÇİMEN** Ali. Tarihi değiştiren imparatorluklar. İstanbul: Timaş yayınları, 2009, 496 s.
42. **DAVUTOĞLU** Ahmet. Stratejik derinlik: Türkiye'nin uluslararası konumu. İstanbul: Küre yayınları, 2010, 584 s.
43. **DENKER** M.Sami. Uluslararası terör: Türkiye ve PKK. İstanbul: Boğaziçi yayınları, 1997, 198 s.
44. **ECE** Hüseyin Kerim. Kuran'da "Kurban" kavramı // Kurani Hayat Dergisi, 2009, yıl:2, sayı:9, s. 16-20.
45. **ERER** Raşid. Türklere karşı Haçlı seferleri. İstanbul: Kaknüs yayınları, 2002, 184 s.
46. **FUKUYAMA** Francis. Tarihin sonu ve son insan. İstanbul: Profil yayıncılık, 2016, 6-cı baskı, 528 s.

47. **GUŞER** Anatoli İvanoviç. Terörizm ancak uluslararası işbirliğiyle önlenir // DA-Diyalog Avrasya Dergisi, 2002, sayı:6, s. 32-41.
48. **GÜNDÜZ** Süleyman. Taliban, Ladin ve Amerika kıskacında Afganistan / Afganistan, Taliban ve Ladin. İstanbul: Birey yayıncılık, 2001, s. 11-42.
49. **HART** Michael H. En etkin 100. İstanbul: Sabah kitapları, 1995, 489 s.
50. **HAUGHT** James A. Kutsal dehşet: dinsel cinayetler tarihi. İstanbul: Aykırı yayınları, 1999, 160 s.
51. **HUNTINGTON** Samuel P. Medeniyetler çatışması ve dünya düzeninin yeniden kurulması. İstanbul: Okuyan Us yayınları, 2005, 536 s.
52. **İSLAMOĞLU** Mustafa. İsrailoğulları'ndan ümmeti-i Muhammed'e yahudileşme temayülü. İstanbul: Denge yayınları, 1995, 398 s.
53. **İSLAMOĞLU** Mustafa. Kurban olmak: sürekli huzur-ı İlahide bulunmak // Kurani Hayat Dergisi, 2009, yıl:2, sayı: 9, s. 3-9.
54. **KARADAĞ** Raif. Petrol fırtınası. İstanbul: Truva yayınları, 2014, 328 s.
55. **KARAGÜL** İbrahim. Sorun Amerika'nın İslam'la savaşı mı? / Afganistan, Taliban ve Ladin. İstanbul: Birey yayıncılık, 2001, s. 135-146.
56. **KAŞKARLI** Mehlika Aktok. Haçlı seferleri ve ermeniler / Türk-ermeni ilişkileri. 21. yüzyıla girerken tarihe dostça bakış. Ankara: AKDTYK Atatürk Araştırma Merkezi, 2000, s. 29-36.
57. **KISSINGER** Henry. Diplomasi. Ankara: Türkiye İş Bankası Kültür yayınları, II baskı, 2000, 811 s.
58. **KIRPIK** Güray. Birinci haçlı seferinde ve Kurtuluş Savaşı'nda türk-ermeni-fransız münasebetlerinin benzer yönleri // Turkish Studies, International Periodical For the Languages, Literature and History of Turkish or Turkic, 2008, Volume ¾, s. 531-548.
59. **KÜÇÜK** Abdurrahman. Ermeni kilisesi ve türkler. Ankara: Ocak yayınları, 1997, 312 s.
60. **LAÇINER** Sedat. Ermeni iddiaları ve terör / Ermeni sorunu el

kitabı. Ankara: Ankara Üniversitesi basımevi, 2003, s. 95-122.
61. **MAALOUF** Amin. Ölümcül kimlikler. İstanbul: YKY, 2002,133 s.
62. **MARRS** Texe. İlluminati: entrika çemberi. İstanbul: Timaş yayınları, 2002, 286 s.
63. **MARSCHALKO** Louis. Yahudi. İstanbul:Sebil yayınevi,1993,333 s.
64. **MERCAN** Şeref. İlluminati: piramitte sona doğru. İstanbul: Nokta Kitap yayınları, 2006, 432 s.
65. **MISIROĞLU** Kadir. Filistin dramının düşündürdükleri. İstanbul: Sebil yayınları, 2004, 208 s.
66. **MÜLLER** Harald. Kültürlerin uzlaşması. İstanbul: Timaş yayınları, 2001, 232 s.
67. **NUSS** P.Xavier, **DEMİREL** Hakkı. Hıristiyan öğretisi. İstanbul: Müjde yayıncılık, 1994, 131 s.
68. **ÖKE** Mim Kemal. Siyonizm'den uygarlıklar çatışmasına Filistin sorunu. İzmir: Ufuk kitapları, 2002, 507 s.
69. **ÖZEY** Ramazan. Küresel işgal: dünyanın anahtarına sahip olma mücadelesi. İstanbul: Aktif yayınevi, 2003, 215 s.
70. **ÖZTÜRK** Yaşar Nuri. Türkiye'yi kemiren ihanet: Allah ile aldatmak. 57-ci baskı. İstanbul: Yeni boyut yayınları, 2008, 398 s.
71. **ÖZTÜRK** Yaşar Nuri. İslam nasıl yozlaştırıldı? İstanbul: Yeni boyut yayınları, 2012, 18-ci baskı, 486 s.
72. **PILGER** John. Dünyanın yeni efendileri: küresel yağmacılığın gerçek yüzü. İstanbul: Timaş yayınları, 2003, 216 s.
73. **SARIKÇIOĞLU** Ekrem. Diğer İnciller (Apokrif İnciller). Isparta: Fakülte kitabevi, 2009, 287 s.
74. **SHENKMAN** Richard. İnsanlık tarihinde büyük yalanlar. İstanbul: Milliyet yayınları, 1998, 229 s.
75. **TANİLİ** Server. Uygarlıklar tarihi. İstanbul: Cem yayınevi, 1994, 622 s.
76. **TOKATLI** Atilla. Eski büyücülerden çağdaş darbecilere gizli örgütler. İstanbul: Bilge Karınca yayınları, 2003, 247 s.
77. **TÜMER** Günay, **KÜÇÜK** Abdurrahman. Dinler tarihi. Ankara: Ocak yayınları, 1997, 510 s.
78. **UĞUR** Ali. Dünya gündemindeki İsrail. İstanbul: Burak yayınevi, 1998, 224 s.

79. **VATANDAŞ** Aydoğan, **AYDIN** Mustafa. 11 Eylül senaryosu: kod adı kılıçbalığı. İstanbul: Karakutu yayınları, 2002, 184 s.
80. **ZUHAYLI** Vehbe. İslam Fıkıh Ansiklopedisi. İstanbul: Risale yayınları, 1994, 503 s.

**Rus dilində**

81. **КРЫВЕЛЕВ** Иосиф Аронович. Книга о Библии. Москва: издательство "Социально-экономической литературы", 1959, 359 с.
82. **НИКОНЕНКО** Станислав Степанович. Легенда об Иисусе Христе. Москва: издательство "Советская Россия", 1964, 87с.
83. **СВЕНЦИЦКАЯ** Ирина Сергеевна. Раннее христианство: страницы истории. Москва: изд-во "Политической литературы", 1988, 335 с.

**İngilis dilində**

84. **BOWEN** Huw. War and British Society (1688-1815). Cambridge: Cambridge University press, 1998, 100 p.
85. **By AzerNEWS Staff.** US plans new world division, research says. Pentagon scheme to split Islamic states. "AzerNEWS" International newspaper, Baku, 2006, November 1-7, No: 44 (496).
86. **CHURCH** Jerry Rolan. Guardians of the Grail. Oklahoma: Prophecy in the News, 1999, 525 p.
87. **LAQUEUR** Walter. Post-Modern Terrorism // Foreign Affairs, 1996, vol:75, №5, p. 24-36.

**İnternet adresləri**

88. **Ahmet Akyol.** Tarihte kurban ve kurban ibadetleri. http://www.ahmetakyol.net/tarihte-kurban-ve-kurban-adetleri/
89. **Akhenaton.** Tarih boyunca kurban, I. http://gizliilimler.tr.gg/ Tarih-Boyunca-Kurban,-I.htm
90. **Altan Armutak.** Tarihte kurban edilen hayvanlar üzerine-1. http://toplumvetarih.blogcu.com/tarihte-kurban-edilen-hayvanlar-uzerine-1/9123930
91. **Altan Armutak.** Tarihte kurban edilen hayvanlar üzerine-2.

http://toplumvetarih.blogcu.com/tarihte-kurban-edilen-hayvanlar-uzerine-2/9123938
92. Apis öküzü (Ox Apis). http://www.akhepedia.com/forum/eski-misir/apis-okuzu-(ox-apis)/msg2163/?PHPSESSID=fjk0h77fd5m7ki1erpcja6bvi3#msg2163
93. Batılılar Türkleri neden sevmez? http://www.strangenotions. com/the-crusdades-urban-legends-anf-truth/
94. **Can Metedoran.** Apis Öküzü festivali - Mısır Mitolojisi. http://canmetedoran.blogspot.com/2015/07/apis-okuzu-festivali-msr-mitolojisi.html
95. **Douglas Beaumont.** The Crusades: Urban legends and truth. www.minare.net/avrupa-turkleri-neden-sevmez.html
96. **Hikmet Erol.** Geçmişten günümüze ABD'nin Ortadoğu politikası. http://www.tuicakademi.org/gecmisten-gunumuze-abdnin-ortadogu-politikasi/
97. http://gizemliilimler.blogspot.com/2012/10/apis-okuzu-ox-apis.html
98. http://www.1001kitap.com/Guncel/Tamer_Andrea_Bacinoglu/modern_alman_oryantalizmi/almanyaveermeni.html
99. http://democracyfrontline.org/blog/?p=133
100. http://www.di2.nu/files/MuhammedCartoonsJyllandsPosten.html
101. **Sait Yılmaz.** IŞİD ve Ortadoğu'da "uzun savaş". http://www.21yyteşorg/tr/arastirma/terorizm-ve-terorizmle-mucadele/2014/09/24/7768/isid-ve-ortadoguda-uzun-savas
102. **Sami Baybal.** İslam'a gore İsa-Mesih yeniden dünyaya dönecek mi? http://www.zehirli.org/isamesih/islam-a-gore-isa-mesih-yeniden-dunyaya-donecek-mi.html
103. **Sedat Laçıner.** İsrail'in ermeni iddialarına yaklaşımı ve ermeni sorunu'na etkileri. http://www.turkishweekly.net/ turkce/makale.php?d=66
104. **Soner Yalçın.** Hz. Muhammed'in babası kurban edilecekti. http://www.sozcu.com.tr/2014/yazarlar/soner-yalcin/hz-muhammedin-babasi-kurban-edilecekti-615900/
105. **Şenol Kantarcı.** Fransa'nın yeni Ermeni kartı: Türkiye-Fransa ilişkilerinde kriz.

http://www.turksam.org/tr/a2251.html
106. “The National Strategy of the United States of America”, september 2002. http://www.whitehouse.gov/nsc/nss.html
107. **Thomas F.Madden.** The real history of the Crusades. www.christianitytoday.com/ct/2005/mayweb-only/52.0.html
108. Kürdistan bağımsızlık referandumunun perde arkası. https://www.kokludegisim.net/haberler/kurdistan-bagimsizlik-referandumunun-perde-arkasi-soru-cevap.html
109. Iraqi Kurds decisively back independence in referendum. http://www.bbc.com/news/world-middle-east-41419633
110. **İbrahim Okçuoğlu.** Suriye’de keskinleşen emperyalistlerarası çelişkilerin ve savaşın yeni bir aşaması. http://ibrahimokcuoglu.blogspot.ru/2018/03/suriyede-keskinlesen-emperyalistler.html#more
111. **İbrahim Okçuoğlu.** Dost ve düşman. http://ibrahimokcuoglu.blogspot.ru/2018/04/dost-ve-dusman.html#more
112. İsra ve miraç nedir? http://www.hayatinsirri.net/mirac_nedir.html
113. **Cemil Kılıç.** Bir efsanenin yıkılışı: Miraç ve İsra gerçeği. http://www.cemilkilic.com/makale-37-bir-efsanenin-yikilisi-mirac-ve-isra-gercegi.html
114. **Mustafa İslamoğlu.** Şuurun en yüksek hali ve vicdanın salih ameli olarak: Takva. https://mustafaislamoglu.com/suurun-en-yuksek-hali-ve-vicdanin-salih-ameli-olarak-takva/

## MÜƏLLİFİN DİGƏR ƏSƏRLƏRİ:

**Türkiye ve Azerbaycan açısından ermeni sorunu. Ankara: Türk Vakfı yayınları, 2002, 231 s.**

**Kafkasya jeopolitiğinde Rusya, İran, Türkiye rekabetleri ve ermeni faktörü. Ankara: Naturel yayıncılık, 2004, 378 s.**

**Erməni iddialarının siyasi mahiyyəti. Bakı: Nurlan, 2006, 187 s.**

**Ermənistan-Azərbaycan münaqişəsi sivilizasiyalararası münasibətlər kontekstində. Bakı: Elm və Təhsil, 2011, 324 s.**

**İngiltərənin geosiyasi maraqlarında "erməni məsələsi"nin yeri və Azərbaycana təsiri (1917-1920). (Böyük Britaniyanın arxiv materialları əsasında). Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2016, 144 s.**

**Böyük Güclərin Azərbaycanla bağlı geosiyasi maraqlarında Naxçıvanın yeri. Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2017, 300 s. (həmmüəlliflər: İ.Hacıyev, E.Şıxəliyev, E.Cəfərli, M.Şabanov).**

**Geosiyasi maraqların toqquşması kontekstində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi. Naxçıvan: "Əcəmi", 2018, 384 s.**

**Emin Arif (Şıxəliyev)**

***Müasir səlib yürüşlərinin hədəfi: terrorizm, yoxsa İslam?!***

***Təkmilləşdirilmiş ikinci nəşr***

Çapa imzalanmış 24.09.2019.
Formatı 60X90 1/16 "Tayms" qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 9.5 ç.v.
Sifariş № 637. Tiraj 100 nüsxə.

Naxçıvan şəhəri, Təbriz küçəsi, 1.